RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 72 (9817) 13 aprel 2025-ci il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Ali etimad, yüksələn nüfuzun təcəssümü



## Azərbaycan və Türkiyə regional təhlükəsizliyin təminatçıları, sülh və əməkdaşlığın təşəbbüskarıdırlar

Son bir neçə ildə İlham Əliyevin Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət Görüşündə, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 6-cı Zirvə Görüşündə, Şanxay Əməkdaşlıq Təşkilatının sammitlərində, Ərəb Dövlətləri Liqasının 31-ci Sammitində, SPECA - Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi BMT Proqramının Zirvə Görüşündə, Davos Dünya İqtisadi Forumunda iştirakı ölkəmizə marağın əyani təcəssümüdür. Prezident İlham Əliyevin IV Antalya Diplomatiya Forumunda iştirakını da Azərbaycanın beynəlxalq nüfuzunun davamlı artmasının növbəti təsdiqi kimi göstərmək olar. Forum müxtəlif ölkələrdən nüfuzlu siyasətçiləri, dövlət və hökumət başçılarını, xarici işlər nazirlərini bir araya gətirərək, son illər ərzində region üçün əhəmiyyət kəsb edən ən önəmli məsələlərin və çağırışların müzakirəsi baxımından çox vacib beynəlxalq platformaya çevrilib.

Prezident İlham Əliyevin bu forumda iştirakı bir daha göstərir ki, Azərbaycan yalnız regionda deyil, həm də qlobal miqyasda etibarlı tərəfdaş və təşəbbüskar dövlət kimi qəbul edilir. Dövlət başçısının beynəlxalq münasibətlər sahəsində zəngin təcrübəsi, strateji baxışları və praqmatik yanaşmaları onu beynəlxalq platformalarda böyük maraqla qarşılanan Liderə çevirib. Prezident İlham Əliyevin iştirakı ilə keçirilən forumlar və zirvə görüşləri təkcə diplomatik formatda deyil, həm də məzmun və nəticələr baxımından yeni keyfiyyət mərhələsinə yüksəlir.

Ümumiyyətlə, Türkiyə-Azərbaycan münasibətlərinin unikal xarakteri və bu əlaqələrin sabitliyi regional inteqrasiya və ortaq inkişaf baxımından da nümunəvi model kimi çıxış edir. Prezident İlham Əliyevin Antalyaya işgüzar səfəri və Antalya Diplomatik Forumunda iştirakı təkcə iki ölkə arasında strateji münasibətlərin daha da möhkəmləndirilməsi baxımından deyil, həm də Azərbaycanın beynəlxalq mövqelərinin güclənməsi və sülh təşəbbüslərinin irəlilədilməsi baxımından da mühüm hadisə oldu.

→ 4

## Azərbaycan və Avropa Şurası arasında əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparılıb

### Prezident İlham Əliyevin Antalyada Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşü olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 12-də Antalyada Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Alen Bersenin COP29 çərçivəsində ölkəmizə səfəri və onun Azərbaycan Prezidenti ilə görüşü məmnunluqla xatırlandı. COP29 zamanı qlobal iqlim gündəliyi ilə bağlı vacib qərarların qəbul olunduğu bir daha vurğulandı.

Görüşdə Azərbaycan ilə Avropa Şurasının icraedici strukturları arasında əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## Azərbaycanın barış və sülh missiyası



ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda Prezident İlham Əliyevə verilən suallardan biri də elə bu mövzuda oldu. Almaniyanın Beynəlxalq və Təhlükəsizlik Məsələləri üzrə İnstitutunu təmsil edən Darya İsaçenko Azərbaycanın Türkiyə ilə İsrail arasında gərginliyin azaldılması istiqamətində hər hansı bir fəaliyyətdə rol oynaması ilə maraqlandı.

Məlum olduğu kimi, həm Türkiyə, həm də İsrail Azərbaycana yaxın dövlətlərdir. Türkiyə respublikamızın müttəfiqidir. İsrail də dost dövlətdir. Ona görə də, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu iki ölkə arasındakı gərginlik bizim üçün çox narahatlıq doğurur. Təbii ki, Azərbaycan belə vəziyyətdə seyrçi qala bilməzdi. Prezident İlham Əliyev forumda bu barədə danışaraq dedi ki, Türkiyə ilə İsrail arasında ilk uğurlu barışıq müəyyən dərəcədə Azərbaycanın vasitəçiliyi ilə əldə olunub. "İlk böhran zamanı biz ölkələri yaxınlaşdırmağa çalışmaq üçün fəal rol oynadıq. Bu, təkcə Azərbaycan deyildi, lakin deyərdim ki, Azərbaycan bu prosesdə birinci yerdə idi. Yenə də bu, bağlı qapılar arxasında baş verdi. Biz bunu heç vaxt ictimailəşdirmədik. Biz buna görə heç vaxt özümüzü təriflməyə çalışmadıq. Biz, sadəcə olaraq, müttəfiqimiz və qardaşımız olan Türkiyəyə, dostumuz İsraillə öz əlaqələrini yenidən qurmaq üçün yardım etmək istədik", - deyə Prezident bildirdi.

Bu gün də Azərbaycan Türkiyə və İsrail arasında münasibətlərin normallaşmasına çalışır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan prosesə kömək etmək üçün əlində olan hər şeyi edir.

Azərbaycanın dünyada sülhün təmin olunmasına verdiyi töhfələr, həyata keçirdiyi barışdırıcılıq missiyası həm də beynəlxalq miqyasda söz sahibi olması ilə əlaqədardır. Dünyanın aparıcı siyasi və iqtisadi dairələri Azərbaycanın regiondakı liderliyini, Prezident İlham Əliyevin qlobal siyasətdəki rolunu daim yüksək qiymətləndirirlər. Bütün bunlar həm də onu deməyə əsas verir ki, Azərbaycan qlobal səviyyəli məsələlərin həllində fəal iştirakçıdır.

→ 3

## Qərbi azərbaycanlıların doğma yurdlarına qayıtmaq istəklərini Ermənistan qəribçiliyə salmasın

Faktiki olaraq biz 1990-cı illərin əvvəllərində Qarabağ münaqişəsi ilə bağlı təhrif edilmiş təsəvvürü tamamilə dəyişdirə bildik. İnformasiya müharibəsi və İkinci Qarabağ müharibəsi onu göstərdi ki, bu, az əhəmiyyət kəsb etmir. Ona görə burada da icmanın xaricdəki fəaliyyəti xüsusi önəm daşımalıdır. Sərgilər, təqdimatlar, beynəlxalq konfranslar keçirilməlidir. Azərbaycan diaspor təşkilatları ilə birlikdə aksiyalar keçirilməlidir. Xarici ölkələrin siyasi dairələri, mətbuat və qanunvericilik orqanları ilə təmaslar qurulmalıdır.

→ 5




## İlham Əliyevin uğur formulu

Ölkəmizin Fransanın müstəmləkəçilik siyasətini, "demokratiya" adı altında gizlətdiyi əcaib simasını ifşa etməsi isə təbii ki, Makron hökumətinin xoşuna gəlmir. Buna görə də Paris daxili və xarici siyasətdə uğradığı bütün fiaskoların günahını Azərbaycanda axtarmağa bir növ adətkərdə olub. Bu ilin əvvəlində Azərbaycanı guya Fransanın daxili işlərinə qarışmaqda ittiham edərək özünü dünyada rüsvay edən Makronun komandasının üzvləri də vaxtaşırı ölkəmizlə bağlı gülünc ittihamlarla çıxış edirlər.

→ 6



## Bir "yaşıl enerji" dəhlizi isə başlanğıcını Naxçıvandan götürəcək

Naxçıvanın özünün "yaşıl enerji" mənbələri potensialı ilə enerjinin bu növünün ixracatçısına çevrilməsi də hədəflənib. Bu istiqamətdə Azərbaycan-Türkiyə Enerji Forumu möhkəm platforma təşkil edir.

İlk dəfə 2021-ci ildə Bakıda təşkil olunan Azərbaycan-Türkiyə Enerji Forumu iki qardaş ölkə arasında enerji sahəsində əməkdaşlığı inkişaf etdirmək üçün nəzərdə tutulmuşdu. Əsasən "yaşıl enerji" konsepsiyası çərçivəsində formalaşdırılan bu platforma enerji sahəsində əməkdaşlığın müttəfiqlik səviyyəsinə yüksəldilməsini hədəfləyirdi. 2022-ci ildə Türkiyədə keçirilən ikinci forumdan sonra növbəti dəfə tədbirə Naxçıvan evsahibliyi etdi.

→ 8



# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider

## Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri başa çatıb





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri aprelin 12-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Antalya Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Antalya şəhərinin valisi Hulusi Şahin və digər rəsmi şəxslər yola saldılar.



## Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Antalya Diplomatiya Forumunun panel iclasında iştirak edib





**Aprelin 12-də Türkiyənin Antalya şəhərində keçirilən Antalya Diplomatiya Forumu çərçivəsində "Parçalanan dünyada gələcəyin qurulması: Təhsilin transformasiya gücü" adlı panel iclas təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva tədbirdə iştirak ediblər.

Tədbirdən əvvəl Afrika Mədəniyyət Evinin stendi ilə tanışlıq olub. Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğanın təşəbbüsü ilə 2016-cı ildə qurulan Afrika Mədəniyyət Evinin fəaliyyətinin məqsədi afrikalı qadınların əl əməyini təbliğ etmək, onların fəaliyyətini iqtisadi dəyərə çevirmək və mədəni həmrəyliyi gücləndirməkdir.

Türkiyə Maarif Vəqfinin dəstəyi ilə keçirilən tədbir bu qurumun fəaliyyətindən bəhs edən videoçarxın nümayişi ilə başlayıb.






İclasda qurumun dünyada həyata keçirdiyi işlərdən bəhs edildi. Bildirildi ki, dünyanın 55 ölkəsində fəaliyyət göstərən Vəqfin məktəblərində 70 minə yaxın şagird təhsil alır.

Panel iclasda hazırkı dövrdə təhsilin inkişafının vacibliyindən geniş danışıldı.

Türkiyənin birinci xanımı Əminə Ərdoğan çıxış edərək müharibələrin çoxaldığı bir dövrdə təhsilin nə qədər əhəmiyyətli olduğuna diqqət çəkdi. Bildirdi ki, təhsil bu gün sosial iştirak və davamlı inkişaf üçün hər zaman olduğundan daha çox vacibdir.

Sonra Türkiyə Maarif Vəqfinin Kot-d'İvuar Respublikasındakı məktəbinin şagirdləri müxtəlif dillərdə mahnılar oxudular.

Panel iclas müzakirələrlə davam etdirildi.

## YAP Sədrinin müavini ilə Ulusal Birlik Partiyasının Sədri arasında görüş keçirilib








**Aprelin 12-də IV Antalya Diplomatiya Forumu çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri, Ulusal Birlik Partiyasının (UBP) Sədri Ünal Üstel arasında görüş keçirilib.**

Görüşdə xalqlarımız arasında münasibətlərin tarixi ənənələrə, ortaq dəyərlərə, dostluq və qardaşlıq prinsiplərinə əsaslandığı vurğulanıb. Azərbaycan Respublikası ilə Şimali Kipr Türk Cümhuriyyəti arasında son illərdə sıx təmasların olduğu qeyd edilərək müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq üçün geniş imkanların mövcudluğu bildirilib.

Görüş əsnasında Azərbaycan Prezidenti İlham Əliyevin mənəvi-siyasi dəstəyinin Şimali Kipr Türk Cümhuriyyəti üçün böyük əhəmiyyətə malik olduğu vurğulanıb. Türk dünyasında əməkdaşlığın dərinləşdirilməsinin hər iki ölkə üçün mühüm prioritet olduğu bildirilərək bu xüsusda həyata keçirilən fəaliyyətin əhəmiyyəti qeyd olunub.

2023-cü il noyabrın 14-də Yeni Azərbaycan Partiyası, Ədalət və İnkişaf Partiyası və Ulusal Birlik Partiyası arasında üçtərəfli Anlaşma Memorandumunun imzalanmasının önəmi qeyd edilərək qarşıda duran vəzifələrin indiyədək uğurla icra olunduğu bildirilib, bundan sonra da məqsədyönlü birgə fəaliyyətin davam etdirilməsinin əhəmiyyəti nəzərə çatdırılıb.

Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərovun da iştirak etdikləri görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

*"Azərbaycan"*

## Azərbaycan və Türkiyə müdafiə nazirləri Antalyada hərbi əməkdaşlığın cari vəziyyətini müzakirə ediblər



**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Antalya Diplomatiya Forumu çərçivəsində Türkiyənin milli müdafiə naziri Yaşar Gülərlə görüşüb.**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, görüşdə hər iki qardaş ölkə arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, həmçinin regional təhlükəsizlik məsələlərinə dair fikir mübadiləsi aparılıb.

## ADF2025-də Türk Dövlətləri Təşkilatının özünəməxsus əməkdaşlıq modeli müzakirə olunub



**Aprelin 12-də IV Antalya Diplomatiya Forumu (ADF2025) çərçivəsində "Türk Dövlətləri Təşkilatı: Özünəməxsus bir əməkdaşlıq modeli" mövzusunda panel iclas keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov, Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev, TDT-nin Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım, Qazaxıstanın nəqliyyat naziri Marat Karabayev, Özbəkistan Ali Məclis Senatı sədrinin birinci müavini Sodiq Safoyev, Qırğızıstan Prezidentinin xüsusi nümayəndəsi, bu ölkənin xarici işlər nazirinin müavini Asein İsayev iştirak ediblər.

Kapadokya Universitetinin rektoru Hasan Ali Karasarın moderatorluğu ilə keçirilən paneldə Türk Dövlətləri Təşkilatı ölkələri arasındakı əməkdaşlığın ticarət, enerji, maliyyə, turizm, təhsil, mədəniyyət kimi mühüm sahələri əhatə etdiyi vurğulanıb.

Çıxışçılar bildiriblər ki, ortaq kimlik və regional mənsubiyyət əsasında qurulan və əməkdaşlıq sahələri hər gün daha da dərinləşən TDT güclü siyasi iradə əsasında formalaşaraq beynəlxalq quruma çevrilib.

Paneldə təşkilatın özünəməxsus əməkdaşlıq modeli, bunun yaratdığı potensial və baxışa diqqət çəkilərək TDT-nin irəli sürdüyü təşəbbüslərin regional və qlobal çağırışlara necə töhfə verə biləcəyi ətrafında müzakirələr aparılıb. İştirakçılar təşkilatın geosiyasi mühitin formalaşmasındakı artan rolunu təhlil ediblər.

Kubanıçbek Ömüralıyev çıxışında TDT-nin artıq inkişaf edən deyil, özünəməxsus fəaliyyətlərlə üzv ölkələrin hərtərəfli inkişafına töhfə verən quruma çevrildiyini bildirib.

Qeyd edilib ki, bu təşkilat İstanbulda keçirilən Zirvə görüşü ilə tamamlanaraq 170 milyondan artıq insanı əhatə edən coğrafiyanın hədəflərinə fokuslanıb.

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider

## Macarıstan və Ukrayna mediası ADA Universitetinin Xankəndi və Bakıda keçirdiyi beynəlxalq forumdan yazıb










Macarıstanın ən geniş oxucu auditoriyasına malik olan ingilisdilli "Daily News Hungary" nəşri Bakıda ADA Universitetinin təşkilatçılığı ilə keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forum haqqında material dərc edib.

AZƏRTAC xəbər verir ki, məqalədə bu mötəbər tədbirin missiyası və məqsədləri haqqında məlumat verilir. Materialda builki forumda dörd macar ekspertinin - Laşpo Vaşa, Şandor Şeremet, İştvan Kiş və Zoltan Eqereşinin iştirak etdikləri diqqətə çatdırılır. Onlar müxtəlif akademik institutları və beyin mərkəzlərini təmsil edirlər. Nəşrə müsahibə verən L.Vaşa qeyd edib ki, keçirilən forumun iştirakçıları arasında olmaq, Qarabağa səfər etmək və Prezident İlham Əliyevin çıxışına qulaq asmaq onun üçün faydalı bir imkan olub.

Ukraynanın aparıcı kütləvi informasiya vasitələri ADA Universitetində Azərbaycan Prezidenti İlham Əliyevin "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda çıxışına geniş yer ayırıb.

"RBK-Ukrayna", "Senzor", "Korrespondent", "24tv.ua" və digər media orqanlarında dərc edilən məqalələrdə Prezident İlham Əliyevin Ukrayna-Rusiya müharibəsinin tənzimlənməsinə dair fikirləri işıqlandırılıb.

Məqalələrdə dövlətimizin başçısının çıxışına istinadla yazılır ki, real dünyada müharibələr yalnız tərəflərdən biri təslim aktı imzaladıqdan sonra sona çatır. "Atəşkəs rejimi" ancaq yenidən toparlanmaq, səfərbər olmaq və hər şeyi yenidən başlamaq üçün lazımdır.

"Şəxsən mən realist olaraq, yaxın gələcəkdə Ukrayna ilə Rusiya arasında sülh üçün hər hansı perspektivi görmürəm", - deyə məqalələrdə Prezident İlham Əliyevin sitatı qeyd olunub.

Yazılarda Azərbaycan Prezidentinin fikirlərinə istinadla bildirilir ki, Rusiya işğal olunmuş əraziləri Rusiyanın bir hissəsi kimi bəyan edib. Onlar bundan necə geri çəkilə bilərlər? Ukrayna, o cümlədən bütün dünya həmin işğal olunmuş əraziləri Ukraynanın hissəsi hesab edir. Azərbaycan da onları Ukraynanın hissəsi hesab edir. Onda necə qurban verə bilər və deyə bilər ki, ərazilər Ukraynanın deyil?

"Əgər bu baş verərsə, onda belə çıxır ki, mən beynəlxalq siyasətdə nəyi isə başa düşmürəm. Əfsuslar olsun ki, müharibələr yekun kapitulyasiya aktı olanda bitir", - deyə məqalələrdə Azərbaycan Prezidentinin sitatı vurğulanıb.

## Antalya Forumunda Cənubi Qafqazda regional əməkdaşlığa dair çağırışlar və fürsətlər müzakirə olunub






**IV Antalya Diplomatiya Forumunun (ADF2025) ikinci günündə əsas gündəm maddələrindən biri "Cənubi Qafqazda regional əməkdaşlığa dair çağırışlar və fürsətlər" mövzusunun müzakirəsi olub.**

AZƏRTAC xəbər verir ki, bununla bağlı keçirilən panel iclasda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, eləcə də Gürcüstan və Ermənistanın XİN başçıları Maka Boçorişvili ilə Ararat Mirzoyan iştirak ediblər.

Tədbirdə çıxış edən Ceyhun Bayramov İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan və Ermənistanın Cənubi Qafqazda tarixi bir hadisə olaraq normallaşma prosesinə başladığını vurğulayıb. O qeyd edib ki, 44 günlük müharibədən sonra Azərbaycan Ermənistanla sülhün əldə olunması və sülh sazişinin imzalanması məsələsini gündəmə gətirib. 2022-ci ilin oktyabr ayında başlayan bu proses qarşılıqlı görüşlərlə davam edib. Bu müddət ərzində bir çox görüşlər keçirilib. Ötən ay sülh sazişinin mətninin hazırlanma prosesi başa çatıb. Növbəti mərhələdə sənədin icrasına başlanılacaq və prosesin yekunlaşacağı gözlənilir.

Azərbaycanın xarici işlər naziri onu da qeyd edib ki, bu proseslə biz uzun illər fəaliyyəti dayandırılmış bir məsələnin yenidən işə salınmasına başlayırıq. Ermənistan da bu gerçəyi qəbul edir. Bununla bağlı Ermənistan konstitusiyasında lazımi dəyişikliklər ediləcək ki, bu dəyişikliklər torpaqlarla bağlı haqq iddiaları məsələsinin həllinə gətirib çıxaracaq. C.Bayramov əlavə edib: "Artıq Azərbaycan və Ermənistan arasında Sülh sazişinin imzalanması ilə bağlı başqa maneələrlə qarşılaşacağımızı düşünmürük. Azərbaycanla Ermənistan sülh baxımından çox uğurlu bir dövrü geridə qoyub".

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan tarixi düşüncələrə bağlı qalmağın doğru olmadığını vurğulayıb və xalqların gələcəyi naminə önümüzə baxmağın vacibliyini qeyd edib. O, məsələyə hər iki tərəfə fayda verəcək qurucu bir baxışla yanaşmağın düzgün olduğunu düşündüyünü bildirib: "İndi biz fikrimizi bu günə və gələcəyə cəmləşdirməliyik. "Kim daha çox insan öldürdü" kimi keçmişə bağlı iddiaları davam etdirmək yalnız yeni mübahisələrə səbəb olacaq. Biz, ilk növbədə, bölgədə sülhü inşa etməliyik".

Mirzoyan uzun danışıqlardan sonra sülh sazişinin mətni ilə bağlı ortaq fikrə gəldiklərini, artıq sənədin imzalanma tarixi və yerini müəyyən etməli olduqlarını bildirib. O, mətndə konstitusiyadakı suverenlik aktına istinad edilən maddə ilə bağlı dəyişiklik məsələsinin mövcudluğunu qeyd edərək, bunun konstitusiya məhkəməsinin qərarına bağlı olduğunu vurğulayıb. "Nəzəri olaraq, ziddiyyətin aradan qaldırılacağına inanıram. Bu, ölkələrimiz üçün bir başlanğıc nöqtəsidir. Əlbəttə, sülh prosesi ilə bağlı məsələlər davam edəcək və biz bununla bağlı danışmağa, əməkdaşlıq imkanları yaratmağa davam edəcəyik. Biz bununla dünyaya bir mesaj vermək istəyirik: "Keçmişi qazımağın, ona bağlı qalmağın və buna vaxt sərf etməyin mənası yoxdur". Xalqlarımızın ortaq gələcəyi və rifahı üçün çalışmalıyıq. Bunun üçün bütün lazımi imkanlar qarşımızdadır. Biz birlikdə gələcək mərhələyə keçməyə hazırıq və bu, özü ilə sülh içində əməkdaşlıq imkanlarını gətirəcək", - deyə Mirzoyan əlavə edib.

Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili isə bildirib: "Təbii ki, sülh içində yaşayan bir Cənubi Qafqaz hər birimizin öncəliyidir. Bölgəmizin çox ciddi bir potensiala sahib olduğunun da fərqindəyik. Bu potensialdan tam şəkildə istifadə etmək istəyiriksə, o zaman bölgəyə davamlı bir sülh gətirməliyik. Elə bu səbəbdən də biz hər şeydən əvvəl iki ölkə arasında sülhü böyük məmnuniyyətlə qarşılayırıq və Azərbaycan ilə Ermənistan arasındakı sülh sazişinin çox böyük bir uğur olacağına inanırıq".

## Azərbaycanın barış və sülh missiyası



**Regionda aparıcı ölkə, söz sahibi olan Azərbaycan həm də dünyada sülhü və təhlükəsizliyi təşviq edən, bu istiqamətdə real addımlar atan dövlət kimi tanınır. Respublikamızın mədəniyyətlər və sivilizasiyalar arasındakı dialoqa verdiyi töhfələr də bu məqsəddən irəli gəlir. Habelə müxtəlif vaxtlarda rəsmi Bakı özünün barışdırıcılıq missiyası ilə dost və tərəfdaş dövlətlər arasında meydana çıxan ziddiyətlərin aradan qaldırılmasına nail olub.**

### Respublikamız bütün platformalarda qlobal təhlükəsizliyə layiqli töhfələr verib

Respublikamız daim dünyada sülhyaratma prosesinə böyük töhfələr verir, bu istiqamətdə səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktiki fəaliyyəti ilə qlobal səviyyədə təhlükəsizliyin təmin olunmasında fəal rol oynayır. Respublikamız təmsil olunduğu müxtəlif platformalarda da bu məqsədlə real effektiv nəticələri olan fəaliyyət həyata keçirib. Hələ bir neçə il əvvəl BMT Təhlükəsizlik Şurasına üzvlüyü və sədrliyi dövründə Azərbaycan əsas diqqətini dünyanın müxtəlif yerlərindəki konfliktlərin aradan qaldırılmasına yönəltmişdi.

Deyilənlərə başqa bir misal olaraq Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə gördüyü işləri göstərmək olar. Azərbaycanın bu təşkilata sədrliyi çox çətin bir vaxta, bütün dünyada COVID pandemiyasının tüğyan etdiyi dövrə təsadüf etdi. Buna baxmayaraq Prezident İlham Əliyev Qoşulmama Hərəkatını COVID pandemiyası uğrunda mübarizəyə uğurla səfərbər etdi. COVID pandemiyası zamanı Azərbaycan 80-dən çox ölkəyə maddi və humanitar dəstək göstərdi. Respublikamız peyvəndlərə çıxışla əlaqədar dövlətlər arasındakı qeyri-bərabərliyin aradan qaldırılması üçün qətiyyətli fəaliyyət həyata keçirdi.

### Bakı dost və tərəfdaş dövlətlər arasındakı problemlərin həllində də daim fəallıq göstərib

Qeyd etdiyimiz kimi, respublikamız dost və tərəfdaş dövlətlər arasındakı problemlərin həllində də hər zaman fəallıq göstərib. Bir neçə il əvvəl Türkiyə və Rusiya arasındakı münasibətlərdə yaranmış dərin böhranın aradan qaldırılmasında məhz rəsmi Bakı böyük rol oynamış, onların barışmasına töhfələr vermişdi. Türkiyənin keçmiş xarici işlər naziri Mövlud Çavuşoğlu da ölkəsinin Rusiya ilə münasibətlərinin normallaşmasında Azərbaycan Prezidenti İlham Əliyevin rolunu xüsusi vurğulamışdı.

ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda Prezident İlham Əliyevə verilən suallardan biri də elə bu mövzuda oldu. Almaniyanın Beynəlxalq və Təhlükəsizlik Məsələləri üzrə İnstitutunu təmsil edən Darya İsaçenko Azərbaycanın Türkiyə ilə İsrail arasında gərginliyin azaldılması istiqamətində hər hansı bir fəaliyyətdə rol oynaması ilə maraqlandı.

Məlum olduğu kimi, həm Türkiyə, həm də İsrail Azərbaycana yaxın dövlətlərdir. Türkiyə respublikamızın müttəfiqidir. İsrail də dost dövlətdir. Ona görə də, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu iki ölkə arasındakı gərginlik bizim üçün çox narahatlıq doğurur. Təbii ki, Azərbaycan belə vəziyyətdə seyrçi qala bilməzdi. Prezident İlham Əliyev forumda bu barədə danışaraq dedi ki, Türkiyə ilə İsrail arasında ilk uğurlu barışıq müəyyən dərəcədə Azərbaycanın vasitəçiliyi ilə əldə olunub. "İlk böhran zamanı biz ölkələri yaxınlaşdırmağa çalışmaq üçün fəal rol oynadıq. Bu, təkcə Azərbaycan deyildi, lakin deyərdim ki, Azərbaycan bu prosesdə birinci yerdə idi. Yenə də bu, bağlı qapılar arxasında baş verdi. Biz bunu heç vaxt ictimailəşdirmədik. Biz buna görə heç vaxt özümüzü tərifləməyə çalışmadıq. Biz, sadəcə olaraq, müttəfiqimiz və qardaşımız olan Türkiyəyə, dostumuz İsrailə öz əlaqələrini yenidən qurmaq üçün yardım etmək istədik", - deyə Prezident bildirdi.

Bu gün də Azərbaycan Türkiyə və İsrail arasında münasibətlərin normallaşmasına çalışır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan prosesə kömək etmək üçün əlində olan hər şeyi edir.

Azərbaycanın dünyada sülhün təmin olunmasına verdiyi töhfələr, həyata keçirdiyi barışdırıcılıq missiyası həm də beynəlxalq miqyasda söz sahibi olması ilə əlaqədardır. Dünyanın aparıcı siyasi və iqtisadi dairələri Azərbaycanın regiondakı liderliyini, Prezident İlham Əliyevin qlobal siyasətdəki rolunu daim yüksək qiymətləndirirlər. Bütün bunlar həm də onu deməyə əsas verir ki, Azərbaycan qlobal səviyyəli məsələlərin həllində fəal iştirakçıdır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində bir sıra görüşlər keçirib

Aprelin 11-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidan ilə görüşüb.

XİN-dən bildirilib ki, görüşdə Azərbaycan-Türkiyə müttəfiqlik gündəliyində duran siyasi, təhlükəsizlik, iqtisadiyyat, nəqliyyat-kommunikasiyalar, humanitar məsələlər, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, habelə qarşılıqlı maraq doğuran təhlükəsizlik məsələləri müzakirə olunub.

Artıq 4-cü dəfədir təşkil olunan Antalya Diplomatiya Forumunun beynəlxalq münasibətlər sistemində aktual məsələlərin müzakirəsi baxımından əhəmiyyətli platformalardan birinə çevrildiyi qeyd olunub.

Xüsusilə, regional və beynəlxalq müstəvidə müşahidə olunan təhlükəsizlik problemlər və qeyri-sabitliyə son qoyulmasında danışıqlar və diplomatiyanın əhəmiyyəti vurğulanıb.

Azərbaycan-Türkiyə qardaşlığına əsaslanan müttəfiqlik münasibətlərinin bütün səviyyə və platformalarda uğurla davam etdirildiyi məmnunluqla qeyd edilib.

Münasibətlərin daha da genişləndirilməsində hər iki ölkənin liderləri arasında ən yüksək səviyyədə olan dialoqun müstəsna rolu vurğulanıb.

Regional və beynəlxalq təşkilatlar, xüsusilə Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın daha da möhkəmləndirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov, həmçinin qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, mina təhdidi ilə mübarizə səyləri, habelə Azərbaycan-Ermənistan normallaşma prosesi və mövcud maneələr barədə ətraflı məlumatlandırıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Aprelin 12-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Rusiyanın xarici işlər naziri Sergey Lavrov ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüş zamanı Azərbaycan-Rusiya münasibətlərinin siyasi, iqtisadi-ticarət, humanitar aspektləri, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Əməkdaşlıq gündəliyində duran məsələlərin müzakirəsi baxımından ali və yüksəksəviyyəli səfərlərin, qarşılıqlı təmasların əhəmiyyəti vurğulanıb.

Regional və beynəlxalq təşkilatlar, o cümlədən üçtərəfli, dördtərəfli formatlar çərçivəsində əməkdaşlığın faydalı olduğu diqqətə çatdırılıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Antalya Diplomatiya Forumu çərçivəsində aprelin 12-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında görüş keçirilib.

Xarici İşlər Nazirliyindən bildirilib ki, tərəflər Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin mətninin yekunlaşdırılmasından sonra normallaşma prosesinin hazırkı vəziyyətini müzakirə ediblər.

Nazirlər dialoqu davam etdirməyə hazır olduqlarını bildiriblər.

❖ ❖ ❖

Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Maldiv Respublikasının xarici işlər naziri Abdulla Xəlil ilə görüşüb.

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən (XİN) bildirilib. Qeyd olunub ki, görüş zamanı iki ölkə arasında iqtisadi-ticarət, investisiyalar, turizm, humanitar və s. sahələr üzrə əməkdaşlıq imkanları müzakirə olunub. Ötən il ölkəmizdə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Maldiv Prezidentinin ölkəmizə səfəri, ali və yüksək səviyyədə keçirilmiş görüşlərin əhəmiyyəti qeyd olunub. Azərbaycan və Maldiv arasında əməkdaşlığın inkişaf etdirilməsində siyasi məsləhətləşmələr mexanizmindən istifadənin vacibliyi vurğulanıb. Bu çərçivədə Maldivə Azərbaycan hökumət missiyası zamanı müzakirə edilmiş məsələlər nəzərdən keçirilib.

Turizm sahəsində əməkdaşlıq imkanlarını müzakirə edən nazirlər ölkələrimiz arasında ötən ildən etibarən birbaşa uçuşların açılmasının vətəndaşlarımıza yaradılan səyahət imkanlarının genişlənməsi baxımından mühüm olduğunu diqqətə çatdırıb. Regional və beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı dəstək və əməkdaşlıq imkanları müzakirə olunub.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Aprelin 12-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Venesuela Bolivar Respublikasının xarici işlər üzrə xalq hakimiyyəti naziri İvan Xil Pinto ilə görüşüb.

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən (XİN) bildirilib. Qeyd olunub ki, görüş zamanı Azərbaycan və Venesuela arasında mövcud əməkdaşlıq gündəliyinin müxtəlif, o cümlədən iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi istiqamətləri üzrə irəlilədilmə imkanları, ikitərəfli və çoxtərəfli platformalarda əməkdaşlıq fəaliyyəti, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Tərəflər Azərbaycan və Venesuela arasında münasibətləri xarakterizə edən möhkəmlənən siyasi əlaqələri və qarşılıqlı hörməti bir daha təsdiqləyiblər. Davamlı siyasi dialoq və yüksəksəviyyəli səfərlərin mübadiləsi vasitəsilə ikitərəfli əməkdaşlığın bundan sonra da inkişaf etdiriləcəyinə əminlik ifadə olunub.

Nazirlər müxtəlif sahələrdə, xüsusən də iqtisadi və enerji, turizm sektorlarında ikitərəfli əməkdaşlığın genişləndirilməsi imkanlarını, həmçinin elm və mədəniyyət sahələrində potensial təşəbbüsləri, o cümlədən akademik və peşəkar mübadilə proqramlarının həyata keçirilməsini müzakirə ediblər.

Beynəlxalq təşkilatlar, xüsusilə BMT və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı dəstək və həmrəyliyə əsaslanan əməkdaşlığın məmnunluq doğurduğu vurğulanıb, çoxtərəfli platformalarda əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyi qeyd olunub.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Aprelin 12-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Burkina Fasonun xarici işlər naziri Jan Mari Traore ilə görüşüb.

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən (XİN) bildirilib. Qeyd olunub ki, görüş zamanı iki ölkə arasında əməkdaşlıq imkanları, çoxtərəfli platformalar çərçivəsində tərəfdaşlıq məsələləri müzakirə olunub. Ölkəmizin xarici siyasətində Afrika qitəsinə verilən önəm qeyd edilib, Qoşulmama Hərəkatına sədrliyimizin Afrika ölkələri ilə təmaslarımıza mühüm təkan verdiyi bildirilib. Bundan sonra da beynəlxalq təşkilatlar çərçivəsində Afrika ölkələri, o cümlədən Burkina Faso ilə əməkdaşlığı davam etdirmək niyyətimiz ifadə olunub.

Müqabil tərəfə, həmçinin ölkəmiz tərəfindən xarici ölkələrdən tələbələr üçün yaradılan təqaüd proqramları barədə məlumat verilib, xüsusilə Qoşulmama Hərəkatına üzv ölkələrdən olan tələbələr üçün xüsusi proqramların mövcudluğu qeyd edilib.

Qarşı tərəf Azərbaycanı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurlu sədrliyi münasibətilə təbrik edib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***AZƏRTAC***

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider

## Ali etimad, yüksələn nüfuzun təcəssümü



## Azərbaycan və Türkiyə regional təhlükəsizliyin təminatçıları, sülh və əməkdaşlığın təşəbbüskarıdırlar

**Dünyanın 140-dan çox ölkəsindən 20-dən artıq dövlət və hökumət başçısı, 50-dən çox ölkənin xarici işlər nazirləri də daxil olmaqla, 70-dən artıq nazir, 60 yüksəksəviyyəli beynəlxalq təşkilatın nümayəndəsi, ümumilikdə 4 mindən çox qonağın qatıldığı IV Antalya Diplomatiya Forumu (ADF2025) bu gün başa çatır.**

Aprelin 11-dən 13-nə kimi davam edən budəfəki forumda siyasətçilər "Parçalanmış dünyada diplomatiyanı bərpa etmək" mövzusu ətrafında müzakirələr apardılar. Tədbirdə həmçinin müxtəlif coğrafiyaları əhatə edən məsələlər, o cümlədən iqlim dəyişikliyi, terrorizmlə mübarizə, humanitar yardım, rəqəmsallaşma, ərzaq təhlükəsizliyi və süni intellekt kimi qlobal gündəmin önəmli mövzuları müzakirə edildi və 50-dən çox sessiya keçirildi.

### Etibarlı tərəfdaş və qlobal proseslərə təsir göstərən dövlət

Forumun açılış günündə əvvəlcə Türkiyənin xarici işlər naziri Hakan Fidan giriş nitqi ilə çıxış edib. O, forumun əhəmiyyətini vurğulayıb, tədbirdə çox nüfuzlu qonaqların iştirak etdiyini bildirib.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. Türkiyə dövlətinin başçısı hazırda dünyada mövcud olan problemlərin müzakirəsinin vacibliyini vurğulayaraq, bu baxımdan forumun əhəmiyyətindən bəhs edib.

Qardaş ölkədə keçirilən beynəlxalq foruma Prezident İlham Əliyev də yüksəksəviyyəli qonaq kimi dəvət edilib. Bunun səbəbi də artıq hər kəsə bəllidir. Belə ki, 2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi Qələbə ölkəmizin suverenliyini və ərazi bütövlüyünü bərpa etməklə yanaşı, Azərbaycanın beynəlxalq aləmdəki mövqeyini daha da gücləndirib, onu etibarlı tərəfdaş və qlobal proseslərə təsir göstərən dövlət kimi tanıdıb. Hazırda Azərbaycan dünya birliyində sabitlik, inkişaf və əməkdaşlıq simvolu kimi çıxış edir. Ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlərin və beynəlxalq təşkilatların sayı durmadan artır. Xarici siyasətdə balanslaşdırılmış yanaşma, qarşılıqlı hörmətə və faydaya əsaslanan münasibətlər Azərbaycanın beynəlxalq nüfuzunun artmasına şərait yaradıb.

Sözü imzası qədər keçərli olan, Azərbaycanı dünyada ən etibarlı tərəfdaş ölkə statusuna sahibləndirən İlham Əliyevin beynəlxalq və regional tədbirlərdə iştirakı, habelə Azərbaycanın evsahibliyi etdiyi yüksəksəviyyəli zirvə görüşləri ölkəmizə olan marağın və etimadın bariz göstəricisidir.

Bu gün elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirlərə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud problemlərin həlli yolları barədə fikirlər səsləndirməsin. Yəni İlham Əliyev təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlətimizin başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir.

Son bir neçə ildə İlham Əliyevin Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət Görüşündə, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 6-cı Zirvə Görüşündə, Şanxay Əməkdaşlıq Təşkilatının sammitlərində, Ərəb Dövlətləri Liqasının 31-ci Sammitində, SPECA - Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi BMT Proqramının Zirvə Görüşündə, Davos Dünya İqtisadi Forumunda iştirakı ölkəmizə marağın əyani təcəssümüdür. Prezident İlham Əliyevin IV Antalya Diplomatiya Forumunda iştirakını da Azərbaycanın beynəlxalq nüfuzunun davamlı artmasının növbəti təsdiqi kimi göstərmək olar. Forum müxtəlif ölkələrdən nüfuzlu siyasətçiləri, dövlət və hökumət başçılarını, xarici işlər nazirlərini bir araya gətirərək, son illər ərzində region üçün əhəmiyyət kəsb edən ən önəmli məsələlərin və çağırışların müzakirəsi baxımından çox vacib beynəlxalq platformaya çevrilib.

Prezident İlham Əliyevin bu forumda iştirakı bir daha göstərir ki, Azərbaycan yalnız regionda deyil, həm də qlobal miqyasda etibarlı tərəfdaş və təşəbbüskar dövlət kimi qəbul edilir. Dövlət başçısının beynəlxalq münasibətlər sahəsində zəngin təcrübəsi, strateji baxışları və praqmatik yanaşmaları onu beynəlxalq platformalarda böyük maraqla qarşılanan Liderə çevirib. Prezident İlham Əliyevin iştirakı ilə keçirilən forumlar və zirvə görüşləri təkcə diplomatik formatda deyil, həm də məzmun və nəticələr baxımından yeni keyfiyyət mərhələsinə yüksəlir.

Ümumiyyətlə, Türkiyə-Azərbaycan münasibətlərinin unikal xarakteri və bu əlaqələrin sabitliyi regional inteqrasiya və ortaq inkişaf baxımından da nümunəvi model kimi çıxış edir. Prezident İlham Əliyevin Antalyaya işgüzar səfəri və Antalya Diplomatik Forumunda iştirakı təkcə iki ölkə arasında strateji münasibətlərin daha da möhkəmləndirilməsi baxımından deyil, həm də Azərbaycanın beynəlxalq mövqelərinin güclənməsi və sülh təşəbbüslərinin irəlilədilməsi baxımından da mühüm hadisə oldu.

### Antalyada keçirilən görüşlər

Prezident forum çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Şimali Kiprin Prezidenti Ersin Tatar, Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa, Gürcüstanın Baş naziri İrakli Kobaxidze, Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhan və Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşlər keçirib.

Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan ilə keçirilən görüşdə iki qardaş prezident Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunub, əlaqələrimizin perspektivləri müzakirə edilib. Dövlətimizin başçısı Antalya Diplomatiya Forumuna dəvətə görə Türkiyə Prezidentinə təşəkkürünü bildirərək, bu tədbirin beynəlxalq gündəlikdə duran vacib məsələlərin müzakirəsi üçün dünyanın aparıcı platformalarından biri olduğunu deyib. Söhbət zamanı dövlət başçıları ikitərəfli münasibətlər, Cənubi Qafqaz və Yaxın Şərq bölgələrində vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.

Ümumiyyətlə, Antalyada keçirilən görüşlər Azərbaycan-Türkiyə münasibətlərinin hazırkı vəziyyətinə və inkişaf perspektivlərinə dair əhəmiyyətli fikir mübadiləsi üçün geniş imkanlar yaratdı. Bu səfər həmçinin ikitərəfli əməkdaşlığın siyasi, iqtisadi, enerji, nəqliyyat, müdafiə və digər sahələrdə daha da dərinləşdirilməsi baxımından mühüm addım oldu. Bununla yanaşı, Azərbaycan və Türkiyə bu gün regional təhlükəsizliyin təminatçıları, sülh və əməkdaşlığın təşəbbüskarları kimi çıxış edirlər. Onların regiondakı fəallığı, Cənubi Qafqazdan Mərkəzi Asiyaya, Qara dənizdən Aralıq dənizinə qədər geniş coğrafiyada sabitliyin qorunmasına verdikləri töhfə beynəlxalq aləmdə yüksək qiymətləndirilir.

### Azərbaycanın beynəlxalq aktora çevrildiyini təsdiqləyən reallıqlar

Türkiyə-Azərbaycan münasibətlərinin unikal xarakteri və bu əlaqələrin sabitliyi regional inteqrasiya və ortaq inkişaf baxımından nümunəvi model kimi çıxış edir. Prezident İlham Əliyevin Antalyaya işgüzar səfəri və Antalya Diplomatik Forumunda iştirakı təkcə iki ölkə arasında strateji münasibətlərin daha da möhkəmləndirilməsi baxımından deyil, həm də Azərbaycanın beynəlxalq mövqelərinin güclənməsi və sülh təşəbbüslərinin irəlilədilməsi baxımından mühüm hadisə olacaq.

Bir sözlə, bütün bu fəaliyyətlər fonunda Prezident İlham Əliyevin Antalya Diplomatik Forumunda iştirakı Azərbaycanın dünya siyasətində mühüm söz sahibi olan dövlətə çevrildiyini bir daha nümayiş etdirdi. Azərbaycan bu gün yalnız enerji və nəqliyyat sahələrində deyil, həm də sülh, əməkdaşlıq və dayanıqlı inkişaf naminə beynəlxalq birlikdə fəal mövqe tutaraq, regionun və dünyanın gələcəyinə töhfə verir.

ADF2025 Forumu və Antalyada keçirilən ikitirəfli görüşlər Azərbaycanın beynəlxalq aktora çevrildiyini, ölkəmizin söz sahibi olaraq qəbul olunduğunu təsdiqləyən reallıqdır. Bütün bunlar isə İlham Əliyevin Azərbaycanı inkişaf və yüksəlişə aparan mükəmməl siyasətinin nəticəsidir.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

## *Gürcüstanın Baş naziri:* "Azərbaycanın Qafqazda sabitliyin qorunmasındakı rolu çox böyükdür"

**"Azərbaycanın Qafqazda sabitliyin qorunmasındakı rolu çox böyükdür və biz Azərbaycanla olan çox yaxın dostluğumuzla fəxr edirik. Gürcüstanla Azərbaycan arasında mövcud olan strateji tərəfdaşlığı, əməkdaşlığı və dostluğu daha da dərinləşdirmək üçün yüksək motivasiyaya sahibik. Azərbaycanın rəhbərliyi ilə çox gözəl münasibətlərimiz var. Prezident İlham Əliyev, eləcə də Azərbaycanın bütün yüksəkvəzifəli şəxslərinin Gürcüstana göstərdikləri güclü dəstəyə görə təşəkkür edirəm. Ölkələrimiz arasındakı münasibətlər yüksək səviyyədədir, lakin biz bu əlaqələri daha da gücləndirməyə qərarlıyıq".**



Bu fikirləri Antalyada AZƏRTAC-a açıqlamasında Gürcüstanın Baş naziri İrakli Kobaxidze ifadə edib.

Azərbaycan ilə Ermənistan arasındakı normallaşma prosesinə toxunan Baş nazir deyib: "Cənubi Qafqaz regionunda sülh hamı üçün, eyni zamanda Gürcüstan üçün də son dərəcə önəmlidir. Azərbaycanla Ermənistan arasında əldə edilə biləcək bütün razılaşmaları məmnuniyyətlə qarşılayırıq. Əgər Gürcüstan tərəfindən belə bir ehtiyac yaranarsa, danışıqları təşviq etmək üçün dəstək verməyə hazırıq. Gürcüstan hər zaman regionda sülhün möhkəmləndirilməsi baxımından çox pozitiv rol oynayıb və biz eyni rolu oynamağa hazırıq".

## *Mixail QUSMAN:* "Prezident İlham Əliyevin ADF2025-də iştirakı tədbirin əhəmiyyətini daha da artırır"

**"Türkiyədə keçirilən IV Antalya Diplomatiya Forumuna (ADF2025) nəzər saldıqda görürük ki, bu beynəlxalq tədbir hər il daha da təkmilləşir və qlobal gündəmdə baş verən demək olar ki, bütün mühüm prosesləri əhatə edir. Bu il Azərbaycan Prezidenti İlham Əliyevin forumda ilk dəfə iştirakı isə tədbirin əhəmiyyətini daha da artıran və sevindirici bir hadisə kimi qiymətləndirilir".**




Bu fikirləri AZƏRTAC-a müsahibəsində Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman ifadə edib.

Tədbirin builki mövzusuna toxunan Qusman deyib: "Onlarca dövlət və hökumət başçısının, nazirlərin və diplomatların burada "parçalanan" dünyamıza töhfə vermək üçün çalışdıqlarını görmək sevindiricidir. Dünyada həllini gözləyən, hər birimiz üçün vacib məsələlərin gündəmə gətirilməsi tədbirin beynəlxalq əhəmiyyətinin göstəricisidir".

Bu gün ADF2025 çərçivəsində keçirilməsi nəzərdə tutulan "Cənubi Qafqazda regional əməkdaşlığa dair çağırışlar və fürsətlər" mövzusunda panel iclasına diqqət çəkən müsahib Azərbaycan, Gürcüstan və Ermənistanın xarici işlər nazirlərinin bu müzakirələrdə iştirak edəcəyini vurğulayıb. O bildirib ki, bu kimi görüşlər regionda sülhün və sabitliyin bərqərar olunması baxımından xüsusi önəm daşıyır: "Bu iclasın keçirilməsi həm Antalya Diplomatiya Forumunun beynəlxalq əhəmiyyətini, həm də əhatə dairəsinin genişliyini nümayiş etdirir. Bugünkü dünyada diplomatiya və dialoq hər zamankından daha vacibdir".

## *Fuat OKTAY:* "Kimsə ATƏT-in Minsk qrupunu oyandırıb, onlara problemin bitdiyini deməlidir"

**"Türkiyə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması məsələsində eyni mövqeyindədir. Biz ilk növbədə bölgədə sabitliyi, buna bağlı olaraq Ermənistanla Azərbaycan arasındakı sülh müqaviləsinin ən qısa vaxt ərzində imzalanmasını arzu edirik. Əsas arzumuz bölgədə sülhün bərqərar olunmasıdır. Artıq hamımız böhranlardan, münaqişələrdən yorulmuşuq. Regionumuzun inkişafa çox böyük ehtiyacı vardır".**



Bu fikirləri AZƏRTAC-a müsahibəsində Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici əlaqələr komitəsinin sədri Fuat Oktay bildirib.

Qafqazda sülhün bərqərar olunması istiqamətində atılması gözlənilən addımların artıq hər kəsə bəlli olduğunu qeyd edən Fuat Oktay deyib: "Qafqazda sülh və sabitlik üçün Ermənistan konstitusiyasında dəyişilməsi vacib olan maddələr var. Bu məsələdə həmçinin ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyini də vurğulamaq lazımdır. Onlar hələ də "bu münaqişə bitərsə, biz işsiz qalarıq" düşüncəsindədirlər. Halbuki birinin onları oyandırması, artıq problemin öz həllini tapdığını bildirməsi lazımdır. Qərbi azərbaycanlıların öz torpaqlarına qayıtması da əsas məsələlərdəndir. Bu problem öz həllini yalnız sülh yolu ilə tapa bilər".

## İstanbulda TDT-yə üzv dövlətlərin parlamentlərarası dostluq qruplarının ilk toplantısı keçiriləcək

**"Mayın 5-6-da İstanbulda Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin parlamentlərarası dostluq qruplarının ilk iclası keçiriləcək. Azərbaycanın da təmsil olunacağı tədbirdə türkdilli dövlətləri maraqlandıran məsələlər, o cümlədən parlamentlərarası dostluq qruplarının koordinasiyası, gələcəkdə daha səmərəli fəaliyyəti baxımından nəzərdə tutulan planlar kimi məsələlər müzakirə olunacaq. İkinci toplantının Azərbaycanda keçirilməsi nəzərdə tutulur".**



Bu barədə AZƏRTAC-a Milli Məclisin Səhiyyə komitəsinin sədri, Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri Əhliman Əmiraslanov bildirib.

O qeyd edib ki, tədbirdə TDT-yə üzv dövlətlərin problemləri, o cümlədən Azərbaycanın Qafqazda sülh və sabitliyin bərpası, Ermənistanla sülh üçün göstərdiyi səylər, qərbi azərbaycanlıların öz vətənlərinə dönmələri məsələlərinin də səsləndirilməsi və həlli yolları ilə bağlı müzakirələrin aparılması nəzərdə tutulur.

Qərbi Azərbaycan İcmasının fəaliyyəti barədə danışan Əhliman Əmiraslanov qurumun əsas məqsədinin qərbi azərbaycanlıların öz doğma yurd-yuvalarına qayıtması olduğunu xatırladıb: "Hər kəsə bəlli olduğu kimi, həmvətənlərimiz Qərbi Azərbaycandan bir neçə dəfə deportasiya olunublar. Ən son deportasiya 1988-1991-ci illər arasında baş verib. Mən özüm də o torpaqlarda doğulmuşam və 17 yaşıma qədər orada yaşamışam. Atamın məzarı da oradadır. Bizim Qərbi Azərbaycana qayıtmaq istəyimiz nə ərazi iddiası, nə də müharibədir. İstəyimiz beynəlxalq hüququn verdiyi imkanlar çərçivəsində öz dədə-baba yurdumuza dönməkdir. Bizim evimiz oradadır və aldığım məlumata görə, orada yaşayış da yoxdur. Yəni mənim doğma kəndimdə üç və ya dörd ailənin yaşadığını bilirəm. Evlərimiz dağılıb. Biz evimizə qayıtmaq istəyirik. Ermənistan isə bu məsələyə ərazi iddiası kimi yanaşır. Lakin bu belə deyil, məqsədimiz sadəcə olaraq öz yurd-yuvamıza qayıtmaqdır".

# Qərbi Azərbaycana qayıdış: milli ideyanın əsas hədəflərindən biri

## Şamil AYRIM: "Qərbi azərbaycanlılara qarşı haqsızlıqların dünya ictimaiyyətinə çatdırılması olduqca vacibdir"



**"Qərbi azərbaycanlılar son iki əsrin müxtəlif dövrlərində öz doğma yurd-yuvalarından didərgin salınıblar. Ermənilər tərəfindən törədilən bu deportasiyanın son qurbanları 1990-cı illərdə evlərindən çıxarılaraq vəhşicəsinə qovulublar. Onların arasında Azərbaycanla yanaşı, Türkiyəyə də gələnlər olub. Hətta Avropa ölkələrində yaşayanlar da var. Bütün bunlar insanların yaşadıqları bir həqiqətdir və dünya bundan xəbərdar olmalıdır".**

Bu sözləri AZƏRTAC-a Türkiyə Böyük Millət Məclisinin (TBMM) Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım ifadə edib.

Antalyada keçirilən IV Diplomatiya Forumunda Qərbi Azərbaycan həqiqətlərinin dilə gətirilməsinin böyük əhəmiyyət kəsb etdiyini vurğulayan Şamil Ayrım azərbaycanlılara qarşı törədilən haqsızlıqların dünya ictimaiyyətinə çatdırılmasının olduqca vacib məsələ olduğunu deyib: "Azərbaycan Prezidenti İlham Əliyevin apardığı doğru siyasətin təzahürü olaraq, Vətən müharibəsi nəticəsində əldə edilən Zəfərdən sonra artıq Qarabağ problemi aradan qalxdı. Bunun ardından qarabağlıların öz doğma yurd-yuvalarına qayıtması təbii olaraq qərbi azərbaycanlıların da öz evlərinə geri dönmələri məsələsini ortaya qoydu. Bu insanların evlərinə ləyaqətli və təhlükəsiz şəkildə qayıtmaları ilə bağlı Azərbaycanın beynəlxalq hüquq əsasında başladığı fəaliyyət təqdirəlayiq haldır. Çünki qərbi azərbaycanlılar da ermənilərin Azərbaycan torpaqları ilə bağlı iddialarının qurbanlarıdırlar. Bu istiqamətdə Qərbi Azərbaycan İcması olduqca mühüm addımlar atır. Bu gün biz də Türkiyə ilə yanaşı, digər yerlərdə bu həqiqətləri insanların diqqətinə çatdırmaq, dünya ictimaiyyətini məlumatlandırmağa çalışırıq. İnsanların öz evlərindən qovulması çox böyük ədalətsizlikdir. Bunun onlar üçün nə qədər böyük ağrı-acı olduğunu təsəvvür belə etmək çətindir. Bu baxımdan bu insanların yanında olmağımız, onların doğma yurd-yuvalarına qayıtmaq istəyinə dəstək verməyimiz bəşəri ədalətin təmini olar".

## Əziz ƏLƏKBƏRLİ: "Qərbi azərbaycanlılar 38 il əvvəl Ermənistanın qanuni vətəndaşları olublar"



**"İkiəsrlik Azərbaycan-Ermənistan məsələsinin hələ də niyə bitmədiyini tam anlamaq üçün bunun köklərinə baxmaq olduqca vacibdir. Bildiyiniz kimi, Ermənistanın təkcə siyasi dairələrində yox, eyni zamanda ictimaiyyəti arasında da radikal milliyyətçilik hələ də davam etməkdədir. Ermənistanın hələ də Azərbaycana, Türkiyəyə, Gürcüstana, yəni region dövlətlərinə qarşı ərazi iddialarından əl çəkmək fikri yoxdur. Ermənistanın Konstitusiyasında dəyişikliyin edilməsi, Minsk qrupunun buraxılması, Qərbi Azərbaycandan qovulan həmvətənlərimizin öz ata-baba yurdlarına qayıtmaları kimi Azərbaycanın haqlı tələbləri istiqamətində addımlar atmaması təbii olaraq sülh sazişinin də bağlanmasını gecikdirir".**

Bu sözləri AZƏRTAC-a Qərbi Azərbaycan İcmasının rəhbəri, Milli Məclisin deputatı Əziz Ələkbərli ifadə edib.

"Bizim məqsədimiz ermənilərin siyasi riyakarlığının mahiyyətini geniş ictimaiyyətə çatdırmaqdır. Çox təəssüf ki, bu gün belə Ermənistanın siyasi dairələri Qərbi Azərbaycan qaçqınlarının öz ata-baba yurdlarına qayıtmasını dünya ictimaiyyətinə Azərbaycanın onlara qarşı ərazi iddiası kimi çatdırmağa çalışır. Halbuki bu, qətiyyən belə deyil. Ermənilər unudurlar ki, Qərbi Azərbaycandakı öz ata yurdlarına qayıtmaq istəyən soydaşlarımız 38 il bundan əvvəl elə həmin Ermənistanın qanuni vətəndaşları olublar. Yəni Qarabağ münaqişəsinin ilk mərhələsində bu məsələnin tərkib hissəsi kimi doğma torpaqlarından qovulan insanların öz evlərinə geri qayıtması heç bir şəkildə hansısa ərazi iddiası sayıla bilməz. Ermənistan rəhbərliyi bütün bunlardan, nəhayət, nəticə çıxarmalıdır. Biz isə dünya ictimaiyyətinin erməni yalanları, saxtakarlıqlarından tam agah olması üçün çalışırıq", - deyə icma sədri bildirib.

Antalyada keçirilən IV Diplomatiya Forumunda Qərbi Azərbaycan İcmasının sədri olaraq iştirakı barədə danışan deputat bununla bağlı həqiqətləri tədbir iştirakçılarına, daha geniş ictimaiyyətə çatdırmağa çalışdıqlarını qeyd edib.

Forum çərçivəsində keçirilən panel iclasda Qərbi Azərbaycan həqiqətlərinin ilk növbədə insan hüquqları məsələsi olması ilə bağlı çıxış edən sədr deyib: "Çox təəssüf ki, biz son 200 il ərzində Qərbi Azərbaycanda baş verən hadisələri, ermənilərin həmin bölgələrdə apardıqları etnik təmizləmə, deportasiya, soyqırımı hadisələrini dünya ictimaiyyətinə lazımi qədər çatdıra bilməmişik. Yaradıldığı gündən icmamız bu istiqamətdə xeyli işlər görüb. Bu məsələnin Antalya Diplomatiya Forumu kimi dünya miqyaslı, mötəbər tədbirlərin gündəliyinə salınması bizim çox böyük uğurumuzdur. Çünki hədəflərimizdən biri də beynəlxalq ictimaiyyəti Qərbi Azərbaycan həqiqətləri barədə daha çox məlumatlandırmaqdır. Forumun bu baxımdan əhəmiyyətli olacağına inanıram. Xüsusilə xarici ölkə parlamentlərinin bu məsələyə isti münasibət göstərməsi özlüyündə bir uğurdur".

## Ağstafada "Qərbi Azərbaycana qayıdış yolunda" adlı elmi-praktik konfrans keçirilib

**Ağstafa Rayon İcra Hakimiyyəti və Sosial Tədqiqatlar Mərkəzinin birgə təşkilatçılığı ilə "Qərbi Azərbaycana qayıdış yolunda" adlı elmi-praktik konfrans keçirilib.**



AZƏRTAC-ın verdiyi məlumata görə, tədbirdə əvvəlcə mövzu ilə bağlı videoçarx nümayiş olunub. "Qayıdış: Qərbi Azərbaycandakı maddi-mədəni irsimiz" adlı kitab barədə məlumat verilib.

Çıxışlar zamanı vurğulanıb ki, Qərbi Azərbaycan torpaqları azərbaycanlıların əzəli dədə-baba yurdudur. Tarixboyu soydaşlarımızın bu torpaqlarda dəfələrlə deportasiyaya məruz qaldıqları bildirilib. Azərbaycan dövlətinin qərbi azərbaycanlıların hüquqlarının bərpası məsələsini xüsusi diqqətdə saxladığı qeyd edilib, soydaşlarımızın öz doğma yurdlarına sülh yolu ilə, ləyaqətli və təhlükəsiz şəkildə qayıdışının tarixi bir zərurət olduğu diqqətə çatdırılıb.

Bildirilib ki, bu qayıdış haqq savaşımızın yeni səhifəsidir və bu səhifə müasir Azərbaycanın memarı, Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin əzmi və qətiyyəti ilə yazılacaq.

"Qərbi Azərbaycana Qayıdış Konsepsiyası"nın əhəmiyyəti xüsusi vurğulanıb. Sakinlərin öz ata-baba torpaqlarına geri dönməsinin milli kimliyimizin, tarixi yaddaşımızın qorunması və ədalətin bərpası baxımından önəminə diqqət çəkilib.

## Qərbi azərbaycanlıların doğma yurdlarına qayıtmaq istəklərini Ermənistan qəribçiliyə salmasın

### Gec-tez biz bu ədaləti də bərpa edəcəyik

**Qərbi Azərbaycan İcması beynəlxalq hüquqa söykənən haqlı tələbləri ilə fəaliyyətə başladığı ilk gündən nəinki Azərbaycanda, dünyanın bir çox ölkəsində yaşayan qərbi azərbaycanlıların hüquqlarının müdafiəsi və onların sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmaları üçün geniş iş aparır. İcmanın inkarolunmaz faktları özündə ehtiva edən müraciətlərinin BMT-nin rəsmi sənədi kimi yayılması ilə 190-dan çox ölkə bu məsələ barədə məlumatlandırılıb.**




Ötən il icma tərəfindən 120 bəyanat, mətbuat üçün 25 məlumat dərc olunub. İki dəfə UNESCO-ya müraciət ünvanlanıb. Müraciətdə UNESCO-dan Ermənistan ərazisinə faktaraşdırıcı missiya göndərilməsi istənilib. UNESCO məsələni nəzərdə saxlayacağını bildirsə də, Ermənistan tərəfi hələ də buna icazə vermir. Üstəlik icma tərəfindən Ermənistana edilən müraciətlər də cavabsız qalıb. Əksinə, erməni tərəfi diqqəti yayındırmaq, məsuliyyətdən qaçmaq üçün uydurma iddialar irəli sürür. Çox təəssüflər olsun ki, öz maraqları dairəsində Ermənistanın bu yalan və reallıqdan kənar uydurmalarını dəstəkləyənlər də var.

Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli Milli Məclisin iclasında bildirmişdir: "Dünyanın ABŞ, Rusiya və Fransa kimi nəhəng ölkələrinin və ən böyük beynəlxalq təşkilatların 30 il ərzində həll edə bilmədiyi bir problemi Azərbaycan öz gücü ilə 44 gündə həll edəndən sonra çoxlarının maskası yırtıldı və əsl siması ortaya çıxdı. Məlum oldu ki, həm Ermənistan, həm də Azərbaycan tərəfdən milyonlarla insanın əzab-əziyyəti, on minlərlə insanın ölümü, şikəstliyi ilə nəticələnən bu münaqişəyə səbəb olan da, 30 il ərzində onun bitməyini istəməyən də və bu gün bölgəni yenidən müharibə meydanına çevirməyə çalışan da elə həmin dövlətlər, həmin təşkilatlar və onların yerlərdəki əlaltılarıdır.

ABŞ-nin, Qərbin imperialist təfəkkürlü ölkələri, siyasətçiləri və təşkilatları bu 30 ildə Azərbaycan torpaqları Ermənistan tərəfindən işğal edilməmiş kimi, Azərbaycanın bir milyon insanı yurd-yuvasından qovulmamış kimi, işğal altında olan yüzlərlə kənd və şəhərimiz ermənilər tərəfindən yer üzündən silinməmiş kimi, minlərlə tarixi-mədəni abidəmiz ermənilər tərəfindən məhv edilməmiş kimi, utanmadan, qızarmadan Azərbaycanı ittiham etməyə, Ermənistanı sülh göyərçini kimi göstərməyə çalışırlar".

Ə.Ələkbərli daha sonra rəsmi İrəvana mesajını da çatdırmışdır: "Ermənistanı öz imperialist maraqlarına alət edənlər, erməni xalqını bu yolda zəlil, erməni zehniyyətini əlil edənlər birdəfəlik anlamalıdırlar ki, Şərqi Avropada və Yaxın Şərqdə oynadıqları oyunlara Azərbaycan xalqının və Azərbaycan dövlətinin qarnı toxdur. Biz 30 ildə kimin kim olduğunu gördük. Bu günlərdə mədəni və dini irsin vəziyyəti ilə bağlı Azərbaycana hansısa beynəlxalq müşahidəçilər göndərilməsi tələbini irəli sürən ABŞ-nin Dini Azadlıq Komissiyasına xatırlatmaq istərdik ki, belə bir missiyanı öz dini tolerantlığı ilə dünyaya örnək olan Azərbaycana deyil, etnik və dini mənsubiyyətinə - azərbaycanlı və müsəlman olduğuna görə Qərbi Azərbaycandakı ata-baba yurdlarından sonuncu nəfərinə qədər qovulub çıxarılan indiki Ermənistana göndərmək lazımdır. Və "Dini Azadlıq" pərdəsi arxasında gizlənmiş bu qurum yaxşı olar ki, hesabat verəndə son 35 il ərzində indiki Ermənistanda dağıdılmış 300-ə yaxın müsəlman məscidi, 500-dən artıq müsəlman qəbiristanlığı barədə də hesabat versin".

Ölkəmizdə rəsmi dairələrdə, ictimaiyyətlə görüşlərində, eləcə də xarici səfərləri zamanı mötəbər məclislərdə çıxışlarında Qərbi Azərbaycan İcmasının beynəlxalq müstəvidə fəaliyyətinin vacibliyini vurğulayan Prezident İlham Əliyev deyib ki, biz Qarabağ həqiqətlərini dünya ictimaiyyətinin diqqətinə çatdırdığımız kimi, bu həqiqətləri də çatdırmalıyıq: "Faktiki olaraq biz 1990-cı illərin əvvəllərində Qarabağ münaqişəsi ilə bağlı təhrif edilmiş təsəvvürü tamamilə dəyişdirə bildik. İnformasiya müharibəsi və İkinci Qarabağ müharibəsi onu göstərdi ki, bu, az əhəmiyyət kəsb etmir. Ona görə burada da icmanın xaricdəki fəaliyyəti xüsusi önəm daşımalıdır. Sərgilər, təqdimatlar, beynəlxalq konfranslar keçirilməlidir. Azərbaycan diaspor təşkilatları ilə birlikdə aksiyalar keçirilməlidir. Xarici ölkələrin siyasi dairələri, mətbuat və qanunvericilik orqanları ilə təmaslar qurulmalıdır. Yəni biz haqlı olaraq öz hüququmuzu tələb etməliyik. Bu, bütün beynəlxalq konvensiyalarda təsbit edilmiş hüquqdur".



Azərbaycan Prezidentinin bu istiqamətdə tapşırıq və tövsiyələrini özlərinin proqram sənədi kimi qəbul edən icma rəhbərliyi və üzvləri fəaliyyət dairələrini və əlaqələrini daha da genişləndirir, ölkəmizin müxtəlif bölgələrində məskunlaşmış qərbi azərbaycanlılarla əlaqələr qurur, şəhər, rayon, qəsəbə və kəndlərdə, eləcə də xarici ölkələrdə ofisini yaradır, nümayəndəlik təşkil edir, görüşlər keçirir. Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədr müavini, Əməkdar elm xadimi, professor Vaqif Şadlinski deyir ki, Qərbi Azərbaycana Qayıdış Konsepsiyası icmamızın fəaliyyətinin çərçivə sənədidir və bu sənəddə bizim qayıdış uğrunda mübarizəmizin və qayıdışımızın bütün detalları dünya ictimaiyyətinə açıqlanıb: "Xatırladım ki, icmanın Nizamnaməsində respublikamızın bölgələrində olduğu kimi, xarici ölkələrdə də ofis və nümayəndəliyin yaradılması, bu istiqamətdə mütəmadi olaraq tədbirlər və görüşlər keçirilməsi öz əksini tapıb. Qayıdış Konsepsiyasının tələbləri çərçivəsində beynəlxalq əlaqələrin qurulması da icma üçün son dərəcə vacibdir. Ona görə ki, bizim qayıdışımız ilk növbədə beynəlxalq hüquqa əsaslanır. Problemi beynəlxalq hüququn predmetinə çevirmək üçün isə əlimizdə kifayət qədər hüquqi əsas olmalıdır və bu əsas Qərbi Azərbaycan həqiqətləridir. Deməli, Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq müstəviyə daşınması bizim üçün prioritet məsələdir. Bu isə aydındır ki, beynəlxalq əlaqələrin qurulmasını tələb edir. Elə Qərbi Azərbaycan İcmasının, qeyd etdiyimiz kimi, Nizamnaməsində də xarici ölkələrdə nümayəndəliklərimizin yaradılması məsələsi özünə yer alıb. Başqa istiqamətlərdə olduğu kimi, bu istiqamətdə də icmamız ilk gündən fəaliyyət coğrafiyasını genişləndirməyə çalışır. Artıq bir sıra ölkələrdə nümayəndəliklərimiz və ofislərimiz açılıb. İcmanın artıq Fransa və Niderlandda nümayəndəlikləri fəaliyyət göstərir. Qonşu və qardaş ölkə Türkiyədə bu gün çoxlu sayda qərbi azərbaycanlı yaşayır. İcmanın ideya xəttini və fəaliyyətini dəstəkləyən Türkiyənin İzmir şəhərində Qərbi Azərbaycan İcmasının Türkiyə ofisinin açılışı olub. Ötən ilin oktyabrında "Özbəkistanda yaşayan qərbi azərbaycanlılar" İctimai Birliyi fəaliyyətə başlayıb. Birliyə əslən Qərbi Azərbaycanın Basarkeçər rayonunun Bala Məzrə kəndindən olan İlham Abdullayev rəhbərlik edir. Özbəkistanda yaşayan, əslən Qərbi Azərbaycandan olan Vidadi Qurbanov, İlham Abdullayev, Qalib Müslümov və digərləri Prezident İlham Əliyevin Qərbi Azərbaycan siyasətini tam dəstəkləyirlər, onların dünyanın harasında yaşamasından asılı olmayaraq, öz ata-baba torpaqlarına qayıtmaq amalı ətrafında sıx birləşmələrinin vacibliyini yüksək dəyərləndirirlər. Onu da bildirim ki, ildə bir dəfə Azərbaycanda keçirilən beynəlxalq konfransda bizim xarici ölkələrdəki ofis və nümayəndəliklərimizlə yanaşı, çoxlu sayda əcnəbi mütəxəssis, hüquqşünas, ekspert, siyasət adamları iştirak və çıxış edirlər. Hər il müxtəlif xarici ölkələrdə neçə-neçə konfrans və sərgi keçirilir. Tədbirlərimizə xarici ölkələrin Azərbaycandakı diplomatik korpusu dəvət olunur. Elə təkcə bu il icmamızın xətti ilə üç böyük beynəlxalq tədbirin keçirilməsi nəzərdə tutulub. Yeri gəlmişkən, son iki ildə icmamızın 9 sənədi BMT-nin rəsmi sənədi kimi yayılıb. Təəccüb doğuran odur ki, qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışını bütün dünyanın tərəqqipərvər insanları, tanınmış insan hüquqları təşkilatları dəstəkləsə də, Ermənistan bunu həzm edə bilmir, sülhü, ədaləti və deyilənləri qəbul etməkdən yana, üzünü gah sağa, gah sola tutur. Nəzərə alsaq ki, icmamız fəaliyyətinin ilkin mərhələsindədir, demək, görüləcək işlər hələ çoxdur və qarşı tərəf yeni-yeni sürprizlərə hazır olmalıdır".

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## Sumqayıtda Qərbi Azərbaycana qayıdış mövzusunda konfrans keçirilib

**Sumqayıt Dövlət Universitetində (SDU) "Sumqayıtlı gənc elçilər: Qərbi Azərbaycana qayıdış" mövzusunda konfrans keçirilib. Öncə qonaqlar Ümummilli Lider Heydər Əliyevin universitetin foyesindəki büstü önünə gül dəstələri düzüb, Qərbi Azərbaycana həsr olunmuş rəsm sərgisi ilə tanış olublar.**

Konfransı giriş sözü ilə açan SDU-nun rektoru vəzifəsini icra edən AMEA-nın müxbir üzvü, professor Əminağa Sadıqov "Sumqayıtlı gənc elçilər: Qərbi Azərbaycana qayıdış" mövzusunda konfrasın keçirilməsinin təqdirəlayiq hal olduğunu bildirib. O, konfransın Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında və Azərbaycan Prezidenti İlham Əliyevin bilavasitə rəhbərliyi ilə həyata keçirilən milli ideologiyanın vacib istiqamətlərindən olan Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının reallaşmasına əhəmiyyətli töhfə verəcəyinə əminliyini ifadə edib. Natiq gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində tarixi yaddaşın əhəmiyyətini xüsusi vurğulayıb və konfransın işinə uğurlar arzulayıb.

Konfransda iştirak edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, adət-ənənələrinin öyrənilməsi və tədrisi istiqamətində mühüm işlərin həyata keçirildiyini nəzərə çatdırıb. Bildirib ki, ölkədəki təhsil ocaqlarında qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıdışı ilə bağlı məlumatlandırma sessiyalarının keçirilməsi çox əhəmiyyətlidir və əsas məqsəd Qərbi Azərbaycanın tarixi həqiqətlərini gələcək nəsillərə çatdırmaqdır. Nazir müavini tarixə nəzər salaraq öz doğma torpaqlarından qovulmuş soydaşlarımıza Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin diqqət və qayğısından, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının icrası ilə bağlı gənclərin rolundan danışıb və onlara öz tövsiyələrini verib.



Milli Məclisin Səhiyyə komitəsinin sədri, Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədri akademik Əhliman Əmiraslanov konfransın əhəmiyyətinə toxunaraq azərbaycanlıların deportasiya tarixi barədə tələbələrə geniş məlumatların verilməsinin vacibliyini vurğulayıb.

Milli Məclisin deputatı Mehriban Vəliyeva "Sumqayıtlı gənc elçilər: Qərbi Azərbaycana qayıdış" konfransı çərçivəsində gənclərin ictimai-siyasi, sosial-mədəni sahədə fəaliyyətləri və vətəndaş mövqeyi barədə danışıb. Gəncləri tarixi həqiqətləri dərindən öyrənərək bu istiqamətdə həqiqətlərin dünyaya çatdırılmasında fəal olmağa çağırıb.

Konfransda Qərbi Azərbaycanla bağlı Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyevin çıxışları və milli ideoloji hədəfləri özündə əks etdirən videoçarx nümayiş olunub. Şəhid polkovnik Vüqar Yusifovun qızı Ayan Yusifzadənin "Tarixi proseslərdə gənclərin rolu", SDU-nun III kurs tələbəsi Həsrət Suleymanovun "Qərbi Azərbaycan qan yaddaşında" və universitetin gənc müəllimi Gülçin Qasımovanın "Qərbi azərbaycanlıların qayıdış hüququ" mövzularında çıxışları dinlənilib. Universitetin çıxış edən pakistanlı tələbəsi Muhammad Adnan Gorgaje isə iki ölkə arasındakı dostluq əlaqələrinin hər zaman inkişaf edəcəyindən danışıb.

Müzakirədə Milli Məclisin deputatları Hikmət Babaoğlu, Məlahət İbrahimqızı, icma nümayəndələri, şura sədrləri, qonaq professorlar mövzular ətrafında çıxış edərək gənclərin suallarını cavablandırıblar.

Konfransda çıxış edən Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov soydaşlarımızın doğma yurdlarına qayıdışı istiqamətində Qərbi Azərbaycan İcması tərəfindən ölkəmizdə, o cümlədən Sumqayıtda görülən işlər haqqında söz açıb. Bildirib ki, icma qısa müddət ərzində indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların hüquqlarının müdafiəsi istiqamətində böyük işlər həyata keçirir. Z.Fərəcov həmçinin Sumqayıtın "Gənclər paytaxtı" elan edildiyi ildə gənclərimizin milli ideoloji işin təbliği və təşviqində ön sıralarda olacaqlarına inamını ifadə edib.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## XİN: AŞPA prezidentinin Azərbaycan əleyhinə iddialarını qətiyyətlə rədd edirik

**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) prezidenti Teodoros Rusopulosun "Alpha News" qəzetinə müsahibəsi zamanı Azərbaycan əleyhinə səsləndirdiyi iddiaları qətiyyətlə rədd edir və pisləyirik.**

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Avropa Şurası Parlament Assambleyasının prezidenti Teodoros Rusopulosun Azərbaycan əleyhinə qəbuledilməz fikirlərinə dair şərhində bildirib.

Ayxan Hacızadə deyib: "Avropa Şurası nizamnaməsinin pozulması, AŞPA tərəfindən səlahiyyətlərin aşılması nəticəsində Azərbaycan əleyhinə addımdan sonra belə, Azərbaycan tərəfinin dialoqa açıqlığını nümayiş etdirməsinə baxmayaraq, Rusopulos, Şvabe və onlar kimi bir sıra şəxslərin davamlı şəkildə ölkəmizin beynəlxalq hüquqa və ədalətə söykənən mövqeyinə kölgə salmağa çalışdıqları məlumdur.

AŞPA bu illər ərzində ikili standartlar əsasında apardığı anti-Azərbaycan siyasəti ilə Azərbaycan xalqının haqlı nifrətini qazanıb.

Ölkəmizin rəhbərini təhqir etmək, "diktator" adlandırmaq isə ümumiyyətlə heç bir çərçivəyə sığmır, siyasi mədəniyyətsizlik və nadanlıqdır. Assambleyada hazırkı isterik vəziyyət və onun başında duran diktator Rusopulos AŞPA-dakı acınacaqlı vəziyyətin təzahürüdür. Eyni vəziyyət Avropa Parlamentində də mövcuddur.

Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları ilə bağlı mövqeyimizə gəldikdə, Azərbaycanın məhkəmənin hakimlərinin seçimlərində iştirak etmədiyi nəzərə alınmaqla, onların qəbul etdiyi qərarların Azərbaycan tərəfindən icra olunmasını tələb etmək absurddur. Bu şəraitdə məhkəmənin qərarlarının yerinə yetirilməsi mümkün deyil.

Qeyd edək ki, AŞPA-da Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin dayandırılması barədə ədalətsiz və hüquqi cəhətdən suallar doğuran təşəbbüsü dəstəkləyən 76 nəfər AŞPA üzvü kimi Teodoros Rusopulosun da adı qara siyahıya daxil edilib. Rusopulos Azərbaycana soxularsa, rədd ediləcəkdir".

## Qərbi Azərbaycan İcması AŞPA prezidentinin böhtan və qərəzlə dolu fikirlərini sərt şəkildə qınayıb

**Qərbi Azərbaycan İcması Avropa Şurası Parlament Assambleyasının (AŞPA) prezidenti Teodoros Rusopulosun "Alpha News" mətbuat orqanına verdiyi müsahibəsində Azərbaycana münasibətdə ifadə etdiyi irqi ayrı-seçkilik, böhtan və qərəzlə dolu fikirlərini sərt şəkildə qınayır.**

AZƏRTAC xəbər verir ki, bununla bağlı Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda vurğulanıb:

"T.Rusopulosun qaba, məsuliyyətsiz danışığı bir daha AŞPA-nın mənəvi iflasını göstərir.

AŞPA regionda ən böyük insan hüquqları pozuntusu olan, bir milyondan çox azərbaycanlının Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmasına biganə qalıb. Qurum özünün anti-Azərbaycan mahiyyətini və Azərbaycan xalqına qarşı irqçi yanaşmasını Azərbaycan öz ərazilərini Ermənistanın işğalından azad etməsindən sonra açıq şəkildə ortaya qoyub.

Azərbaycanın Ermənistanın otuz illik işğala son qoymasına və beləliklə 700 mindən artıq azərbaycanlı məcburi köçkünün öz evlərinə qayıtması imkanı əldə etməsinə "kədərlənən", Ermənistandan qovulmuş yüz minlərlə azərbaycanlının qayıdış hüququna faktiki olaraq qarşı çıxan Rusopulos kimi irqçilərin AŞPA-da təmsil olunmaları insan hüquqları anlayışına təhqirdir. Hazırda mövcud olan gərgin qlobal geosiyasi vəziyyətdə T.Rusopulos və onun düşüncəsində olanlara elə gəlir ki, dünya yalnız AŞPA-nın zalından ibarətdir, məsuliyyətsiz, boğazdan yuxarı danışır və "müstəsnalıqları"na inanırlar".

Qərbi Azərbaycan İcması Avropa ictimaiyyətinə və sağlam düşüncəli siyasi qüvvələrə müraciət edərək, onları Avropa qitəsində qarşıdurma, irqçilik yayan və kimə xidmət etdikləri bəlli olmayan bu ünsürlərə qarşı mübarizə aparmağa çağırıb.

## Türkiyənin millət vəkili AŞPA-nı ikili standartlardan əl çəkməyə çağırıb

**"Avropa Şurası Parlament Assambleyası (AŞPA) ikili standartlardan əl çəkməli, cinayət işindən siyasi məqsədlər üçün istifadə etməməlidir".**

AZƏRTAC xəbər verir ki, bunu Türkiyənin AŞPA-dakı nümayəndə heyətinin üzvü Meryem Göka Assambleyanın Strasburqda keçirilən yaz sessiyasının iştirakçıları qarşısında çıxışı zamanı deyib.

Millət vəkili AŞPA üzvlərinin Türkiyədə və digər ölkələrdə, xüsusən də Fransada korrupsiya araşdırmalarına yanaşma fərqliliyini "ikiüzlülük" adlandırıb. O, İstanbul şəhər bələdiyyəsinin keçmiş başçısı Ekrem İmamoğlunun həbsi ilə bağlı qərar layihəsinin müzakirəsi zamanı deyib: "Türkiyə hüquqi dövlətdir və davam edən məhkəmə prosesi ilə bağlı istənilən qiymətləndirmə hüququn əsas normalarına ziddir: Türkiyədə heç bir siyasi təqib yoxdur".

Onun sözlərinə görə, dünyanın heç bir demokratik ölkəsi seçkilərə üç il qalmış prezidentliyə namizəd seçmir. Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasından olan deputat qeyd edib ki, müxalif Cümhuriyyət Partiyasının bu addımı İmamoğlu işini siyasiləşdirmək məqsədi daşıyırdı.

M.Göka sual verib: "Hansı Avropa ölkəsində məhkəmə qərarları ətrafında siyasi isteriya qızışdırılır? Bunun bariz nümunəsi Fransada Milli Birlik Partiyasının parlament fraksiyasının lideri Marin Le Pen haqqında çıxarılan hökmə reaksiyadır. Avropanın heç bir yerində məhkəmənin müstəqilliyi sual altına alınmır, ancaq söhbət Türkiyədən gedən kimi, artıq ittihamlar səslənir, hücumlar səngimir".

"Biz ikiüzlülük, qərəzli münasibət və "Türkiyədəki vəziyyətlə bağlı narahatlıq" ifadələri ilə üzləşməkdən yorulmuşuq. Ölkəmiz əvvəlki kimi deyil! Ankaranın göstəriş aldığı dövr arxada qaldı", - deyə o vurğulayıb.

## İlham Əliyevin uğur formulu

### Fransa bədnam müstəmləkə siyasətindən əl çəkmək istəmir

**Azərbaycan kolonializmdən əziyyət çəkən xalqların azadlıq mübarizəsinə dəstək verir. Yüksək tribunalarda hər zaman bu məsələni qaldıran Prezident İlham Əliyev də bəyan edir ki, müstəmləkəçilik kimi iyrənc praktikaya son qoyulmalıdır və yeni dünya nizamında bu məsələ də nəzərə alınacaq.**



Dövlətimizin başçısının 2023-cü ildə Bakıda keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına ünvanladığı və BMT-nin rəsmi sənədi kimi yayılan müraciətində də Azərbaycanın XXI əsrdə kolonializmin davam etməsindən və kolonializmin yeni təzahürləri meyillərinin artmasından narahatlığı əks olunub. Bandunq Konfransından 70 ilə yaxın dövrün keçməsinə rəğmən kolonializmi hələ də davam etdirən ölkələrin olduğu və belə ölkələrdən birincisinin Fransa olduğu vurğulanıb.

### Müstəmləkəçilik təfəkkürü Cənubi Qafqazda da tətbiq edilməyə çalışılır

Ölkəmizin Fransanın müstəmləkəçilik siyasətini, "demokratiya" adı altında gizlətdiyi əcaib simasını ifşa etməsi isə təbii ki, Makron hökumətinin xoşuna gəlmir. Buna görə də Paris daxili və xarici siyasətdə uğradığı bütün fiaskoların günahını Azərbaycanda axtarmağa bir növ adətkərdə olub. Bu ilin əvvəlində Azərbaycanı guya Fransanın daxili işlərinə qarışmaqda ittiham edərək özünü dünyada rüsvay edən Makronun komandasının üzvləri də vaxtaşırı ölkəmizlə bağlı gülünc ittihamlarla çıxış edirlər.

Bu günlərdə sözügedən ölkənin xarici işlər naziri Jan Noel Barronun Fransa Milli Assambleyasındakı çıxışı zamanı Azərbaycan əleyhinə əsassız ittihamlar səsləndirməsi də bu qəbildəndir. Həmçinin Fransa Milli Assambleyasının ölkəmizə qarşı, o cümlədən Bakı Təşəbbüs Qrupunun fəaliyyəti ilə bağlı həqiqətə uyğun olmayan iddiaların əks olunduğu qərəzli qətnamə qəbul etməsi bu gerçəkliyə bir başqa nümunədir.

Azərbaycan Milli Məclisinin Korsika Xalqına Dəstək Qrupunun bununla bağlı aprelin 11-də verdiyi bəyanatda beynəlxalq hüquqa və obyektiv reallığa uyğun gəlməyən qətnamə və səsləndirilmiş fikirlər şiddətlə qınanılır və Fransanın Azərbaycana qarşı apardığı qarayaxma kampaniyasının növbəti nümunəsi kimi qiymətləndirilir.

Bildirilir ki, Azərbaycan hər zaman beynəlxalq hüququn prinsiplərinə, xüsusilə də dövlətlərin suverenlik prinsipinə sadiqdir. Bakı Təşəbbüs Qrupu isə məhz bu prinsiplərə əsaslanaraq, beynəlxalq platformalarda müstəmləkəçilik siyasətinə qarşı çıxış edən, azadlıq və ədalət uğrunda mübarizə aparan xalqlara dəstək məqsədi daşıyan bir platformadır.

Fransa tərəfinin bu təşəbbüsü gözdən salmaq cəhdləri, əslində onun öz bədnam müstəmləkə siyasətinə haqq qazandırmaq niyyətindən irəli gəlir.

"Biz bu gün müzəffər Azərbaycan liderinin rəhbərliyi altında artıq suveren ərazilərimizdə yaşayırıq, ərazi bütövlüyümüz tam bərpa olunmuşdur. Bununla da biz Fransanın Cənubi Qafqazda apardığı destruktiv siyasətin qarşısını kəsmişik. Ancaq biz görürük ki, Fransa məhz həmin müstəmləkəçilik təfəkkürünü Cənubi Qafqaz regionunda da tətbiq etməyə çalışır. Hələ də Ermənistanı silahlandırır və Ermənistandan manipulyativ alət kimi istifadə edir", - deyə, bəyanatda vurğulanır.

Bəyanatda Fransa hakimiyyəti və qanunvericilik orqanı beynəlxalq hüquq və ədalət prinsiplərinə zidd siyasətlərdən imtina etməyə, fundamental insan hüquqlarına hörmət etməyə və dənizaşırı ərazilərdəki xalqların müstəqillik arzularını təmin etməyə çağırılır.

### BTQ-nin simasında süni düşmən obrazı formalaşdırılır

Ölkəmizdə yaradılan və artıq iki ilə yaxın müddətdir ki, fəaliyyət göstərən Bakı Təşəbbüs Qrupu müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları ədalətli mübarizəyə böyük dəstək verir. Tarixi soyqırımlar üzərində qurulan Fransa kimi ölkələrin bu günümüzdə hələ də davam etdirdiyi neokolonial siyasətə son qoyulması üçün aktiv iş görür. Beynəlxalq konfranslar təşkil olunur, memorandumlar imzalanır. Ötən ilin iyulunda BTQ-nin dəstəyi ilə Bakıda Fransanın son koloniyalarının nümayəndələri tərəfindən Beynəlxalq Dekolonizasiya Cəbhəsi yaradılıb.

Bütün bunlara görə Fransa Milli Assambleyasının, xarici işlər naziri Jan Noel Barronun məhz Bakı Təşəbbüs Qrupunu da hədəf alması təəccüblü deyil.

Fransalı nazirin növbəti ittihamlarına cavab verən BTQ-nin icraçı direktoru Abbas Abbasov bildirib ki, səslənən fikirlər əsassızdır: "Jan Noel Barro növbəti dəfə Fransa Milli Assambleyasındakı çıxışını Bakı Təşəbbüs Qrupuna həsr edib. İlk növbədə, bəyan edirik ki, nazirin səsləndirdiyi ittihamlar əsassız, qeyri-obyektiv və qərəzlidir. Təşkilatımızın beynəlxalq hüquq çərçivəsində fəaliyyətini hədəfə alan bu cür iddiaları qətiyyətlə rədd edirik".

BTQ-nin icraçı direktoru qeyd edib ki, xoş niyyətlə Fransa hökuməti ilə koloniyalar arasında danışıqlarda vasitəçilik təklif edən BTQ-ni sabitliyi pozmaqda, gərginliyi artırmaqda və digər qeyri-qanuni fəaliyyətdə təqsirləndirmək Fransanın əsarət altında saxladığı xalqların tələblərini icra etməkdən boyun qaçırmaq cəhdidir: "Fransa hökuməti beynəlxalq öhdəliklərini yerinə yetirmək əvəzinə, BTQ-nin simasında süni düşmən obrazı formalaşdırır və Fransa ictimaiyyətini aldatmaqda davam edir".

"BTQ dekolonizasiya, habelə əsarət altında saxlanılan xalqların öz müqəddəratını təyin etmək hüququnun təmin edilməsi uğrunda mübarizə aparır, adaların sahibi olan yerli xalqların tarixi, mədəni kimliyinə hörmət edilməsini tələb edir. BTQ bu tələbləri irəli sürərkən Fransanın da səs verdiyi Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə (1948), BMT Baş Assambleyasının 1514 saylı Qətnaməsinə (Dekolonizasiya haqqında Bəyannamə, 1960) və digər universal sənədlərə istinad edir" cavabda bildirilir.

Göründüyü kimi, Fransa kolonial təfəkkürdən əl çəkmək, xalqların azad olmaq hüququna hörmət etmək əvəzinə, Azərbaycana qarşı aqressiya sərgiləyir və ölkəmizin əleyhinə absurd ittihamlar səsləndirir. Çünki dövlətimizin başçısının da vurğuladığı kimi, yeni dünya düzənində müstəmləkəçiliyə yer olmadığını Makron hökuməti də yaxşı bilir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## İkili standartların növbəti təzahürü

### AŞPA-nın Azərbaycana qarşı qərəzi davam edir

**"Təəssüflə qeyd etməliyik ki, AŞPA-nın ölkəmizə qarşı qərəzi və ədalətsiz mövqeyi, ikili standartlar siyasəti davam edir. İlk dəfə deyil ki, biz bunu müşahidə edirik".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib. O bildirib ki, AŞPA prezidentinin çıxışı ikili standartların növbəti təzahürü, istiqaməti kimi diqqət çəkir. Təəssüf ki, mərəzdən, şakərdən əl çəkərək dövlətlərin daxili işinə qarışmamaq, onların qərarlarına hörmətlə yanaşmaq əvəzinə xalqların, dövlətlərin daxili işlərinə müdaxilə tendensiyası hələ də davam edir. Biz bu prosesin xoşagəlməyən bir formada aparılmasının şahidiyik. "Onların nə deməsindən asılı olmayaraq, Azərbaycan öz uğurlu və doğru siyasətini həyata keçirir. Gələcəkdə də belə davam edəcək. Azərbaycan müstəqil dövlətdir və müstəqil daxili və xarici siyasət yürütməyə qadirdir. Azərbaycan qalib xalqdır, görünür ki, bizim qalib olmağımız, uğurlarımız onları hələ də narahat edir. Onlar hələ də bu məsələdə eyni siyasəti davam etdirirlər", - deyə siyasətçi əlavə edib.

Deputat qeyd edib ki, əgər onlar diktator axtarırlarsa, diktatorun ən böyüyü Fransa prezidentidir, çünki o, siyasi rəqiblərinə qarşı müharibə elan edib, "sarı jiletli"lərə, vətəndaşlara qarşı da belə davranıb. Əlcəzairdə nə qədər insanın qanını töküblər. Bu kimi nə qədər faciələr törədiblər. Ona görə yaxşı olar ki, Avropa bizi ittiham etməkdənsə, özlərinə baxsın, Azərbaycana qarşı apardıqları bu siyasətə son qoysunlar.

C.Məmmədov Xarici İşlər Nazirliyinin AŞPA-ya cavabının da yerində, tutarlı olduğunu vurğulayaraq, hətta onların bu mövqeyinə daha sərt, daha kəskin reaksiya vermək lazım olduğunu bildirib və onları Azərbaycanın daxili işlərinə qarışmağa son qoymağa çağırıb.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Revanşist siyasəti Ermənistanı uçuruma aparır

**Vətən müharibəsində qazandığımız Zəfər Azərbaycan tarixinin ən parlaq, şanlı səhifəsinə çevrildi. Qarabağ və Şərqi Zəngəzur ərazilərimizin Ermənistanın otuz ilə yaxın davam edən işğalından azad edilməsi həm də ədalətin qələbəsi idi. 2020-ci ilin payızında baş verən 44 günlük Vətən müharibəsinin nəticələri işğalçıların aqibətinin məğlubiyyət olduğunun, gec-tez haqqın, hüququn və ləyaqətin qalib gələcəyini bütün dünyaya göstərdi.**

BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini otuz ilə yaxın icra etməyən Ermənistan 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatı imzalamaqla Vətən müharibəsində məğlubiyyətini, 1990-cı illərdə işğal etdiyi Azərbaycanın iyirmi faiz torpaqlarında davam etdirdiyi işğalının bitdiyini rəsmən təsdiqlədi.

Təəssüf ki, siyasətində riyakarlığı, yalanı, qərəzi daha çox ön planda saxlayan işğalçı ölkə kapitulyasiya aktını imzalayandan sonra da məkrindən əl çəkmədi. İşğaldan azad olunmuş ərazilərimizdə təbii sərvətlərimizi talamaqda davam etdi. Eyni zamanda Qarabağda qalmış Ermənistan silahlı qüvvələrinin tör-töküntüləri və seperatçılar təxribatlar, terrorlar törədirdilər. Həmin cinayətkarlara ən gözəl cavabı Azərbaycan Ordusu 2023-cü ilin sentyabrında həyata keçirdiyi lokal xarakterli antiterror əməliyyatı zamanı verdi. Budəfəki Zəfərimiz Azərbaycanın suverenliyinin tam bərpası ilə nəticələndi. Üçrəngli, aylı, ulduzlu bayrağımız ölkəmizin bütün ərazilərində ucaldıldı.

Vətən müharibəsindən sonra Azərbaycan sülhün təşəbbüskarı oldu, sabitliyin yaranması üçün qətiyyətli addımlar atdı. Ermənistan hökumətinin ikili oyunlarına baxmayaraq rəsmi Bakı sülh sazişinin imzalanması istiqamətində səylərini davam etdirməkdədi.

Müharibənin başa çatmasından beş ilə yaxın vaxt keçir. Azərbaycan böyük vəsait hesabına Ermənistanın işğal dövründə xarabalığa çevirdiyi Qarabağ və Şərqi Zəngəzur ərazilərini bərpa edir. Erməni vandalları tərəfindən yurdundan, evindən qovulmuş keçmiş məcburi köçkünlər tədricən geri qayıdırlar.

Aprelin 9-da ADA Universitetində Prezident İlham Əliyevin iştirakı ilə keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda bir məqam da vurğulandı ki, Ermənistan-Azərbaycan müharibəsi 2023-cü ilin antiterror əməliyyatı da daxil olmaqla sona çatmış yeganə müharibədir. Forum iştirakçılarının suallarını cavablandıran dövlətimizin başçısı bildirdi ki, biz intiqam almadıq: "Lakin xüsusilə Qarabağa qayıdanda və barbarlığı, vəhşiliyi gördükdə bizim işğal illərində hansı hissləri keçirdiyimizi təsəvvürünüzə gətirə bilərsiniz. Beləliklə biz dedik ki, - və mən bunu dəfələrlə demişəm, - intiqamımızı döyüş meydanında alacağıq. Biz normal insan davranışından və özümüzün sadiq olduğumuz müharibə qaydalarından kənara çıxan bir hərəkət etməyəcəyik. Bu, belə də oldu. Biz müharibəni bütün beynəlxalq qaydalara və dəyərlərə dair anlayışımıza uyğun apardıq. Bu, 44 günlük müharibənin hər bir gününü diqqətlə nəzərdən keçirən bütün ekspertlər tərəfindən yüksək qiymətləndirildi".

Prezident İlham Əliyev diqqətə çatdırdı ki, əslində, 2020-ci il noyabrın 10-da Ermənistan kapitulyasiya aktına imza atdı və tarixdən hamımız bilirik, bir ölkə kapitulyasiya edəndə onun başına nə gəlir: "Lakin bu baş vermədi. Beləliklə, Ermənistan sanki Azərbaycan xalqının 30 illik işğal iztirabı olmamış, 44 günlük müharibə olmamış kimi davranmağa davam etdi və öz dırnaqarası dostlarından pis məsləhətlər aldı. Yeri gəlmişkən, bu proses hələ də davam edir. Baxmayaraq, biz dəfələrlə onlara xəbərdarlıq etmişik ki, onlar istər köhnə, istərsə də yeni dostları hesab etdikləri dairələrə bel bağlamamalıdırlar. Çünki onlar burada bizimlə üz-üzə qalacaqlar". Ölkəmizin rəhbəri bəyan etdi ki, bizim maraqlarımızı, beynəlxalq arenada olan siyasi maraqlarımızı müdafiə etmək üçün kifayət qədər siyasi iradəmiz var və bizi siyasətimizdən döndərəcək hər hansı bir beynəlxalq təzyiqə məruz qoymaq mümkün deyil: "Beləliklə, hərbi nöqteyi-nəzərdən istər İkinci Qarabağ müharibəsi olsun, istərsə də 2023-cü ilin sentyabrında keçirilmiş antiterror əməliyyatı olsun, bundan sonra hərbi potensialımızı gücləndirmək üçün etdiklərimiz tamamilə anlaşılandır. Xüsusilə həqiqi sülhə və sabitliyə gətirib çıxarmayacaq, Ermənistanda geniş vüsət almış militarizasiya prosesini, Ermənistanın yeni dostları tərəfindən təchiz edilmiş ölümcül silahları nəzərə alaraq. Bu yalnız gələcəkdə potensial gərginliyə aparıb çıxaracaqdır".



Dövlətimizin başçısı nəzərə çatdırdı ki, biz Ermənistanda kifayət qədər güclü revanşist qrupların olduğunu bilirik: "Mən onları iki qrupa bölərdim: 30 illik işğala görə məsuliyyət daşıyan fəal revanşistlər və guya konstruktiv yanaşma sərgiləməyə cəhd göstərən, lakin, əslində, eyni revanş və intiqam hissi ilə yaşayan bugünkü hökumət olan passiv revanşistlər. Onların ölümcül silahları almasının səbəbi də budur".

Ermənistan bir sıra ölkələrdən bəzi silahları pulsuz alır. Prezident İlham Əliyev vurğuladı ki, bu, onların Azərbaycana qarşı yeni hərbi əməliyyatları planlaşdırmalarının səbəbidir. Dövlətimizin başçısı onların ATƏT-in Minsk qrupunun buraxılmasına dair bizim legitim təklifimizi qəbul etmək istəmədiklərinin də bu səbəbdən olduğunu bildirdi. Xatırlatdı ki, Minsk qrupu Qarabağ münaqişəsi ilə bağlı olan məsələləri həll etmək üçün yaradılmışdır. Diqqətə çatdırdı ki, əgər Ermənistan hökuməti bəyan etdikləri kimi münaqişənin bitdiyini və Qarabağın Azərbaycanın bir hissəsi olduğunu hesab edirsə, Minsk qrupunun hüquqi olaraq buraxılmaması üçün heç bir səbəb yoxdur: "De-fakto olaraq qrup fəaliyyət göstərmir, lakin rəsmi olaraq Minsk qrupunun buraxılması üçün Azərbaycanla birlikdə birgə müraciəti imzalamaqdan imtina etmək onların öz vaxtını gözləməsinə işarə edir. Ola bilsin onlar bəzi dəyişiklikləri, onlara üstünlüklər verən müəyyən beynəlxalq vəziyyəti gözləyirlər".

Amerikada seçkilərdən sonra demokratların administrasiyada qalacaqlarına çox güvəndiklərini, lakin Prezident Donald Trampın qələbəsinin onları çox məyus etdiyini bildirən Prezident İlham Əliyev dedi ki, buna baxmayaraq, Ermənistanın siyasi isteblişmenti Azərbaycan məsələsində parçalanmayıb. Onlar konsolidasiyalı mövqeyə malikdirlər. Bu, sadəcə, terminologiya, davranış və taktikadan asılı olan bir məsələdir. Beləliklə, biz buna hazır olmalıyıq, həm hərbi nöqteyi-nəzərdən, həm də siyasi nöqteyi-nəzərdən. Beləliklə, sülh sazişi imzalanana və Ermənistan da onların konstitusiyasında hələ də mövcud olan Azərbaycana qarşı bütün ərazi iddialarından imtina edənə və Azərbaycanla münasibətlərin normallaşması üçün səmimi davranış sərgiləyənə qədər onlar həmişə yeni hərbi qarşıdurma təhlükəsini törədəcəklər".

Azərbaycan hər zaman sülh yoluna üstünlük verib. İndi də niyyəti müharibə deyil, sülh, əmin-amanlıqdır. Lakin Ermənistanın xarici havadarlarının çaldıqları havaya oynaması, onların verdikləri silah-sursatdan dördəlli yapışması çirkin planlarından xəbər verir. Prezident İlham Əliyev real vəziyyəti nəzərə alaraq bildirdi ki, ayıq-sayıq olmalı, 30 illik işğalı, təkcə diasporda, Fransa və Amerika Birləşmiş Ştatlarında yox, Ermənistan hökumətində və bütün siyasi dairələrdə hələ də dövriyyə edən "böyük Ermənistan" xəyallarını unutmamalıyıq: "Biz tamamilə legitim olanları etmişik. Biz ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etmişik, separatizmə son qoymuşuq və sərhədlərimizi nəzarətimiz altına almışıq. Bizim üçün bu məsələ bitib. Lakin bu, bizim potensial təhdidləri və potensial təhlükəni, sadəcə, nəzərə almayacağımız demək deyil. Biz həmişə onları yerinə otuzdurmağa hazır olmalıyıq. Bu səbəbdən biz ordu quruculuğuna külli miqdarda vəsait xərcləməyə davam edirik. Bu, bizim dırnaqarası təcavüzü planlaşdırdığımız üçün deyil. Bu onun üçündür ki, biz təcavüzün qurbanı olaraq özümüzü müdafiə etmək və bir də bizə ziyan verməyə qərarlaşdırdığı halda Ermənistanı cəzalandırmaq iqtidarında olmaq istəyirik".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Əmək və Sosial Münasibətlər Akademiyasında təlim keçirilib






**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Əmək və Sosial Münasibətlər Akademiyasının İxtisasartırma və Kadrların İnkişafı Mərkəzində "Həmkarlar İttifaqları və əmək qanunvericiliyi: əsas istiqamətləri, problemləri, perspektivləri" mövzusunda təlim proqramı başa çatıb.**

7-11 aprel 2025-ci il tarixlərdə təşkil edilən təlimlərin məqsədi həmkarlar ittifaqı üzvlərinin əmək qanunvericiliyi, idarəetmə prinsipləri və əmək münasibətlərinin tənzimlənməsi sahəsində bilik və bacarıqlarının təkmilləşdirilməsidir.

İştirakçılar Əmək Məcəlləsi, əmək hüquqları, əmək müqavilələrinin bağlanması və rəsmiləşdirilməsi qaydaları, eləcə də bu sahədə həmkarlar ittifaqlarının rolu ilə bağlı ətraflı məlumatlandırılıblar.

Təlimlər iştirakçıların peşəkarlıq səviyyəsinin yüksəlməsinə, bilik və bacarıqlarının artırılmasına, eləcə də əmək münasibətlərinin tənzimlənməsi sahəsində effektiv yanaşmaların tətbiqinə və həmkarlar ittifaqlarının fəaliyyətinin səmərəli təşkilinə töhfə verəcəkdir.

Təlimlərin sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

# Azərbaycan Astanada II Mərkəzi Asiya Media Forumunda təmsil olunacaq

**Aprelin 16-17-də Astanada II Mərkəzi Asiya Media Forumu keçiriləcək.**

AZƏRTAC Qazaxıstan Mədəniyyət və İnformasiya Nazirliyinin Mətbuat xidmətinə istinadla xəbər verir ki, tədbirdə Qazaxıstan, Azərbaycan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Böyük Britaniya, Çin, Qətər, Rusiya və digər ölkələrin media rəhbərləri və ekspertləri iştirak edəcəklər.




Media forumunun panel sessiyalarında iki gün ərzində Mərkəzi Asiya dövlətlərinin mediası arasında yeni inkişaf nöqtələri və əməkdaşlıq imkanları, qlobal medianın inkişafı, gələcəyin informasiya landşaftının formalaşması, süni intellekt və məlumat axını dövründə medianın rəqəmsal transformasiyası, sosial şəbəkələrin ölkənin imicinin təbliğində rolu müzakirə olunacaq.

Tədbirdə 500-dən çox iştirakçı (Qazaxıstan və xarici media rəhbərləri, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının mətbuat xidmətlərinin əməkdaşları, universitet tələbələri, nüfuzlu şəxslər, media ekspertləri və s.) iştirak edəcəklər. Onlar üçün aparıcı mütəxəssislərdən ustad dərsləri təşkil olunacaq.

# Bakıda I Gənc Kardioloqlar Forumu olub







**Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Kardiologiya İnstitutunun (ETKİ) təşkilatçılığı ilə Bakıda aprelin 10-dan 12-dək I Gənc Kardioloqlar Forumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət qurumlarının rəhbər şəxsləri, deputatlar, tanınmış elm xadimləri, Azərbaycan Tibb Universitetinin tələbələri, "ETKİ könüllüləri" və Azərbaycanın elm və tibb müəssisələrinin, eləcə də peşəkar cəmiyyətlərin nümayəndələri iştirak ediblər.

I Gənc Kardioloqlar Forumunun rəsmi açılış mərasimində Elmi-Tədqiqat Kardiologiya İnstitutunun (ETKİ) direktoru və forumun sədri professor Gülnaz Dadaşova tədbirin vacibliyini vurğulayıb: "Bu forum kardiologiya sahəsində həyata keçirilən islahatların ilkin nəticələrini və perspektivlərini dərindən analiz etmək, eləcə də geniş, çoxtərəfli müzakirələr aparmaq üçün əhəmiyyətli bir platformadır. Əminəm ki, forumda aparılan səmərəli müzakirələr və fikir mübadilələri kardiologiyanın növbəti dövründəki inkişafına əhəmiyyətli töhfə verəcək".

Çıxış edən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Səhiyyə siyasəti şöbəsinin müdiri Ramik Quliyev bildirib ki, zəngin proqram çərçivəsində maraqlı panellər və kurslar keçirilir və bu da öz növbəsində kardiologiya sahəsinin inkişafına müsbət təsir göstərir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli forumun kardiologiya sahəsində gənc mütəxəssisləri bir araya gətirərək, birgə tədqiqat imkanlarını nəzərdən keçirmək və ürək-damar xəstəliklərinin müalicəsində əhaliyə göstərilən səhiyyə xidmətlərinin keyfiyyətini artırmaq baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva çıxışında forumun proqramına yeni tibbi texnologiyaların və fundamental tibbin nailiyyətlərinin praktiki aspektlərinə həsr olunmuş iclasların, orijinal tədqiqat nəticələrinin və real klinik təcrübədən götürülmüş hallar əsasında keçirilən klinik debatların daxil olduğunu bildirib.

Qeyd edək ki, üç gün davam edən foruma 600-dən artıq yerli mütəxəssis qatılıb. I Gənc Kardioloqlar Forumu Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən akkreditasiya olunub və 46 DTT kredit balı ilə qiymətləndirilib.

# İkinci həyat

## Ölümdən sonra orqan bağışlanması neçə-neçə xəstəyə yaşamaq şansı verir

***- Salam, Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi harada yerləşir?***

**- Salam, zəhmət olmasa, dördüncü mərtəbə, 429-cu otağa yaxınlaşın.**

Dördüncü mərtəbəyə qalxırıq. Elə bu andaca səhiyyə naziri Teymur Musayevlə jurnalistlər arasında üç il əvvəl baş verən dialoq yadıma düşür. O zaman "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanunun qüvvəyə minməsinə az qalmışdı, Səhiyyə Nazirliyinin təşkil etdiyi mətbuat konfransında orqan transplantasiyası, yeni qanundan gözləntilər haqda ünvanladığım sualı cavablayan nazir jurnalistlərə qanun qüvvəyə mindiyi halda "kim ölümündən sonra orqanlarını bağışlayacaq?" deyə sual ünvanlamışdı. Pandemiya səbəbindən mətbuat konfransında çox sayda jurnalist iştirak etməsə də, orada olanlardan bəziləri əlini qaldıraraq buna hazır olduğunu bildirmişdi. Nazir isə buna sevinərək belə insanların çox olacağı halda qanunun icrası, gözləntiləri ilə bağlı ümidini ifadə etmişdi.

Bu günün işini sabaha qoymaq bəlkə də ən pis vərdişlərimizdəndir. "Sabah, sabah" deyə-deyə bir də görürsən ki, uzun zaman keçib. Biz geciksək də, sonunda yolumuzu Bakı Sağlamlıq Mərkəzinə (BSM) sala bilmişdik. Məqsədimiz BSM-də yerləşən Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinə baş çəkmək idi.

Beləliklə, 429-cu otağa yaxınlaşıb qapını döyərək orqan bağışlamaq üçün gəldiyimizi bildirdik və növbəmizi gözlədik. Biz növbə gözləməkdə idik, digərləri isə donor axtarmağa gələnlər, orqan köçürülməsi üçün növbəyə yazılanlar idi. Kimisi böyrək transplantasiyası, kimisi qaraciyər, kimisi sümük iliyi üçün müraciət etməyə gəlmişdi.

Bəzən atdığımız kiçik bir addım bilmədiyimiz zamanda böyük hadisələrə vəsilə ola bilir. "Qurani-Kərim"in Maidə surəsinin 32-ci ayəsində deyilir: "Bir insana həyat bağışlamaq bütün insanlara həyat bağışlamağa bərabər savabdır".

### Ölümündən sonra orqanlarını bağışlamaq istəyənlərin sayı azdır

Mərkəzin yaradılmasından iki ildən çox vaxt keçməsinə baxmayaraq, ölümündən sonra donor olmaq istəyənlərin sayı hələ də çox deyil. Koordinasiya Mərkəzindən verilən məlumata əsasən, son iki il ərzində ölümündən sonra orqanlarını bağışlamaq istəyənlərin sayı təxminən 100-ə yaxın olub. Amma maarifləndirmə və təbliğat işlərinin genişləndirilməsi sayəsində daha çox insanın donorluğa könüllü şəkildə qoşulması gözlənilir.

Fikrimizcə, maarifləndirmə tədbirlərinin yetərincə olmaması bu məsələni müəyyən qədər arxa plana salıb. Hətta belə mərkəzin fəaliyyət göstərdiyini və sağlığında orqan bağışlamağın mümkün olduğunu da çox az adamın bildiyi müşahidə edilir. O üzdən bu sahədə ardıcıl və planlı təşviqat işlərinin aparılması vacib görünür.

Elə maarifləndirmə işləri ilə bağlı hansı tədbirlərin nəzərdə tutulduğunu da bu arada öyrəndik. Qeyd edildi ki, son illər Azərbaycanda orqan transplantasiyası sahəsində mühüm addımlar atılıb. Cəmiyyətin donorluqla bağlı məlumatlandırılması məqsədilə ODTKM tərəfindən müxtəlif layihələr həyata keçirilir. Bu çərçivədə sosial media vasitəsilə maarifləndirmə kampaniyaları aparılır, universitetlərdə mütəxəssislər tərəfindən seminarlar təşkil edilir, kütləvi informasiya vasitələrində donorluğun əhəmiyyəti izah olunur, ictimai aksiyalar keçirilir.

Bununla belə donorluq hələ də cəmiyyətimizdə kifayət qədər təşviq olunmur. İnsanların məlumatı azdır və bu səbəbdən insanlar məsələyə ehtiyatla yanaşırlar. Halbuki orqan donorluğu təkcə bir insanın həyatını xilas etmir, eyni zamanda bir neçə ailəyə ümid bəxş edir və cəmiyyətin humanist dəyərlərini gücləndirir. Ona görə də gələcəkdə bu təşəbbüslərin daha da genişləndirilməsi, insanları məlumatlandırmaq və könüllü donorluğu təşviq etmək əsas hədəflərdəndir.



Xatırladaq ki, "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minib. Qanun Azərbaycanda həm canlı donordan, həm də meyitdən donor orqan köçürülməsinə icazə verir. Qanuna əsasən, canlı donordan transplantasiya məqsədilə yalnız böyrəyin biri, ağciyərin bir payı, qaraciyərin bir hissəsi, mədəaltı vəzin bir hissəsi, nazik bağırsağın bir hissəsi, dərinin bir hissəsi, sümük iliyi, kök hüceyrələr götürülə bilər. Meyit donordan isə ürək, ağciyər (ürək-ağciyər kompleksi), böyrəklər, qaraciyər, mədəaltı vəzi, mədə, bağırsaqlar, uşaqlıq, yuxarı və aşağı ətraflar, sümüklər, dəri-fassiya-əzələ kompleksi və onların seqmentləri, sümük iliyi, gözün buynuz qişası və kök hüceyrələri götürülə bilər.

Canlı donor yalnız yaxın qohumlarına orqan və ya toxuma bağışlaya bilər. Donorluq üçün müraciət edən şəxsin sağlamlıq vəziyyəti həkim komissiyası tərəfindən qiymətləndirilir. Əgər donor olmaq istəyən şəxs yaxın qohum deyilsə, sözügedən sənədlər Etika Komissiyasına göndərilir və şəxsin donor olmasına yalnız həmin komissiya qərar verə bilir.

### Orqan köçürülməsi yeni mərhələyə qədəm qoyub

Bir az gözlədikdən sonra otağa daxil olduq. Qapının üzərində videokamera ilə çəkiliş aparıldığı yazılmışdı. Daxil olub əyləşdikdən sonra dolduracağımız ərizə forması təqdim olundu. Bununla yanaşı, mərkəzin əməkdaşı proses barədə məlumat verərək orqanların yalnız beyin ölümü gerçəkləşdiyi halda götürüldüyünü, eyni zamanda ailənin bu qərardan xəbərdar olub-olmadığını soruşdu.

Ərizəni doldurmağa başladım. Sadə məlumatlar - ad, soyad, ünvan, əlaqə vasitələri, şəxsiyyət vəsiqəsinin məlumatlarını qeyd etdikdən sonra siyahıda yazılmış, bağışlamaq istədiyiniz orqanların qarşısına işarə qoydum. Sonra yaxın bir şəxsin məlumatlarını - əlaqə nömrəsini yazaraq ərizəni imzaladım. Qeyd olunan orqanlardan ürək, ağciyər (ürək-ağciyər kompleksi), böyrəklər, qaraciyər, mədəaltı vəzi, bağırsaqlar, uşaqlıq, yuxarı və aşağı ətraflar, sümüklər, dəri-fassiya-əzələ kompleksi və onların seqmentləri, sümük iliyi yalnız reanimasiya şəraitində beyin ölümü gerçəkləşdiyi halda, gözün buynuz qişası isə hər bir meyitdən, kök hüceyrələr isə canlıdan da götürülə bilir.

Koordinasiya Mərkəzindən bildirildi ki, Azərbaycanda beyin ölümü diaqnozu qoyulmuş şəxslərdən orqan köçürülməsi yeni mərhələyə qədəm qoyub. Belə ki, 2024-cü ildən etibarən ölkədə beyin ölümü diaqnostikası üzrə təlimlərə başlanılıb və artıq bu sahədə ilk uğurlu nəticələr əldə olunub. Bu ilin əvvəlində meyit donordan ilk transplantasiya prosesi həyata keçirilib. Nəticədə bir xəstəyə qaraciyər, iki xəstəyə isə gözün buynuz qişası uğurla köçürülüb. Beyin ölümü iki dəfə təsdiqləndikdən sonra mərkəzin mütəxəssisi həmin şəxsin ailəsi ilə görüşərək onların razılığını alıb. Məlumat üçün bildirək ki, Qafqaz regionunda meyitdən orqan köçürülməsi ilk dəfə Azərbaycanda həyata keçirilib.

### Ölkəmizdə Kök Hüceyrə Bankı yaradılacaq

Azərbaycanda Kök Hüceyrə Bankının (Mərkəzin) da yaradılması planlaşdırılır. Mərkəz yaradıldıqdan sonra canlı donorlardan götürülən kök hüceyrələr ehtiyac olan şəxslərə köçürülə biləcək. Bildirildi ki, Kök Hüceyrə Bankının yaradılması istiqamətində işlər aktiv şəkildə davam edir. O da qeyd olundu ki, mərkəzin fəaliyyətə başlaması üçün əsas şərt genişhəcmli toxuma tipləmə laboratoriyasının yaradılmasıdır. Azərbaycan vətəndaşları yalnız 50 yaşınadək kök hüceyrə donoru ola bilərlər. Donorun sağlamlıq və genetik uyğunluq vəziyyətinin dəqiq müəyyən edilməsi üçün genetik analizlər icra olunmalıdır.

Qanunla 18 yaşına çatmayan şəxsdən transplantasiya məqsədi ilə orqan və toxumaların götürülməsi qadağandır. Yalnız sümük iliyi və kök hüceyrələrin götürülməsinə valideynlərin razılığı ilə yol verilir.

Ümumilikdə ölümündən sonra orqanlarını bağışlamaq üçün rəsmi yaş məhdudiyyəti mövcud deyil. Əsas meyar orqanların funksional və sağlam olmasıdır: "Dünyada ən yaşlı orqan donoru 100 yaşında olub. Bu, orqanların funksional vəziyyətinin yaşdan daha önəmli olduğunu göstərir. Bununla belə, Azərbaycanda orqan donorluğu ilə bağlı qanunvericiliyə əsasən, yetkinlik yaşına çatmış və tam fəaliyyət qabiliyyətli şəxslər sağlığında ölümündən sonra orqanlarının götürülməsinə razılıq verə bilərlər", - deyə qeyd olundu.

Beyin ölümünün reanimasiya şəraitində gerçəkləşdiyi zaman orqanların götürülməsi mümkün olduğundan hazırda mərkəz tərəfindən xəstəxanalarla əlaqələrin necə olduğu və ümumilikdə respublikanın klinikalarında reanimasiya şəraitinin bu kimi hallara uyğun olub-olmaması da məsələnin əsas tərəfidir. Biz də bu sahədə vəziyyətin necə olduğunu öyrənməyə çalışdıq. Qeyd olundu ki, Orqan Donorlouğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi xəstəxanalarla sıx əməkdaşlıq çərçivəsində ağır xəstələr haqqında məlumatlar toplayır və onların mütəmadi monitorinqini keçirir. Bu məlumatlar həm donorların axtarışında, həm də transplantasiya proseslərinin idarə olunmasında əsas rol oynayır. Məlumat mübadiləsi və koordinasiya sistemləri daimi olaraq təkmilləşdirilir ki, transplantasiya prosesləri daha şəffaf və effektiv şəkildə həyata keçirilə bilsin. Reanimasiya şəraitində baş verən ölümlə bağlı məlumatların koordinasiyası təmin edilir. Hər gün müxtəlif dövlət və özəl klinikalardan, o cümlədən Bakıda yerləşən xəstəxanalardan məlumatlar toplanır. Koordinasiya Mərkəzi xəstəxanalarda beyin ölümü diaqnozunun dəqiqliyini artırmaq üçün mütəmadi olaraq təlimlər keçirir. İlin sonunda aparılan audit zamanı müxtəlif müəssisələrdə reallaşdırılan ölümlər və beyin ölümü diaqnozunun qoyulması ilə bağlı statistik göstəricilər qiymətləndirilir. Bu tədbirlər Koordinasiya Mərkəzinin məlumat dəqiqliyini və əməkdaşlığın effektivliyini artırmaq üçün mühüm addımlardır.

### Ümid sonda həmişə ölmür

Bu gün dəyərli zamanımızdan ayırdığımız 10-15 dəqiqə həsrətlə sağlamlığına qovuşmağı gözləyən neçə-neçə xəstəyə çarə ola bilər. Heç kəs hansı şəkildə həyatdan köçəcəyini bilmir. Hansı şəkildə ölməyimizdən asılı olmayaraq, kiminsə dünya işığına qovuşmasına vəsilə ola bilərik. Siyahıda olan və olmayan yüzlərlə xəstənin cansız bədəndəki canlı orqanlara ehtiyacı var.

Mərkəzin məlumatına görə, bu gün gözləmə siyahısında böyrək transplantasiyası üçün qeydiyyata alınmış 500-dən çox xəstə var. Lakin ölkədə 4 minə yaxın vətəndaş dializ müalicəsi alır. Onların yaxın qohum donoru olmadığı üçün və meyit donora ümidləri olmadığından gözləmə siyahısına daxil olmayıblar. Eyni zamanda təxminən 500 nəfər sümük iliyi, 100 nəfər qaraciyər transplantasiyası üçün qeydiyyatdadır.

Bilmədiyimiz bir anda kiminsə ümidi ola bilərik...

Həyata bir dəfə gəlsək də, kiminsə ikinci həyatı ola bilərik.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

İŞİMİZ, GÜZƏRANIMIZ

# Azərbaycan-Moldova iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 6-cı iclası keçirilib

**Bakıda Azərbaycan ilə Moldova arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 6-cı iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə iclas iştirakçıları Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyublar. Daha sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsi ehtiramla anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Nümayəndə heyəti həmçinin Şəhidlər xiyabanında Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları önünə güllər düzüblər.

Daha sonra Azərbaycan ilə Moldova arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 6-cı iclası öz işinə başlayıb.

Tədbiri giriş sözü ilə açan Azərbaycan-Moldova iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan tərəfindən həmsədri, kənd təsərrüfatı naziri Məcnun Məmmədov ölkəmizdə iqtisadiyyatın diversifikasiyası istiqamətində həyata keçirilən islahatlar barədə məlumat verib. 30 ildir ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini deyən nazir iqtisadi potensialı nəzərə alaraq, ticarət əlaqələrinin daha da şaxələndirilməsi, ticarət dövriyyəsini artırmağa hədəflənmiş addımların atılmasının vacibliyini qeyd edib. Həmsədr bildirib ki, birgə



biznes-forumlar, beynəlxalq sərgilərdə qarşılıqlı iştirak iki ölkənin işgüzar dairələri arasında əməkdaşlığı daha da gücləndirə bilər.

Hazırda işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı yenidənqurma işlərinin aparıldığını deyən nazir bərpa və quruculuq işlərində Azərbaycanın Moldova və digər tərəfdaş ölkələrin ən yaxşı təcrübələrindən istifadə edə biləcəyinə əminliyini ifadə edib. Ölkəmizdə etibarlı və əlverişli biznes mühitinin olduğunu xatırladan nazir moldovalı sahibkarları Azərbaycana investisiya yatırmağa, eləcə də respublikamızın nəqliyyat və logistika imkanlarından səmərəli istifadə etməyə çağırıb: "Azərbaycan Avrasiya regionunun etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Dəniz limanları, dəmir yolu rabitəsi, hava limanları və avtomobil yolları, Şərq və Qərbi, Cənubla Şimalı birləşdirən müasir nəqliyyat infrastrukturu bizə səmərəli ticarət əlaqələrimizi artırmaq üçün böyük üstünlüklər verir. Mən hər iki tərəfdən investorları Azərbaycan və Moldovada iqtisadi zonaların üstünlüklərindən maksimum yararlanmağa çağırıram".

Nazir Məcnun Məmmədov əlavə edib ki, Azərbaycan hökumətinin elektron idarəedilməsi sahəsində müxtəlif uğurlu layihələri mövcuddur. Qeyd olunub ki, Azərbaycanın uğurlu layihələrindən olan DOST modeli əsasında Moldovanın müxtəlif regionlarında pilot layihələr icra olunmaqdadır: "Biz bu istiqamətdə Moldova ilə əməkdaşlığı davam etdirmək barəsində və ən yaxşı təcrübələrimizi bölüşmək istiqamətində birgə razılıq əldə etdik".

Moldovanın Baş nazirinin müavini, infrastruktur və regional inkişaf naziri, Azərbaycan-Moldova iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın həmsədri Vladimir Bolea öz növbəsində ölkəsinin Azərbaycanla dost ölkələr olduğunu, bütün sahələr üzrə tərəfdaşlıq münasibətlərini inkişaf etdirməyə maraq göstərdiyini deyib. İki ölkə arasında iqtisadi, eləcə də kənd təsərrüfatı sahəsində tərəfdaşlığı genişləndirmək üçün böyük potensialın olduğu vurğulanıb. Bildirilib ki, aqrar sahədə müasir texnologiyaların transferi, müştərək elmi tədqiqatların aparılması, aqrar sahədə mütəxəssis hazırlığı və aqrar məhsulların ixracı Azərbaycanla Moldovanın kənd təsərrüfatı sahəsində əməkdaşlığının əsas istiqamətləri ola bilər.

Daha sonra iclas iştirakçıları Azərbaycan-Moldova birgə hökumətlərarası komissiyanın 2023-cü il dekabrın 6-da Kişineuda keçirilmiş 5-ci iclasında qəbul olunmuş qərarların icra vəziyyətini müzakirə edib, bu istiqamətdə mühüm işlərin görüldüyünü bildiriblər. İclasda Azərbaycanla Moldova arasında ikitərəfli əməkdaşlığın istiqamətləri, enerji, nəqliyyat, kənd təsərrüfatı, texnologiya transferi, ticarət dövriyyəsinin artırılması, qarşılıqlı investisiyaların təşviqi, beynəlxalq yükdaşımalar, məhsulların üçüncü ölkələrə ixracı zamanı Orta dəhlizin yaratdığı üstünlüklərdən istifadə və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər iki ölkə arasında böyük turizm potensialının olduğunu nəzərə alaraq birbaşa uçuşların sayının artırılması barədə razılığa gəliblər.

İclasın sonunda Azərbaycan-Moldova iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 6-cı iclasının yekunlarına dair protokol təsdiqlənib. Sənəd iki ölkə arasında ticarət dövriyyəsinin artırılması, kənd təsərrüfatı, qida təhlükəsizliyi, energetika, nəqliyyat, elmi-texniki və humanitar, sosial, səhiyyə, mədəniyyət, əqli mülkiyyət, ətraf mühit, idman və turizm sahələrində ikitərəfli əməkdaşlığı daha da inkişaf etdirməyi nəzərdə tutur. Yekun protokolda həmçinin iki ölkə arasında ikitərəfli münasibətlərin hüquqi-normativ bazasının daha da təkmilləşdirilməsi niyyəti öz əksini tapıb.

Daha sonra Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Moldova Respublikasının Milli Qida Təhlükəsizliyi Agentliyi arasında baytarlıq sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Memorandumda baytarlıq sahəsində qarşılıqlı əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur. İclasda həmçinin Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi ilə Moldova Respublikasının Energetika Nazirliyi yanında Milli Dayanıqlı Enerji Mərkəzi arasında "Bərpaolunan enerji sahəsində əməkdaşlığın təşviqi haqqında" Anlaşma Memorandumu imzalanıb. Memorandum enerji sahəsində, eyni zamanda bərpaolunan enerji mənbələrindən istifadəyə dair təcrübə mübadiləsinin genişləndirilməsi, bərpaolunan enerji texnologiyalarını və innovativ həlləri inkişaf etdirmək üçün tədqiqat təşəbbüsləri üzərində əməkdaşlığın inkişaf etdirilməsini ehtiva edir.

Tərəflər Azərbaycan-Moldova iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 7-ci iclasının gələn il Kişineuda keçirilməsi barədə razılığa gəliblər.

# Azərbaycan-Moldova biznes-forumu

**Bakıda Azərbaycan-Moldova biznes-forumu keçirilib. Forumda Moldovanın və Azərbaycanın iş adamları, biznes qurumlarının nümayəndələri, dövlət və hökumət təmsilçiləri iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, forumda çıxış edən Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov ölkədə həyata keçirilən iqtisadi islahatlardan danışaraq nəzərə çatdırıb ki, hər iki ölkənin iqtisadi potensialı daha geniş əlaqələrin qurulmasına imkan verir ki, bundan da səmərəli istifadə etmək lazımdır.

Nazir ölkəmizin qanunvericiliyi, biznes mühiti barəsində ətraflı məlumat verib və moldovalı iş adamlarını Azərbaycana sərmayə qoymağa çağırıb.



Moldova Baş nazirinin müavini, infrastruktur və regional inkişaf naziri Vladimir Bolea çıxış edərək Azərbaycanda bu cür biznes-forumun keçirilməsinin əhəmiyyətindən danışıb. Nəzərə çatdırıb ki, Moldova aqrar ölkə olaraq Azərbaycana daha çox məhsul ixrac etmək imkanına malikdir. Bununla yanaşı, Azərbaycan da Moldovanın ehtiyacı olan məhsulları ixrac edə bilər. Azərbaycan hazırda neft və neft məhsulları, ağac, meyvə və tərəvəz ixrac edir. Hər iki ölkə böyük bazara sahibdir və ticarət əlaqələrini qarşılıqlı olaraq inkişaf etdirmək üçün böyük fürsət var.

Sonra iqtisadiyyat nazirinin müavini Rövnəq Abdullayev, Moldovanın İqtisadi İnkişaf və Rəqəmsallaşma Nazirliyinin dövlət katibi Viorel Qarac, AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, Moldovanın İqtisadi İnkişaf və Rəqəmsallaşma Nazirliyinin Beynəlxalq iqtisadi əlaqələr idarəsinin rəis müavini Yevgeni Kistol və başqaları çıxış edərək təmsil etdikləri qurumların iş prinsipi və fəaliyyəti haqqında ətraflı məlumat veriblər.

Qeyd olunub ki, hər iki dövlətin siyasi rəhbərliyinin iradəsi ilə qarşılıqlı iqtisadi əlaqələrin genişləndirilməsi artıq zərurətə çevrilib.

Sonra forum iştirakçıları Moldova istehsalı olan şərabların sərgisi ilə tanış olublar. Moldovadan gələn iş adamları ilə yerli şirkətlərin nümayəndələri qarşılıqlı əlaqələr qurmaq məqsədi ilə görüş keçiriblər.

# Maliyyə Nazirliyi tərəfindən depozit hərracı olub

**Maliyyə Nazirliyi tərəfindən dövlət büdcəsi vəsaitlərinin daha səmərəli idarə olunması məqsədilə ilk dəfə olaraq vahid xəzinə hesabının milli valyutada olan sərbəst qalığının yerli banklarda depozitə yerləşdirilməsi üçün depozit hərracı təşkil edilib.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, hərracın nəticələrinə əsasən, vahid xəzinə hesabının 1 milyard manat həcmində sərbəst qalığı 4 sistem əhəmiyyətli bankda, 3 ay müddətinə, 7,21 faiz orta çəkili faiz dərəcəsi ilə depozitə yerləşdirilib.

Depozit hərraclarının tətbiqi dövlət büdcəsinə əlavə gəlir formalaşdırmaqla, bank sektorunda likvidliyin artmasına töhfə verəcəkdir.

Maliyyə Nazirliyi bu kimi alətlər vasitəsilə dövlət vəsaitlərinin idarə olunmasında yeni yanaşmaların tətbiqini genişləndirməklə dövlət büdcəsinə əlavə daxilolmaların formalaşdırılması istiqamətində fəaliyyətini davam etdirəcəkdir.

# Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsində hazırda 70 şəxsə xidmət göstərilir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinə bu il 39 nəfər qəbul olunub.**




Həmin şəxslər yaş qruplarına uyğun müəssisənin müvafiq şöbələrinə qəbul ediliblər.

Onlardan bir hissəsi müəssisədə artıq sosial reabilitasiya kursunu başa vurub. Hazırda müəssisədə 26-sı qadın, 44-ü kişi olmaqla 70 şəxsə stasionar formada reabilitasiya yönümlü sosial xidmətlər göstərilir. Onlardan 18 nəfəri uşaqlardır.

Müəssisədə baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların, müəyyən yaşayış yeri olmayan 18 yaşından yuxarı şəxslərin, görmə qabiliyyəti məhdudluğu olan şəxslərin və s. sosial reabilitasiyası həyata keçirilir.

Onlar burada sosial-məişət, sosial-hüquqi xidmətlərlə yanaşı, gündəlik qida normaları əsasında yemək, qəlyanaltı, yaşayış yeri və geyimlə təmin edilirlər.

Müəssisəyə qəbul şəxsin özünün və ya qanuni nümayəndəsinin müraciəti, həmçinin daxili işlər, yerli icra hakimiyyəti orqanlarının və bələdiyyələrin göndərişləri əsasında agentliyin yerli qurumları və ya DOST mərkəzləri vasitəsilə aparılır.



# Bir "yaşıl enerji" dəhlizi isə başlanğıcını Naxçıvandan götürəcək

**Azərbaycan-Türkiyə enerji əməkdaşlığı uğurla davam edir. Neft-qaz və ixrac layihələrinin həyata keçirilməsi zamanı əldə olunan zəngin təcrübə "yaşıl enerji" üçün də "yaşıl yol" açır.**

Məlum olduğu kimi, bu ayın 4-də Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar da iştirak edirdi. Prezident İlham Əliyev Alparslan Bayraktarı qəbul edərkən Azərbaycan ilə Türkiyə arasında enerji sahəsində əlaqələrin genişləndirilməsi, o cümlədən hidrokarbonatlar və elektrik enerjisi sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, bunun gələcəkdə daha da inkişafı üçün böyük imkanların mövcudluğu qeyd olundu. Görüş zamanı elektrik enerjisinin ixracı məsələsinə də toxunuldu və bu xüsusda SOCAR-ın artıq Türkiyəyə satışlar həyata keçirdiyi vurğulandı.

"Azərenerji" ASC ilə Türkiyənin Elektrik Ötürülməsi Anonim Şirkəti (TEİAŞ) arasında Naxçıvandan 75 meqavat həcmində elektrik enerjisinin ixracı ilə bağlı imzalanacaq sənədin əhəmiyyəti qeyd edildi, Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan arasında "yaşıl enerji" sahəsində əməkdaşlığın genişləndirilməsi ilə bağlı sənədin imzalanacağı bildirildi.

Elə həmin gün "Azərenerji" ilə TEİAŞ arasında Əməliyyat Müqaviləsi imzalandı. Azərbaycanın energetika naziri Pərviz Şahbazov bu barədə məlumat verərək deyib: "Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar ilə birgə strateji əhəmiyyətli enerji təhlükəsizliyi layihələri üzrə əməkdaşlığımızı dəyərləndirdik. "Cənub qaz dəhlizi", Naxçıvan-Türkiyə Enerji Transmissiyası və Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan "Yaşıl Enerji" Dəhlizi layihələrinin inkişafı ilə bağlı məsələləri müzakirə etdik. Naxçıvandan Türkiyəyə elektrik enerjisinin ixrac imkanlarını artırmaq məqsədi ilə "Azərenerji" ASC ilə Türkiyənin Elektrik Ötürülməsi Anonim Şirkəti arasında Əməliyyat Müqaviləsi imzalandı.

Xatırladaq ki, Prezident İlham Əliyev Qarabağı, Şərqi Zəngəzuru və Naxçıvanı "yaşıl enerji" zonaları elan edib. Konkret olaraq Naxçıvanın bu sahədəki imkanlarını qeyd etməli olsaq, deməliyik ki, muxtar respublikada həm günəş və külək, həm də su-elektrik stansiyalarının inşası üçün böyük potensial var.

Əvvəla, elə indinin özündə də Naxçıvan MR-də istehsal olunan elektrik enerjisinin xeyli hissəsi alternativ və bərpaolunan enerji mənbələrindən yaranır. Muxtar respublikada 1500 MVt gücündə bərpaolunan enerji layihələrinin reallaşdırılmasına imkan var. Odur ki, Naxçıvanın özünün "yaşıl enerji" mənbələri potensialı ilə enerjinin bu növünün ixracatçısına çevrilməsi də hədəflənib. Bu istiqamətdə Azərbaycan-Türkiyə Enerji Forumu möhkəm platforma təşkil edir.

İlk dəfə 2021-ci ildə Bakıda təşkil olunan Azərbaycan-Türkiyə Enerji Forumu iki qardaş ölkə arasında enerji sahəsində əməkdaşlığı inkişaf etdirmək üçün nəzərdə tutulmuşdu. Əsasən "yaşıl enerji" konsepsiyası çərçivəsində formalaşdırılan bu platforma enerji sahəsində əməkdaşlığın müttəfiqlik səviyyəsinə yüksəldilməsini hədəfləyirdi. 2022-ci ildə Türkiyədə keçirilən ikinci forumdan sonra növbəti dəfə tədbirə Naxçıvan evsahibliyi etdi.

2023-cü ilin sentyabr ayında keçirilən Azərbaycan-Türkiyə III Enerji Forumunda vurğulandı ki, külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal güclərinin yaradılması və onun ən azı 1000 MVt-nın ixrac edilməsi planları çərçivəsində beynəlxalq enerji şirkətləri ilə əməkdaşlıq Naxçıvanı "yaşıl enerji"nin istehsalçısı, ixracatçısı mənbəyinə və tranzit məkanına çevirəcək. Bu xüsusda "yaşıl enerji" layihələrinin reallaşdırılması ilə bağlı planlar diqqətə çatdırıldı. Yekunda isə "Azərbaycan-Türkiyə III Enerji Forumunun Protokolu", həmçinin "Naxçıvan üzərindən "Türkiyə-Azərbaycan Qarşılıqlı Əlaqə" layihəsinin icrası ilə əlaqədar 2023-2025-ci illərdə TEİAŞ və "Azərenerji" ASC-nin birgə həyata keçirəcəyi Yol Xəritəsi", bir sıra digər sənədlər imzalandı.

Qeyd edək ki, son üç ildə ənənəvi Bakı Enerji Həftəsində də Naxçıvan "yaşıl enerji" zonası kimi diqqətdə olub. 2023-cü ildə Naxçıvanda Bakı Enerji Həftəsinin xüsusi sessiyası da keçirildi. Həmin tədbirdə də muxtar respublikada 1500 MVt gücündə "yaşıl enerji" layihələrinin reallaşdırılacağı bildirildi. Sessiyanın gedişində Azərbaycanın Energetika Nazirliyi və "Total Energies" şirkəti arasında "250 MVt gücündə quruda külək, Naxçıvan Muxtar Respublikasında 250 MVt gücündə günəş-elektrik stansiyaları, habelə enerji saxlanc sistemləri layihələrinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu", eyni zamanda adıçəkilən nazirliklə "Nobel Energy Management" MMC arasında "Naxçıvan Muxtar Respublikasında 400 MVt gücündə günəş-elektrik stansiyasının tikintisi və istehsal ediləcək elektrik enerjisinin Türkiyə Respublikasına ixracı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalandı. Naxçıvanın "yaşıl enerji" potensialının müzakirə olunduğu həmin sessiyada bir sıra ölkələrin nümayəndələri də iştirak edirdi ki, bu da sözügedən istiqamətdə yeni addımların atılmasına zəmin yaradır.

Keçən il iyunun əvvəlində keçirilən Bakı Enerji Həftəsində də həmin mövzuya geniş toxunuldu. Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar tədbirin açılış mərasimindəki çıxışında dedi: "Biz Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə sıx əməkdaşlıq edirik. Məqsədimiz burada - Naxçıvan ilə Türkiyə arasında qarşılıqlı enerji bağlantısı imkanlarını artırmaqdır. Bu investisiyaların yekunlaşdırılması ilə daha çox yeni "yaşıl enerji"ni təmin edə və bunları Türkiyə bazarına nəql edə bilərik. Çıxışımı yekunlaşdırmazdan əvvəl bildirmək istəyirəm ki, Türkiyə bu istiqamətdə enerji layihələrinin regionda əsas vasitəçisi kimi çıxış edir. Belə ki, Türkiyə Şərq ilə Qərb arasında unikal mövqedə yerləşir. Düşünürəm ki, regional əməkdaşlığı daha da təşviq etməklə, enerji təhlükəsizliyini prioritet kimi görməklə biz dayanıqlı və dinamik enerji landşaftı qura bilərik ki, bu da gələcək nəsillərə xidmət edə bilər".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Naxçıvanda "SuVar!" adlı ekoloji aksiya

**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin dəstəyi, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, eləcə də Naxçıvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "SuVar!" adlı ekoloji aksiya reallaşıb.**

AZƏRTAC xəbər verir ki, aksiyada dövlət qurumlarının nümayəndələri, ekokönüllülər və müəssisələrdə fəaliyyət göstərən könüllülər fəal iştirak ediblər. Aksiya iştirakçılarına əvvəlcə yaşıllıqların qorunması və genişləndirilməsinin əhəmiyyəti, sudan səmərəli istifadə yolları, eyni zamanda suya qənaət metodları barədə ətraflı məlumat verilib.

Qeyd olunub ki, iqlim dəyişikliklərinin təsiri fonunda Naxçıvanın kəskin kontinental iqlimi şəraitində ağacların müntəzəm suvarılması və qorunması xüsusi əhəmiyyət kəsb edir. Aksiyanın əsas məqsədi də könüllülərin səfərbərliyi ilə ağacların suvarılmasına dəstək vermək, ictimaiyyətdə ekoloji məsuliyyət hissini gücləndirmək və ətraf mühitin mühafizəsinə töhfə verməkdir.

Sonra iştirakçılar komandalara bölünüb və Naxçıvan şəhərinin Heydər Əliyev prospekti və ətraf ərazilərində yerləşən yaşıllıq sahələrində ağacların suvarılması işlərinə başlayıblar. Hər komandada 30 nəfər olmaqla ümumilikdə 200-ə yaxın könüllü aksiyada fəallıq göstərib. Onlar təkcə suvarma işlərini həyata keçirməklə kifayətlənməyib, eyni zamanda şəhər sakinlərinin diqqətini cəlb edərək onları da aksiyaya qoşulmağa təşviq ediblər.

Aksiya çərçivəsində daha bir maraqlı ekoloji təşəbbüs də gerçəkləşdirilib, "Tullantını tingə və ekoçantaya dəyiş" kampaniyası keçirilib. Bu təşəbbüs çərçivəsində iştirakçılar və sakinlər tullantıları ətraf mühitə atmaq əvəzinə ting və ekoçantalara dəyişmək imkanı əldə ediblər. Sakinlər tərəfindən ümumi tutumu 4375 litr olan plastik, 110 litr şüşə tullantı və 180 ədəd işlənmiş batareya təhvil verilib, əvəzində 100 ədəd kızılçam tingi, 65 ədəd ekoçanta verilib.

"SuVar!" aksiyası gənclər üçün həm maarifləndirici, həm də əyləncəli anlarla yadda qalıb. Könüllülər birlik nümayiş etdirərək təbiətə qulluq etməklə yanaşı, birgə fəaliyyətin və ekoloji dəyərlərin təşviqində fəal rol oynayıblar.

Qeyd edək ki, bu aksiya Naxçıvan Muxtar Respublikasının bütün bölgələrini əhatə edəcək və ilin sonunadək davam etdiriləcək.








# Gənclik






◆ Gələcəyə dəstək

**"Uşaqlıqda həkim olmaq arzusunda idim. İnsan böyüdükcə maraq dairəsi genişlənir, həyata baxışı da dəyişir. Macəra axtaran insanlar kimi çətin, mürəkkəb işlər məni özünə daha çox cəlb edirdi... Kimya müəllimimiz də bizimlə çox ciddi məşğul olur, həyatımızın bütün sahələrində kimyanın rolundan danışır, faktlarla fikrini əsaslandırıb, bizi sanki sirli-sehrli, rəngarəng bir dünyaya səyahətə aparırdı. Müəllimimiz danışdıqca o dünyadan ayrılmaq istəmirdim. Ali məktəbə qəbul zamanı qəti qərar verdim ki, kimyaçı olacağam. İxtisas seçimi zamanı qeyd etdiyim üç ixtisasdan biri və birincisi məhz kimya idi. Kimya yaşadığımız dünya var olandan bu günə kimi mövcud olanı araşdıran, inkişaf edən və yaranan hər bir maddə və prosesin mahiyyətini öyrənən bir elmdir. Kimyanı seçdiyim və bu sahənin mütəxəssisi olmağım məni qürurlandırır".**

# "Kimyaçı olmağımla fəxr edirəm"

Həmsöhbətimiz gənc kimyaçı alim Elmir Məqsəd oğlu Babayevdir. Elmir Qarabağın qədim yaşayış məskənlərindən olan Füzuli rayonunda anadan olub. Deyir ki, erməni qəsbkarları yurdumuzu işğal edəndə üç yaşım var idi. Həyat, yaşam uğrunda mübarizə bizi Bakıya gətirdi.

Elmir 2010-cu ildə Bakı Dövlət Universitetinin Kimya fakültəsinin bakalavr pilləsini, 2013-cü ildə isə həmin universitetin fiziki kimya ixtisası üzrə magistr pilləsini fərqlənmə diplomu ilə bitirib.

Gənc alimin dedi ki, Birinci Qarabağ savaşı, məcburi köçkün həyatı uşaqlığımı, gəncliyimi əlimdən aldı: "Hər şeyimiz olsa da, yurdumuz əsirlikdə idi. Elə bilirdim ki, Füzulidən qaçan zaman ürəyimi o torpaqlarda qoyub gəlmişəm. Amma Prezidentimizin qətiyyətinə inanırdım. Bilirdim ki, torpaqlarımız işğaldan azad ediləcək, yenidən o torpaqları yurd, Vətən edəcəyik. Məni qınamayın, 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatları nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası mənə başqa bir yaradıcılıq şövqü bəxş edib. Qələbəmizin memarı olan Ali Baş Komandan İlham Əliyevə bir ömür minnətdarıq, bu Vətən üçün canını qurban verən şəhidlərimizə, qazilərimizə sonsuz minnətdarıq. Təbii ki, yenilənmiş, bütövlənmiş Azərbaycan vətəndaşı, alimi olmaq, xüsusilə beynəlxalq tədbirlərdə iştirak zamanı bizə daha məğrur və ürəklə çıxış etmək üçün imkan yaradıb".

Əmək fəaliyyətinə 2012-ci ildə Kimya Problemləri İnstitutunun Oksidləşmə proseslərinin kinetika və mexanizmi laboratoriyasında kiçik elmi işçi vəzifəsində başlayan Elmir Babayev hazırda ETN Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun "Ekoloji Kataliz" laboratoriyasında aparıcı elmi işçidir. O, eyni zamanda Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetində pedoqoji fəaliyyətlə məşğul olur, kimya və ekologiya sahəsində apardığı tədqiqatlar zamanı qazandığı bilik və bacarıqlarını bakalavr və magistr pillələri üzrə təhsil alan tələbələri ilə bölüşür.



2018-ci ildə "Qaz fazada xlortoluolların heterogen katalitik oksidləşməsi reaksiyalarının kinetikası və mexanizmi" mövzusunda kimya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün elmi işini müdafiə edən gənc alim 2019-cu ildə Almaniyanın Rostok şəhərində yerləşən "Leibniz Institute for Catalysis" İnstitutunda 4 ay müddətində posdoktoral tədqiqat keçib. 2021-ci ildə AMEA-nın akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun elmlər doktorluğu hazırlığı üzrə doktoranturasına qəbul olub. Kimyaçı alim hazırda intensiv şəkildə biokütlənin katalitik zənginləşdirilməsi prosesi üzrə elmi araşdırmalarını davam etdirir.

Elmir Babayev deyir ki, tədqiqat işi olduqca maraqlıdır və proses nəticəsində bioyanacaqların, monomer intermediatları və qida əlavələri kimi müxtəlif qiymətli məhsulların alınması mümkündür. O, elmi tədqiqatları zamanı akademik məsləhətləri ilə ona yol göstərən, ən çətin məqamlarda peşəkar müdaxiləsi ilə kömək əlini uzadan elmi rəhbəri professor Arif Əfəndiyə minnətdardır.

Dosent Elmir Babayev 50 elmi əsərin, o cümlədən 21 məqalənin, 26 konfrans materialı və tezis məruzələrin, eləcə də monoqrafiya, patent və kitabın müəllifidir. Gənc alimin məqalələri SCOPUS və WOS kimi beynəlxalq indeksləndirmə bazalarında yer alan bir sıra nüfuzlu nəşrlərdə - "Catalysis Today", "Journal of Turkish Chemical Society", "Azerbaijan Chemical Journal" və s. kimi jurnallarda dərc olunub.

İctimai işlərdə fəal iştirak edən gənc alim 2021-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının "Gənc Alim və Mütəxəssislər Şurası"nın sədri, "Gənc tədqiqatçı" elmi-praktiki jurnalının baş redaktorudur. Elmir Babayev deyir ki, Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Prezidentin 28 iyul 2022-ci il tarixli fərmanına qədər Gənc Alim və Mütəxəssislər Şurası özündə 42 Elmi-Tədqiqat İnstitutu və təşkilatlarında fəaliyyət göstərən gənc alim və mütəxəssislər şuralarını koordinasiya etməklə ümumilikdə 2500-dən çox üzvü birləşdirirdi. Hazırda hüquqi baxımdan şuraya yalnız AMEA-da fəaliyyət göstərən institut və təşkilatlarda fəaliyyət göstərən gənclər tabedir. Şuranın fəaliyyətinin əsas məqsədi AMEA üzrə fəaliyyət göstərən gənclərin elmi potensialının artırılması, müxtəlif təşəbbüslərin stimullaşdırılması, elmə axının təmin olunması, asudə vaxtlarının səmərəli keçirilməsinin təşkili, gənclər tərəfindən tədqiqatlar nəticəsində edilən elmi yeniliklərin müxtəlif kütləvi informasiya vasitələrində işıqlandırılması, onlara metodiki, informasiya yardımının göstərilməsi və həyata keçirilməsindən ibarətdir.

MAAN (Beynəlxalq Elmlər Akademiyası Assosiasiyası) Gənc Alimlər Şurası İdarə Heyətinin üzvü olan gənc alim deyir ki, bu illərdə komandamız ilə birgə bir sıra uğurlu layihələrə imza atmışıq. Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunan Bakı və Gəncədə baş tutan və 700-dən çox gəncin iştirakı ilə keçirilmiş 4 günlük respublika konfransı, 2024-cü ildə Şuşa şəhərində İslam Ölkələrinin Gənclərinin iştirakı ilə "Şuşa Gənclər Festivalı" çərçivəsində gənc alimlərin "SİNA" beynəlxalq forumunu və bu ilin may ayında faşizm üzərində qələbənin 80 illiyinə həsr olunacaq respublika konfransları çox sayda gənclər üçün öz tədqiqatlarını təqdim edə bilməsi məqsədilə platforma rolunu oynayır.

Perspektiv planlarından danışan E.Babayevin sözlərinə görə, 2025-ci il onlar üçün uğurlu bir ildir: "Bu il, bildiyiniz kimi, "Konstitusiya və Suverenlik İli"dir. Eyni zamanda ölkəmizin elm məbədi olan Milli Elmlər Akademiyasının 80 illiyi qeyd olunacaq. Milli Elmlər Akademiyası özünün akademik heyəti və yeni elmi nəsilləri ilə birlikdə Azərbaycan elminin əsas elmi mərkəzlərindən biri kimi fəaliyyətini uğurla davam etdirməkdə, müstəqil dövlətçiliyin inkişafı ilə əlaqədar çoxcəhətli funksiyaları həyata keçirməkdədir. AMEA fundamental elmi tədqiqatların beşiyi, tətbiqi elmlərin hərəkətverici qüvvəsidir. Bu il çalışdığım Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun da 90 illik yubileyi qeyd olunacaq. İnstitutumuzda görkəmli kimyaçı alimlərin işləyib yaratdığı bu elm məbədinin ənənələri bu gün də uğurla davam edir.

Sonda onu qeyd edək ki, gənc alim Elmir Babayev 2016-cı ildə Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun təşkil etdiyi "Murtuza Nağıyev" mükafatı, 2019-cu ildə Həmkarlar Konfederasiyası tərəfindən "İlin peşəkar gənci", 2022-ci ildə isə Gənclər Günü münasibətilə Gənclər və İdman Nazirliyinin "Gənclər mükafatı"na layiq görülmüşdür.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

◆ Uğura imza atanlar

# Gənc muğam ifaçısı

**Azərbaycan musiqi mədəniyyətinin işıqlı gələcəyinin təminatçısı olan gənclərimizdən biri də "İlin Gənci" mükafatına layiq görülmüş Yusif Cəfərbəylidir.**



Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində mövcud ənənələr zəminində daha da təkmilləşdirilir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən gənclərin istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində həyata keçirilən layihələr yetişməkdə olan nəslin gələcəyinə etibarlı zəmin yaradır. Eləcə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə xaricdə və ölkəmizdə reallaşan layihələr Azərbaycanın uğurlarının təbliğində, gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynayır. Bu ali diqqət və qayğını daim öz üzərində hiss edən Azərbaycan gəncliyi göstərilən etimadı layiqincə doğrultmağa çalışır. Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil dövlətimiz naminə bütün güclərini səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, öz siyasətində onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər.



Belə gənclərimizdən biri də, qeyd etdiyimiz kimi, Gənclər Günü münasibətilə "İlin Gənci" mükafatına layiq görülmüş Yusif Cəfərbəylidir. Xalqımızın milli-mədəni irsini yaşadanlardan və inkişaf etdirənlərdən biri olan Yusif hələ orta məktəb illərindən musiqiyə, muğam sənətinə böyük maraq göstərib. Bu zaman həm də Bakı şəhəri, Niyazi adına 22 saylı Musiqi məktəbinin əvvəlcə tar, sonra xanəndəlik siniflərində oxuyub. Məktəb özfəaliyyət dərnəyinin üzvü kimi tədbirlərdə və bayram şənliklərində ifaları sevilərək qarşılanıb. O illərin ən yaddaqalan anlarından biri də Yusif musiqi məktəbinin son sinfində oxuyarkən respublika Elm və Təhsil Nazirliyinin və Estetik Tərbiyə üzrə Respublika Tədris-Metodik Mərkəzinin (2016) birgə təşkilatçılığı ilə Bakı və Gəncə şəhərlərində klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi və mütəfəkkiri Nizami Gəncəvinin 875 illik yubileyinə həsr olunmuş baxış-müsabiqədə "Nizami yaradıcılığı və musiqi" nominasiyasına "N.Gəncəvinin sözlərinə ən yaxşı muğam ifası"na görə layiq görülməsidir.

Yusif orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadiyyat fakültəsində dünya iqtisadiyyatı ixtisası üzrə bakalavr təhsili almışdır. Universitetin ictimai-mədəni tədbirlərinin iştirakçısı, habelə təhsil ocağının nəzdində fəaliyyət göstərən İqtisadçı Vətənpərvərlər Təşkilatının sədri olmuşdur. O, tələbə-gənclərin boş vaxtlarının səmərəli keçməsində və onların əsl vətənpərvər kimi cəmiyyətə inteqrasiya olunmasında əlindən gələni etmişdir. Universiteti müvəffəqiyyətlə bitirən Yusif Cəfərbəyli daha sonra Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində magistratura təhsili almışdır.

O, ali təhsilini başa vurduqdan sonra 2023-2024-cü illərdə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Əslən laçınlı olan Yusif sıravi sərhədçi əsgər olaraq təlim məşqlərində komandirlərinin tapşırıqlarını vaxtında və yüksək səviyyədə yerinə yetirməklə yanaşı, 2024-cü il ərzində Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə həyata keçirilən "Poliqon" gənclərin hərbi-vətənpərvərlik düşərgələrində bədii proqramların təşkilatçısı olmuşdur.

Vətən borcunu ləyaqətlə yerinə yetirdikdən sonra Y.Cəfərbəyli ölkəmizdə geniş vüsət almış könüllülük hərəkatının da fəal iştirakçısı olub. Təsadüfi deyil ki, Yusif Cəfərbəyli 2019-cu il martın 27-dən mayın 27-dək Bakı şəhər İcra Hakimiyyətində İctimai-siyasi, humanitar məsələlər və dini qurumlarla iş şöbəsində könüllü olaraq təcrübə proqramında iştirak edərək şəhadətnamə ilə təltif edilmişdir. Daha sonra Azərbaycan Respublikası Müdafiə Nazirliyi və UNEC-in birgə təşkilatçılığı ilə "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi altında keçirilən Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasının təşkilində, Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik ruhunun yüksəldilməsində göstərdiyi xidmətlərə görə respublika Müdafiə Nazirliyinin mükafatına layiq görülmüşdür.

Ölkəmizin ictimai-siyasi həyatında gənclik eşqi ilə qurub-yaratmağa çalışan Yusif respublika Gənclər və İdman Nazirliyinin dəstəyi ilə 2019-cu ildə "Tələbə Baharı" tələbələrin XII Ümumrespublika yaradıcılıq festivalında "Muğam" musiqi nominasiyasında II yer, 2020-ci ildə "Tələbə Baharı" tələbələrin XIII Ümumrespublika yaradıcılıq festivalında "Muğam" musiqi nominasiyasında I yerə layiq görülmüşdür.

Prezident İlham Əliyevin sərəncamı ilə 2019-cu ilin "Nəsimi ili" elan olunması münasibətilə UNEC Yaradıcılıq Mərkəzi ilə birgə Türkiyənin paytaxtı Ankara şəhərində Nəsimiyə həsr olunmuş tamaşada xanəndə obrazında çıxış etmiş və Nəsiminin qəzəllərini muğam üstə ifa etmişdir. Yüksəksəviyyəli ifalara görə Azərbaycanın Türkiyədəki səfirliyi tərəfindən təşəkkürnamə və üzərində Nəsiminin rəsmi olan bürünc xatirə pul nişanı ilə təltif olunmuşdur. Bundan başqa, Gənclər və İdman Nazirliyinin, Heydər Əliyev Mərkəzinin birgə layihəsi olan "Heydər Əliyev siyasi məktəbini öyrənirik - 2020" Gənc Liderlər Proqramının icrasında fəallığı ilə seçilmişdir. O, gənc muğam ifaçısı kimi 2021-ci il oktyabrın üçüncü ongünlüyündə Azərbaycan Respublikasının Gənclər Fondu, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu və Türkiyə Gənclik Vəqfinin (TÜGVA) birgə təşkilatçılığı ilə Türkiyənin Qaziantep şəhərində keçirilən "Beynəlxalq Zəfər Düşərgəsi"nin iştirakçısı olmuşdur.

Respublikanın Əməkdar artisti, muğam ustası Təyyar Bayramovun rəhbərliyi ilə muğam sənətinin ən incə məqamlarını dərindən öyrənməklə sevdiyi sənətə böyük məsuliyyət və istək hissi ilə yanaşan gənc xanəndə Yusif Cəfərbəyli 2021-2023-cü illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kulturologiya fakültəsinin Menecment (musiqi sahəsi üzrə) ixtisası üzrə magistr təhsili alaraq, "Azərbaycan milli musiqi potensialının tanınmasında müasir menecment metodlarından istifadə" mövzusunda magistr dissertasiyası işini müdafiə etmişdir.

İstedadla zəhmət bir-birini tamamlayanda uğurlar insana daha yaxın olur. Belə bir uğura gənc muğam ifaçısı Yusif Cəfərbəyli Bakıda "Xurşidbanu Natəvanın 190 illiyinə həsr edilmiş "Milli Musiqi" müsabiqəsi" layihəsi ilə "İdeyanı Reallaşdır 2022" Gənclərin Fərdi Layihələri üzrə Qrant müsabiqəsinin qalibi kimi nail olmuşdur.

Gənc müğənni ötən il dekabr ayının əvvəllərində musiqi mədəniyyətimizin beşiyi olan Şuşa şəhərində Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu (ICYF) və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birgə həyata keçirdiyi "Şuşa - İslam Əməkdaşlıq Təşkilatının Gənclər Paytaxtı 2024" Beynəlxalq Proqramının bağlanış mərasimində muğam kompozisiyası ilə çıxış etmişdir. Bu möhtəşəm mərasimdə gənc xanəndə Yusif Cəfərbəylinin ifa etdiyi "Qarabağ şikəstəsi" muğamı və "Sarı gəlin" xalq mahnısı dinləyicilər, xüsusilə xarici ölkələrdən gəlmiş qonaqlar tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

## Azərbaycan könüllülərin Qazaxıstanda keçirilən beynəlxalq konfransında təmsil olunur



**Qazaxıstanın Taraz şəhərində Qazaxıstan, Azərbaycan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistandan 70 iştirakçını birləşdirən "Qlobal ünsiyyət dairəsi" adlı beynəlxalq könüllülər konfransı keçirilir.**

AZƏRTAC Qazaxıstan Respublikasının Mədəniyyət və İnformasiya Nazirliyinin Mətbuat xidmətinə istinadla xəbər verir ki, tədbir çərçivəsində iştirakçılar könüllülük sahəsində qabaqcıl təcrübələri bölüşür, təcrübə mübadiləsi aparır, beynəlxalq əməkdaşlığın gücləndirilməsi yollarını müzakirə edirlər.

Bundan əlavə, könüllülər Dayanıqlı İnkişaf naminə Beynəlxalq Könüllülər İlinin həyata keçirilməsinə yönəlmiş bir sıra təşəbbüslər irəli sürüblər.

Konfrans Qazaxıstan Respublikasının Mədəniyyət və İnformasiya Nazirliyinin dəstəyi ilə Könüllülərin Milli Cəbhəsi tərəfindən təşkil olunub.

## Gənclər Kitabxanasında "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar silsilə materiallar hazırlanır

**Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü münasibətilə 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" kimi qeyd edilir.**

Bu məqsədlə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında "Konstitusiya və Suverenlik İli" adlı elektron resurslar bazası və eyniadlı biblioqrafik icmal hazırlanıb.




Kitabxanadan bildirilib ki, biblioqrafik icmalda Azərbaycan dövlətçilik tarixindən, şanlı Zəfər tarixindən bəhs edən və Azərbaycan, rus dillərində dərc edilən "Heydər Əliyev və müstəqil Azərbaycanın ilk Konstitusiyası", "Heydər Əliyev: dünya sivilizasiyasında elit şəxsiyyət", "Azərbaycan 1995: Qarşıdurmadan milli həmrəyliyə", "Möhtəşəm 20 il: 2003-2023", "Azərbaycan tarixinin yeni dövrünün başlanğıcı: Xankəndi zəfəri", "Azərbaycan Respublikasının konstitusion inkişafı", "Hüquqi dövlət və konstitusiya", "Azərbaycan Respublikası Konstitusiyasında təhsil və tərbiyə məsələləri" kimi 60-dan çox kitabın biblioqrafik təsviri, qısa annotasiyası və dövrü mətbuat nümunələri sərgilənir.

"Konstitusiya və Suverenlik İli" ilə əlaqədar kitabxananın rəsmi saytında elektron resursların bazası yaradılıb. Bazada sözügedən mövzuda "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Yeni Azərbaycan", "525-ci qəzet", "Azərbaycan müəllimi", "Şərq", "Ədəbiyyat qəzeti", "Bakı xəbər" kimi dövrü mətbuat nümunələrinin internet portallarında dərc edilən 30-dan çox material toplanıb. İstifadəçilər işlək keçidlər vasitəsilə məqalələrin tam mətninə baxmaq imkanına malikdirlər.

  

# Mədəniyyət

  

**Ədəbiyyat xadimləri**

# "Çətin yollar boyunca..."

**O, istər yazıçı, dramaturq, istərsə də jurnalist kimi qələmə aldığı yazılarında cəmiyyətin diqqətini vacib məsələlərə yönəltməyə müvəffəq olurdu. Əsərlərində Azərbaycan qadınlarının problemlərinə xüsusilə geniş yer verirdi. Onun hekayələrini, povestlərini, dram əsərlərini oxuyan neçə-neçə qadına elə gəlirdi ki, Xalidə Hasilova məhz onun həyatını, taleyini, çəkdiyi əziyyətləri, ağrı-acıları, keçirdiyi hiss və həyəcanları təsvir edib.**

Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutan yazıçı Xalidə Hasilova 1920-ci il aprelin 19-da Zaqatalada dünyaya göz açıb. Oxuyub öyrənməyə çox həvəsli olduğunu ilk təhsil illərindən büruzə verib. Orta məktəbdə şagird olanda da, Zaqatala Pedaqoji Texnikumunun tələbəsi olanda da adı dərslərini yaxşı oxuyanlar sırasında çəkilirdi.

Sonralar xatirələrində lap uşaqlıqdan yaradıcılığa meyil göstərdiyini yazacaqdı. Əvvəllər şeirlər yazan Xalidə Hasilova sonralar nəsr əsərləri qələmə alacaqdı...

Əmək fəaliyyətinə çox gənc yaşlarında başlayan Xalidə Hasilova Zaqatalanın Qımır kəndində müəllim işlədi. Hər gün sinif otağına daxil olmaq, ona maraqla, inamla baxan şagirdlərinə savad öyrətmək könlüncə idi. Ancaq o illər artıq pünhan duyğularını qələmə pıçıldamağa, ruhunun duyduğu gözəllikləri vərəqlərə köçürməyə qəlbində susmayan bir çağırış vardı. Xalidə Hasilova bu çağırışa mütləq səs verməli, onun ardınca düşüb ədəbiyyatın əsrarəngiz aləminə yol getməliydi.

O vaxtlar isə hələ ədəbi yaradıcılığın dərinliklərinə, incəliklərinə bələd deyildi. Qələmə aldıqları gənc bir qızın zərif düşüncələri, kövrək duyğuları idi.

Bədii yaradıcılığa meyli, marağı qədər ali təhsil almaq istəyi də güclü idi. Xalidə Hasilova aşıb-daşan arzularını xəyallardan gerçəkliyə çevirmək üçün həvəslə, ümidlə yola çıxdı. O, 1939-cu ildə Leninqrad şəhərinə (indiki Sankt-Peterburq) getdi. Leninqrad Dövlət Universitetinin Filologiya fakültəsinə daxil oldu. Ali məktəbin tələbəsi adını qazananda özünü dünyanın xoşbəxti sanırdı. Artıq arzuları da, xəyalları da daha əlçatan görünürdü.

Amma müharibə ona bu sevinci doyunca yaşamağa imkan vermədi. 1941-ci ildə Böyük Vətən müharibəsi başladı. Xalidə Hasilova Leninqraddan ayrılmalı oldu, Bakıya gəldi. Təhsilini Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsində davam etdirdi. Universiteti bitirdikdən sonra Zaqatalaya döndü. Pedaqoji fəaliyyətini davam etdirdi.

Aradan uzun illər keçməmişdi. Xalidə Hasilova yenə gənc idi. Ancaq müəllimlik fəaliyyətinin ilk vaxtlarındakı Xalidə də deyildi. Həyatın çətin sınaqlarını, sərt üzünü, müharibənin ağrı-acılarını görmüşdü. Xatirələrində iz salmaqda olan, gördüyü, eşitdiyi hadisələri əsərlərində təsvir etmək düşüncəsi ona rahatlıq vermirdi. Ötən əsrin 40-cı illərində Xalidə Hasilova ədəbiyyatda öz yoluna belə başladı.

İlk kitabı "Kiçik hekayələr" adı ilə 1950-ci ildə çapdan çıxdı. Həm uşaqlar, həm də böyüklər üçün yazdığı nəsr əsərləri maraqla qarşılandı, onu yazıçı kimi tanıtdı və sevdirdi. Xalidə Hasilova məhsuldar yazıçı idi. Müxtəlif illərdə "İlk məktub", "Lalənin kitabı", "İki yoldaş", "Onun taleyi", "Məhəbbət olmayanda", "Çətin yollar boyunca", "Atlas yarpaqları", "Sular durulur", "Ulduzlu papaq", "Rəna evlərini axtarır", "Dəniz çıraqları", "Yaşıl ayna", "Çılçıraq", "Kaman", "Xatirə", "Ana fəryadı" və başqa kitabları nəşr edildi.

Xalidə Hasilovanın dram əsərlərinə teatr rejissorları mütəmadi müraciət edirdilər. "Bir sahilin adamları", "Nəğməli Könül", "Hamı doğmadır mənə" və başqa pyesləri müxtəlif teatrların səhnələrində uğurla tamaşaya qoyuldu. O həm hekayə, povest və romanlarında, həm də pyeslərində cəmiyyəti düşündürən məsələlərdən, əhəmiyyətli hadisələrdən bəhs edirdi.

İstedadlı yazıçı, dramaturq olmaqla bərabər, tərcüməçi kimi də ədəbiyyatsevərlərin rəğbətini qazandı. Tərcümə etdiyi əsərlərlə kiçik yaşlı oxucuları dünya xalqlarının ədəbiyyatı, mədəniyyəti ilə tanış edirdi. Xalidə Hasilova türkiyəli məşhur yazıçı Əziz Nesinin uşaqlar üçün yazdığı hekayələri "İndiki uşaqlar möcüzədir" adlı kitabda balaca oxuculara təqdim etdi. Onun N.Nosov, N.Tixonov və başqa müəlliflərdən etdiyi tərcümələr də maraqla qarşılandı.

Xalidə Hasilova uzun illər mətbuat sahəsində də fəaliyyət göstərdi. O, maraqlı, aktual mövzulu məqalələrlə mətbuatda mütəmadi çıxış edən istedadlı və peşəkar jurnalist kimi tanındı. Dövrünün ən çox oxucu auditoriyasına malik, sevilən jurnallarından olan "Göyərçin" jurnalında baş redaktor, "Azərbaycan qadını" jurnalında ədəbi işçi və baş redaktor vəzifələrində çalışdı. Redaktor işlədiyi müddətdə neçə-neçə istedadlı qələm sahibi onun köməyi və dəstəyi ilə üzə çıxdı, oxucuların diqqətini cəlb edən məqalələri işıq üzü gördü.



Xalidə Hasilova həm də bir sıra nəzəri məqalələrin müəllifidir. O, "Uşaq ədəbiyyatında ədəbi tənqid haqqında", "Gözəl duyğular", "Uşaqlara yüksək keyfiyyətli əsərlər verək", "Ədəbiyyat və tərbiyə" və digər məqalələrində uşaq ədəbiyyatı problemlərini işıqlandırmışdır.

Respublikamızın ictimai-siyasi həyatında fəal iştirak edən Xalidə Hasilova Azərbaycan Qadınlar Şurası Rəyasət Heyətinin üzvü, Bakı Şəhər Sovetinin deputatı, Qadınların əməyi və analığı mühafizə komissiyasının sədri oldu. O, Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanları, "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı" ordenləri ilə mükafatlandırıldı.

Yazıçı, dramaturq, tərcüməçi, redaktor, ictimaiyyətçi Xalidə Hasilova 1996-cı il dekabrın 5-də vəfat etdi.

İllər ötsə də, onun qəhrəmanları oxucuya, tamaşaçıya bu gün də doğmadır. Çünki yazıçı, dramaturq Xalidə Hasilovanın bütün əsərlərində insanları başa düşmək, sevmək arzusu, istəyi var. O, bu hisslərlə "Hamı doğmadır mənə", "İnsan ömrü bir nəğmədir" dedi. Yorulmadan, usanmadan, ruhdan düşmədən həyatın sınaqlarından keçdi, "Çətin yollar boyunca..." əbədiyyətə üz tutdu.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

**Teatr rəssamlarımız**

# Fırçası ilə səhnəni həyata çevirirdi

**Məşhur italyan rəssamı Koizani deyirdi: "Dekorasiya göz üçün musiqidir". Haqqında söhbət açacağımız rəssam həyatını teatr rəssamlığı sənətinə həsr etmiş, ömürboyu yüksək yaradıcılıq əzmi, rəssam təxəyyülü ilə neçə-neçə operanın bədii biçimdə qavranılmasına, bədii estetik zövq mənbəyinə çevrilməsinə əmək sərf etmiş və özünün zəngin dünyası ilə Azərbaycan təsviri sənət tarixində məxsusi yer qazanmışdır. Söhbət 100 yaşı tamam olan Azərbaycanın Əməkdar incəsənət xadimi Əyyub Fətəliyevdən gedir.**

Əyyub Cəfər oğlu Fətəliyev 1925-ci ildə Azərbaycanın əzəli torpaqlarından olan İrəvan şəhərində dünyaya göz açıb. Onun rəssamlığa marağı erkən yaşlarından başlayıb. Əvvəlcə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu (1944) bitirmiş, bir müddət işlədikdən sonra ali rəssamlıq təhsili almaq üçün Moskva şəhərinə yollanmış və V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutuna qəbul olunmuşdur.



Ə.Fətəliyev 1952-ci ildə Azərbaycanın tanınmış bəstəkarı Soltan Hacıbəyovun "Gülşən" baletinin səhnə tərtibatı mövzusunda diplom işini uğurla müdafiə edərək institutun Teatr rəssamlığı fakültəsini müvəffəqiyyətlə bitirmişdir. 1952-1955-ci illərdə Moskvada yerləşən və o zaman sovetlər məkanında ən nüfuzlu teatr hesab olunan SSRİ Dövlət Akademik Böyük Teatrında əvvəl təcrübəçi rəssam, sonra isə baş rəssam assistenti kimi çalışmışdır. Gənc rəssam Böyük Teatrda rejissorlar B.Pokrovski, L.Baratov, teatrın baş rəssamı Vadim Rindinin rəhbərliyi ilə çox böyük yaradıcılıq təcrübəsi keçərək, teatr sənətinin ən incə mətləblərinə yiyələnmişdir. Ə.Fətəliyev üç il müddətində baş rəssamın assistenti kimi teatrda C.Verdinin "Traviata", N.A.Rimski-Korsakovun "Qar qız", D.Kabalevskinin "Nikita Verşinin", A.Rubinşteynin "Demon" tamaşalarının bədii tərtibatının hazırlanmasında yaxından iştirak etmişdir. Təbii ki, bu cür peşəkar təcrübə və işbirlyi



gənc teatr rəssamının yaradıcılığının inkişafı və püxtələşməsində ələdüşməz fürsət idi.

1955-ci ildə rəssam doğma Bakıya qayıdaraq ömrünün sonuna kimi Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında çalışmışdır. O, teatrda əvvəlcə quruluşçu rəssam, 1957-ci ildən isə teatrın baş rəssamı kimi bir çox məşhur opera tamaşasına bədii tərtibat vermiş və səhnə əsərlərinin tamaşaçılar tərəfindən daha dərindən qavranılması və bədii zövq alması üçün yüksək yaradıcılıq əzmi ilə fəaliyyət göstərmişdir.

Ə.Fətəliyev bədii yaradıcılıqla yanaşı, ölkəmizdə ixtisaslı teatr rəssamı kadrlarının hazırlanmasına da əmək sərf etmiş, 20 ildən artıq Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Rəssamın uzunmüddətli uğurlu bədii və pedaqoji yaradıcılıq fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, 1964-cü ildə Azərbaycanın Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Ə.Fətəliyevin Akademik Opera və Balet Tearında ilk müstəqil işi gürcü bəstəkarı Zaxari Paliaşvilinin "Daisi" (1956, quruluşçu rejissor Şəmsi Bədəlbəyli) operası olmuşdur. Rəssam əsərin ideya qayəsinin daha mükəmməl şəkillədirilməsi və açılmasına xidmət edən uğurlu səhnə tərtibatı hazırlamışdır. İlk işinin uğurlu



alınmasından fərəhlənən rəssam bundan sonra özünün peşəkar yaradıcılıq təcrübəsinə əsaslanaraq bir çox tamaşanın bədii tərtibatını hər bir əsərin öz ruhuna uyğun və tamaşanın ideya qayəsinə xələl gətirmədən, əsl peşəkarlıqla və yüksək zövqlə həyata keçirmişdir.

Ə.Fətəliyevin bədii tərtibat və quruluşunu hazırladığı opera tamaşalarına Cahangir Cahangirovun "Azad" (1957), "Xanəndənin taleyi" (1979), Fikrət Əmirovun "Sevil" (1959), Üzeyir bəy Hacıbəyovun "Koroğlu" (1959, 1975, xalq rəssamı Tahir Salahovla birgə), Süleyman Ələsgərovun "Bahadur və Sona" (1961), Cüzeppe Verdinin "Aida" (1961), "Traviata" (1964), "Otello" (1982), Aleksandr Borodinin "Knyaz İqor" (1964, 1975), Modest Musorqskinin "Boris Qodunov" (1966), Vasif Adıgözəlovun "Ölülər" (1967), Pyotr Çaykovsknin "Qaratoxmaq qadın" (1968), Qara Qarayevin və Cahangir Hacıyevin "Vətən" (1973), Zakir Bağırovun "Aygün" (1973) və başqalarını qeyd etmək olar.

1959-cu ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə "Koroğ-



lu" və "Sevil" operalarının səhnə tərtibatı rəssamın yüksək peşəkarlığı, dərin bədii duyma qabiliyyəti və gərgin yaradıcılıq axtarışları hesabına ərsəyə gəlmişdir. Rəssamın uğurlu yaradıcılıq fəaliyyəti o zaman tamaşaçılar və mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir.

Tanınmış incəsənət xadimləri, tənqidçi, sənətşünas və mütəxəssislər Ə.Fətəliyevin yaradıcılığını yüksək qiymətləndirmişlər. "Azad" tamaşasını hazırlayanda bədii şurada opera sənətimizin korifeylərindən olan, Xalq artisti Bülbül rəssamın yaradıcı əməyindən danışarkən "Mən teatrda neçə illərdir işləyirəm, teatr səhnəsinin belə dərinliyini görməmişəm" demişdir. Həmçinin xalq yazıçısı Mirzə İbrahimov "Azad" tamaşasına münasibətini bildirərkən rəssamın yaradıcılığını xüsusi vurğulayaraq, bunu "gücləndirici vasitə", "rəssam ustalığı" kimi qeyd etmişdir. Sənətşünaslıq doktoru Nurəddin Həbibov isə rəssamın yaradıcılığı barədə yazırdı: "Ə.Fətəliyev üslub və bədii obrazlar cəhətdən bir-birindən fərqlənən tamaşalar üçün müxtəlif təsvir vasitələri tapa bilir, səhnə meydançasından, hadisələrin ritminə uy-



ğun yığcam və ahəngdar formalardan, rənglərdən səmərəli istifadə edir, səhnə mühitinin şərti və realist səpkidə baxılmasına səy göstərir".

Sevilən rəssam daim yüksək sənət amallarına sadiq qalaraq, əsl coşqu ilə opera və balet əsərlərinin bədii təsir qüvvəsinə və yüksək estetik meyarlarına uyğun bir-birindən gözəl bədii səhnə tərtibatları hazırlamışdır. Bu il həm də dünyasını dəyişməsindən 25 il ötən məşhur teatr rəssamı Əyyub Fətəliyevin bədii yaradıcılıq fəaliyyəti Azərbaycan təsviri sənət tarixində əbədi qalacaqdır.

***Əsəd QULİYEV,***
***Azərbaycan Rəssamlar İttifaqının üzvü, sənətşünas***

# "Nəriman Nərimanov - 155" adlı geniş kitab sərgisi açılıb

**Milli Kitabxanada görkəmli ictimai-siyasi və dövlət xadimi, maarifçi yazıçı-publisist, həkim Nəriman Nərimanovun anadan olmasının 155 illiyi münasibətlə "Nəriman Nərimanov - 155" adlı geniş kitab sərgisi açılıb. Milli Kitabxanadan bildirilib ki, bir həftə boyunca davam edəcək sərgidə Nəriman Nərimanovun əsərləri, həyat və yaradıcılığı, ictimai-siyasi fəaliyyəti haqqında Azərbaycan və xarici dillərdə ədəbiyyatlar nümayiş olunur.**



Xatırladaq ki, böyük mütəfəkkir Nəriman Nərimanov 1870-ci ildə Tiflisdə anadan olub, həmin şəhərdə altısinifli ruhani məktəbində təhsil alıb. 1890-cı ildə Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra Tiflis quberniyası Borçalı qəzasının Qızılhacılı kəndinə müəllim təyin olunub. Daha sonra Bakıya gələn N.Nərimanov 1891-ci ildə müəllimlik fəaliyyətinə başlayıb, 3 il sonra burada türk-müsəlman əhalisi üçün ilk xalq qiraətxanasını təşkil edib.

Mütəmadi olaraq publisistik məqalələrlə çıxış edən Nəriman Nərimanov Azərbaycan və rus dillərini öyrənənlər üçün dərsliklər yazıb, həmçinin "Türk-Azərbaycan dilinin müxtəsər sərf nəhvi" adlı qiymətli dərs vəsaiti tərtib edib. Onun "Nadanlıq", "Dilin bəlası", yaxud "Şamdan bəy", "Bahadır və Sona", "Nadir şah" əsərləri bütün Azərbaycanda geniş yayılıb.

Əsərlərində dövrün sosial-psixoloji problemlərini qabarıq şəkildə göstərən Nərimanovun elmi-publisistik fəaliyyəti türk-müsəlman əhalisinin milli oyanışına xidmət edib.

# Üzeyir bəy Hacıbəylinin 140 illik yubileyi çərçivəsində növbəti tədbir keçirilib

**Üzeyir bəy Hacıbəylinin ev-muzeyində dahi bəstəkarın 140 illik yubileyinə həsr olunmuş növbəti tədbir keçirilib. Tədbiri giriş sözü ilə ev-muzeyin direktoru, Azərbaycanın Xalq artisti, bəstəkar Sərdar Fərəcov açıb.**



O, çıxışında Prezident İlham Əliyevin sərəncamı ilə keçirilən yubiley tədbirlərinin əhəmiyyətini vurğulayıb və Üzeyir bəy Hacıbəylinin Azərbaycan və dünya musiqi tarixində müstəsna yerini qeyd edib, onun zəngin yaradıcılıq irsinin qorunub-saxlanmasının vacibliyinə diqqət yönəldib.

Xor kollektivinin bədii rəhbəri, Əməkdar müəllim Təranə Yusifovanın rəhbərliyi ilə təqdim olunan musiqi proqramı çərçivəsində Beynəlxalq Muğam Mərkəzində fəaliyyət göstərən və Cahangir Cahangirovun adını daşıyan xor kollektivi çıxış edib. "Leyli və Məcnun" operasından bəstələr, "O olmasın, bu olsun" operettasından duetlər, "Arşın mal alan" operettasından əsərlər, xalq mahnıları və bəstəkarın digər əsərləri səsləndirilib.

Tədbirin sonunda sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı Üzeyir bəy Hacıbəylinin yaradıcılığı, xor kollektivinin fəaliyyəti haqqında fikirlərini bölüşüb. Muzeyin ekspozisiya və kütləvi tədbirlər şöbəsinin müdiri Vəfa Bağırzadə xor kollektivinə və onun rəhbəri Təranə Yusifovaya muzey adından təşəkkür məktubu təqdim edib.

# Azərbaycanlı rejissorun yeni filminin dünya premyerası Almaniyada olacaq

**"Ultra Production" və "Cinex Production" şirkətlərinin birgə istehsalı olan, rejissor Elvin Adıgözəlin "Mənim sehrli dünyam" tammetrajlı bədii filminin dünya premyerası Almaniyanın nüfuzlu "goEast" kino festivalında aprelin 28-də nümayiş olunacaq. Aprelin 23-dən 29-dək Almaniyanın Visbaden şəhərində keçiriləcək "goEast" festivalı əsas Mərkəzi və Şərqi Avropa kinofilmlərinə fokuslanır və hər il festival çərçivəsində təqribən 110 bədii, sənədli, qısametrajlı filmlər və VR işləri nümayiş etdirilir. Eyni zamanda festival Şərq və Qərb arasında dialoq forumu funksiyasını yerinə yetirir.**



Azərbaycanlı rejissorun ekran əsəri bu il 25 illiyini qeyd edəcək festivalın 14 filmdən ibarət əsas müsabiqə proqramına daxil edilib.

Elvin Adıgözəlin həm də ssenari müəllifi olduğu "Mənim sehrli dünyam" filmi istehsalat dövründə "When East Meets West" kinoforumunun First Cut Lab və First Cut Plus proqramlarında iştirak edib və TRT (Türkiyə) televiziya kanalının mükafatına layiq görülüb.

Film rayonların birində kənd ansamblında çıxış edən və Bakıda musiqili televiziya şousunda iştirak etməyi arzulayan iki uşaqlıq dostu - Babək və Sahilin hekayəsindən bəhs edir. Televiziya şousuna aparan yol onların dostluqlarını sınağa çəkir və ansamblın üzvlərinin həyatı əbədi olaraq dəyişir.

Filmdə aktyorlar Cahangir Məlikov, Kamil Nazim, Kəmalə İsrafilova, Yusif Dadaşov, Ramiq Nəsirov, Xalıq Bəkirov, Zülfiyyə Nəzir Məmmədova, Zemfira Abdülsəmədova, İlqar Dadaşov, Mahir Mirişli, İskra Tarrant, Aygül Sadıhova və digərləri rol alıb. Filmin prodüserləri Emil Nəcəfov ("Ultra Production") və Mariya İbrahimovadır ("Cinex Production"); co-prodüserləri Olqa Matat, Sergey Konnov və Vlad Dudkodur (Evos Film, Ukrayna).

"Mənim sehrli dünyam" Azərbaycan rejissoru Elvin Adıgözəlin dördüncü tammetrajlı filmidir. Bundan əvvəl o, "Buqələmun", "Qaranlıqdan reportaj", "Biləsuvar" kimi uğurlu filmlərə imza atıb.

*Bazar günü etüdü*



# Ulduzlardan süzülən gözəllik

*Təbiətin qoynunda hara baxırsan gözəllikdi, hansı səmtə boylanırsan bənzərsizlikdi. Gör Tanrı dünyamızı insanlar üçün necə də gözəl yaradıb. Onun təkcə dağları, dərələri, çölləri, düzləri, gölləri, dənizləri və okeanları deyil, gecəsi də gözəldir, gündüzü də. Gündüzü gecəsindən, gecəsi də gündüzündən gözəldir.*

*Amma bir şey təəssüf doğurur ki, dünya binə olandan əsl aşiqlər kimi gecə gündüzün, gündüz də gecənin həsrətini çəkir. Yüz illər, min illərdir ki, bu, belədir. Nə qədər çalışıb, cəhd göstərsələr də, bir-birlərini görə bilmirlər. Səhər gözünü açıb gecəyə baxmaq istəyəndə o, qəflətən görünməz olur, gecə gözünü açıb gündüzün tamaşasına dayanmaq, onunla mehribancasına danışmaq, pıçıldaşmaq istəyəndə isə səhər gözə dəymir. Beləcə, gecəylə gündüz bir-birini görmək ümidiylə, həsrətiylə hər gün dünyaya boylanırlar. Amma görüşə bilmirlər, qovuşa bilmirlər, həsrət odunda yanıb qovrulurlar, əsib-kəsməyən küləklərdə sovrulurlar.*

*Günəş üfüqə qırmızı rəng çəkə-çəkə günümüzün, gündüzümüzün üstünə işıq salır, yaraşıq verir, onu daha da gözəlləşdirir. Günəşin işığında, gözqamaşdırıcı şəfəqləri altında dünyamız bənzərsiz rənglərə bürünür. Bu rənglərin içində yer üzü də, göy üzü də daha təmiz, daha əsrarəngiz görünür. Bəlkə də elə buna görə həyat olduğundan da, göründüyündən də şirindir. Şirindir ki, qolları arasına alıb buraxmaq istəməyən bu gözəlliyə baxmaqdan, qoynunda yaşamaqdan doymuruq. Bu fikri özümüzə, sözümüzə yaxın qoymuruq. Heç kim könüllü olaraq dünyadan əl götürmür, ömür qapısını o üzdən bağlayıb getmək istəmir. Bir günü də, bir dəqiqəni də, hətta bir anı belə qənimət bilir, danışır, deyir, gülür. Dünyada yaşadıqca yaşamaq, qaldıqca qalmaq istəyir.*

*Dünyamızın gündüzünə Günəş işıq verir, yaraşıq verir. Gecələrinə isə Ay və ulduzlar nur çiləyir, gözəllik ələyir. Nədəndirsə, nə sirdirsə, nə möcüzədirsə gecələr daha gözəl, daha əsrarəngiz görünür. Sükutu ilə, sakitliyi ilə, gözəlliyi ilə, bənzərsizliyi ilə, səssizliyi ilə qəlbimizi oxşayır, ovqatımıza ovqat qatır, rəng qatır. Gündüz yorğun gözlərini yuman kimi, gecə dünyaya yeni doğulan körpə kimi göz qapaqlarını sevinə-sevinə açır. Bu anlarda ulduzlar da göy üzündən yer üzünə boylanır. Kim bilir, bəlkə elə gecəni gözəlləşdirən buğda dənələri kimi səmanın ənginliyinə, sonsuzluğuna səpələnmiş ulduzlardır. Əgər günlərin birində hansısa qüdrətli bir əl ulduzları səmadan silsə, onda gecəmiz necə görünər? Yəqin ki, ətrafa çökən zülmət qaranlıq darıxdırıcı olar, göy üzü yaraşıqdan düşər. Səmanın işıqları sönər, yerə, göyə zülmət çökər. Amma göy üzündən ulduzları silməyə heç kimin gücü çatmaz. Çünki həyat, zaman və dünya kimi ulduzlar da əbədi-əzəlidir. Dünyamızın ən bənzərsiz, misilsiz gözəlidir. Deməli, gecələrimiz də, gündüzlərimiz də olduğu kimi həmişə gözəl olaraq qalacaq. İnsanlar da bu gözəllikdən, bənzərsizlikdən zövq aldıqca alacaq.*

*Gecələr ulduzların seyrinə dalmaq, sirli-sehrli bir aləmlə üz-üzə qalmaq necə də xoşdur. Bu gözəllikdən zövq aldıqca qəlbimizdə bir-birindən dəyərli fikirlər doğulur. Elə buna görə də gecənin sakitliyində əl çatmayan səmaya səpələnmiş ulduzlara baxmaqdan doymuruq. Baxdıqca baxırıq, səmanın kitab kimi qarşımızda geniş açdığı gözəllikdən gözümüzü çəkmirik. Ulduzların düzülüşü, sıralanması, alışıb yanması, hərdən sayrışması zövqümüzü oxşayır.*

*Heç gecələrin birində ulduzların tökülməsinə, necə deyərlər, "ulduz yağışı"na baxmısınızmı? O möcüzəli anları yaşamısınızmı, o gözəl mənzərəni görmüsünüzmü, onun sevincini duymusunuzmu? Hərdən görürsən ki, budur, gecənin bir aləmində göyün üzündən ulduzlar bir-bir sanki arxalarınca işıq quyruğu buraxa-buraxa üzü aşağı axır. Elə bil həmin anlarda ulduzlar yer üzünə gözəllik süzür, nur ələyirlər, insanlara Tanrıdan xoşbəxtlik diləyirlər. O axşamlarda sanki ulduzların sayı göydə azalır.*

*Bəzən görürük ki, səmanın bir tərəfində ulduzlar topa-topadır, bir tərəfində tək-təkdir, bir az seyrəkdir. Səmanın lap kənarında, yerə yaxın hissəsində bir ulduz tək dayanıb. Nədənsə bir az başqa rəngə boyanıb. Bunu görəndə düşünürük ki, nədən ulduz tək qalıb, niyə fikrə dalıb. Bəlkə o biri ulduzlarla sözü düz gəlməyib, aralığa inciklik düşüb. Yox, yox, ulduzlar mehriban olurlar, bir-biriləri ilə dalaşmazlar, küsüşməzlər. Yəqin ulduzu yuxu aparıb, onu yoldaşlarından qoparıb. Yuxusuzluqdan çaşıb, yolu səhv salıb. Bir azdan oyanar, qayıdıb öz yerində dayanar, yenə də par-par yanar.*

*Ulduzlar lap uzaqlarda olsalar da, zaman-zaman insanlarla dostluq ediblər, onlara yol göstəriblər, qayğılarına qalıblar. İnsanlar da həmişə ulduzları çox seviblər, övladlarına bu adı qoyublar. Uzaq keçmişlərdə texnologiyanın olmadığı çağlarda səfərlərə çıxan karvanlar yollarını ulduzların düzülüşü ilə müəyyənləşdiriblər. Ulduzların göstərdiyi yollarla gediblər, gəliblər. Səfərləri də həmişə uğurlu olub, xeyirli olub.*

*İllər, əsrlər bir-birini əvəz etdikcə, sıralanıb dəyişdikcə, zaman keçdikcə sanki ulduzlar daha da gözəlləşirlər. Gecələr göy üzündən yer üzünə daha çox işıq süzür, nur çiləyirlər. Ulduzlardan süzülən işıq, nur dünyamızı daha da gözəl göstərir, hər tərəfə yaraşıq verir, işıq verir. Belə gözəl dünyada yaşamaq isə həmişə xoşdur.*

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***



## "Zəkaların mübarizəsi" olimpiadasının Şirvan-Salyan regionu üzrə qalibləri müəyyənləşib

**"Zəkaların mübarizəsi" olimpiadası çərçivəsində Şirvan-Salyan Regional Təhsil İdarəsi üzrə şahmat turnirinin regional mərhələsi təşkil olunub. Turnirdə Şirvan, Neftçala, Biləsuvar, Salyan və Hacıqabul rayonlarını təmsil edən IX-XI sinif şagirdlərindən ibarət 5 komanda iştirak edib.**

AZƏRTAC xəbər verir ki, FIDE qaydalarına əsasən təşkil olunan yarış gərgin və maraqlı qarşılaşmalarla yadda qalıb. Neftçala rayonunun şahmat komandası yüksək nəticə göstərərək rəqiblərini geridə qoyub və regional mərhələnin qalibi elan olunub. Biləsuvar rayonunu təmsil edən komanda II, Salyan rayonunu təmsil edən komanda III yerə layiq görülüb.

Şahmat turniri iki mərhələdən - regional və respublika mərhələlərindən ibarətdir. Bütün mərhələlər FIDE qaydalarına uyğun olaraq keçirilir. Ən yüksək nəticə göstərən komanda regional mərhələnin qalibi hesab olunur və növbəti mərhələdə - respublika yarışında regionu təmsil etmək hüququ qazanır.

Qeyd edək ki, "Zəkaların mübarizəsi" olimpiadasının əsas məqsədi şagirdlərdə fənlərin dərindən öyrənilməsinə marağı artırmaq, onların dünyagörüşünü genişləndirmək, sağlam rəqabət mühiti yaratmaq, müxtəlif regionlardan olan şagirdlər arasında dostluq əlaqələri qurmaq və ümumilikdə öyrənməyə təşviq etməkdir.

## Mövqelərimiz Basarkeçər və Gorus istiqamətlərindən atəşə tutulub

Aprelin 11-i saat 20:10-dan 23:15-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər və Gorus rayonları istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

## Axtarışda olan 6 nəfər saxlanılıb, 38 kiloqramdan çox narkotik vasitə aşkarlanıb

**Aprelin 11-də polis əməkdaşlarının cinayətkarlığa qarşı qətiyyətli mübarizə tədbirləri davam etdirilib. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, keçirilən əməliyyat tədbirləri nəticəsində dələduzluğa görə axtarışda olan 6 nəfər saxlanılaraq istintaqa təhvil verilib.**

Bundan başqa, ümumi çəkisi 38,7 kiloqramdan artıq narkotik vasitə aşkar olunaraq götürülüb.

Qanunsuz dövriyyədən çıxarılan narkotik vasitələr - 2 kiloqrama yaxın heroin, 36,7 kiloqramdan çox marixuana və metamfetamin olub.

Ötən gün həmçinin Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən qanunsuz saxlanılan odlu silah-sursatın aşkar olunaraq götürülməsi istiqamətində əməliyyat və profilaktik tədbirlər davam etdirilib. Polis əməkdaşları paytaxt və respublikanın ayrı-ayrı rayonlarında 4 avtomat silahı, 1 tapança, 1 qumbara, 1 patron darağı və 42 ədəd müxtəlif çaplı patron aşkar edərək götürüblər.




# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*




# Bilmək istəyirəm

*Yeni aldığım elektrik sobasının qapısı kip bağlanmır. Həmin məhsuldan qalmadığı üçün dəyişmək mümkün olmadı. Geri qaytarmaq istəyəndə isə satıcı dedi ki, "endirimli mal geri qaytarılmır". Hadisə eyni gündə baş verib. Bu, qanunidirmi?*

***Şəbrin FEYZİYEVA,***
***Xırdalan şəhəri***

✓ Sualınızda qaldırılan məsələnin hüquqi həlli əsas etibarilə "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, Mülki Məcəllə və İnzibati Xətalar Məcəlləsi ilə tənzimlənir.

Əvvəla, nəzərə almaq lazımdır ki, malda qüsurun olub-olmamasından asılı olmayaraq, adıçəkilən qanunun 15-ci maddəsinə əsasən, lazımi keyfiyyətli qeyri-qida malı öz formasına, ölçüsünə, fasonuna, rənginə görə istehlakçıya yaramırsa və ya digər səbəblərə görə təyinatı üzrə istifadəsi mümkün deyilsə, istehlakçının onu alındığı yerdə uyğun mala dəyişdirmək hüququ vardır. İstehlakçı malın alınma günü sayılmamaq şərti ilə 14 gün ərzində həmin malı lazımi keyfiyyətli mala dəyişdirmək hüququna malikdir. Malı dəyişdirmə anında satışda uyğun mal yoxdursa, istehlakçı dəyəri yenidən hesablamaqla istənilən başqa bir malı almaq və ya qaytarılan malın dəyəri məbləğində pulu geri götürmək, ya da satışa uyğun mal gələn kimi onu dəyişdirmək hüququna malikdir.

Qüsurlu malla bağlı isə aşağıdakılar qeyd olunmalıdır:

Aldığınız elektrik sobasının qapısının kip bağlanmaması "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunun prizmasından mühüm qüsur hesab olunmaqdadır. Belə ki, qanunun 1-ci maddəsinə əsasən, maldan onun məqsədli təyinatına müvafiq surətdə istifadə olunmasını qeyri-mümkün edən hal mühüm qüsur sayılmaqdadır. Elektrik sobasının qapısının bağlanmaması da mühüm qüsur olaraq xarakterizə edilməlidir, çünki bu halda avadanlığın istifadəsindən istənilən nəticə əldə oluna bilməz.

Həmin qanunun 7-ci maddəsi və Mülki Məcəllənin 623, 624-cü maddələrinə görə, istehlakçı müqavilə və ya digər qaydalarla müəyyən olunmuş zəmanət müddəti ərzində aldığı malda qüsur aşkar edərsə, öz istəyinə görə satıcıdan qüsurlu malı lazımi keyfiyyətli malla dəyişdirilməsini tələb edə bilər. Satıcı isə öz növbəsində qeyd-şərtsiz istehlakçıdan lazımi keyfiyyəti olmayan malı geri götürməyə, istehlakçının tələbini yerinə yetirməyə borcludur. İstehlakçının malı dəyişmək tələbi mal olduqda dərhal yerinə yetirilməli, zərurət olduqda onun keyfiyyəti müvafiq tələb verilən andan 14 gün müddətində yoxlanılmalı və ya tərəflər arasında razılaşdırılmış müddət ərzində dəyişdirilməlidir. İstehlakçının malı dəyişdirmək tələbi mal olmadıqda müvafiq ərizənin verildiyi andan iki ay müddətində ödənilməlidir. Bununla bərabər, alıcının malın dəyişdirilməsi və ya qaytarılması haqqında tələbi bu şərtlə ödənilməlidir ki, mal işlənmiş olmasın, istehlak xassələri qorunub saxlansın və həmin satıcıdan alındığına dair sübutlar olsun.

Sizin halınızda endirimli malların geri qaytarılmaması məsələsinə gəldikdə isə, qanunvericiliklə satıcılara belə bir imtiyazlı hüquq verilməmişdir və həmin satıcının bu iddasının hüquqi əsası yoxdur.

Tələbiniz satıcı tərəfindən yerinə yetirilməzsə, bu zaman siz Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin "195-1-4" qaynar xəttinə müraciət edə bilərsiniz. Agentliyin ixtisaslaşdırılmış strukturları bu məsələdə sizə zəruri kömək göstərəcəkdir. Əgər satıcı tərəfindən agentliyin tələbi (istehlakçının qüsurlu malının dəyişdirilməsi üzrə qərarı) yerinə yetirilməsə, İnzibati Xətalar Məcəlləsinin 544-cü maddəsinə əsasən, satıcını 4000 min manatdan 5000 manatadək cərimə gözləyir.

*Bacım iki aya yaxındır ki, vəfat edib, amma onun üçün dəfn müavinəti verilmədi. Bilmək istəyirəm dəfn müavinəti kimlər üçün nəzərdə tutulub, məbləği nə qədərdir və verilməli olduğu halda ailə üzvlərindən kim ala bilər?*

***Kamil PƏNAHOV,***
***Sumqayıt şəhəri***

✓ Vəfat edən şəxslərə birdəfəlik dəfn müavinətinin verilməsi məsələsi əsas etibarilə Azərbaycan Respublikasının "Sosial müavinətlər haqqında" qanunu, "Əmək pensiyaları haqqında" qanunu və "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 29.08.2013-cü il tarixli 973 saylı fərmanı ilə tənzimlənir. "Sosial müavinətlər haqqında" qanuna əsasən, dəfn üçün müavinətin formalaşma mənbəyini vəfat edən şəxsin işlədiyi dövrdə onunla bağlı işəgötürən (fərdi qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olmuş şəxsin özü barəsində özü) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta vəsaiti təşkil edir. Daha dəqiq desək, dəfn müavinəti almaq üçün vəfat etmiş şəxs "Sosial müavinətlər haqqında" qanunun 7.0.13-cü maddəsi ilə vaxtilə dövlət qulluqçularına ömürlük müavinət, yaşa görə müavinət, əlilliyə görə müavinət, ailə başçısını itirməyə görə müavinət və ya "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq işsizlikdən sığorta ödənişini alan şəxs kateqoriyalarından birinə aid olan şəxs olmalıdır. Əlavə olaraq qeyd olunmalıdır ki, "Əmək pensiyaları haqqında" qanunun 42-ci maddəsinə görə, əmək pensiyaçısı vəfat etdikdə, həmin şəxslərə də dəfn üçün müavinətin verilməsi nəzərdə tutulmuşdur. Həmin maddəyə əsasən, vəfat edən əmək pensiyaçısının ailəsinə pensiyaçının vəfatı tarixinə əmək pensiyasının minimum məbləğinin üç misli məbləğində dəfn üçün müavinət verilir. Əgər vəfat edən şəxs əmək pensiyaçısı deyildirsə, bununla belə o, "Sosial müavinətlər haqqında" qanunun 7.0.13-cü maddəsinin təsiri altına düşürsə, onun ailə üzvlərinə ödəniləcək dəfn üçün müavinətin məbləği yuxarıda qeyd olunduğu kimi, dövlət başçısının fərmanı ilə 500 manat təşkil edir. Hər bir halda müavinət vəfat edənin dəfni ilə bağlı xərcləri çəkmiş şəxslərə ödənilir. Ödənişin həyata keçirilməsi DOST mərkəzləri tərəfindən təmin edilir.

Beləliklə, əgər bacınızın vəfatı ilə bağlı dəfn üçün mavinət ödənilməmişdirsə, böyük ehtimalla, o, barəsində məcburi dövlət sosial sığorta ödənişi həyata keçirilmiş şəxslər kateqoriyasına daxil deyilmiş. İstənilən halda məsələnin dəqiq həlli ilə əlaqədar barəsində müavinət təyin olunacaq şəxsin ölüm haqqında şəhadətnaməsinin surəti, müavinətin alınması üçün Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbəsinin arayışı, dəfni təşkil edən şəxsin şəxsiyyətini təsdiq edən sənədin surəti və dəfni təşkil edən şəxs barədə yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə və ya sahə inzibati ərazi dairələri üzrə nümayəndələrinin arayışı ilə DOST mərkəzlərinə və ya bacınızın qeydiyyatda olduğu yer üzrə Dövlət Sosial Müdafiə Fondunun struktur bölməsinə yaxınlaşmağınız tövsiyə olunur.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Azərbaycan Respublikası hərbi prokurorunun böyük köməkçisi - Hərbi Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Firad Əliyevə anası

**NİŞANƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3448**
**Sifariş 689**

**Qiyməti 60 qəpik**